As a result of the screening, 54 theses were reached. 49 of these theses were eliminated because they were not about educating students about the virus. As a result of the screening, 15 theses were listed. The data obtained using the abstract sections of the theses were analysed descriptively. According to the findings; it has been found that studies have been conducted on more than one type of virus. In particular, knowledge and attitude levels about infectious viruses such as HPV (Human Papilloma Virus) and Hepatitis B and their vaccines were examined; While there are studies examining the contribution of various educational programs to this information, it has been observed that primary and secondary education programs examine virus issues and events such as the COVID process and fear of the virus. According to the results of the research, society's level of knowledge about viruses is limited. This may be because the virus education provided in primary and secondary education programs is limited. In addition, the training programs organized increase the knowledge and awareness of citizens. Since these viruses have a high and rapid spread probability, the treatments to be developed must be planned quickly and strongly.

Keywords: Virüs Education, Türkiye, Document Analysis

MIRZA ALAKBAR SABIR'S ARTISTIC REACTION TO THE POETRY OF TURKISH POET NAMIQ KEMAL

MİRZƏ ƏLƏKBƏR SABİRİN TÜRK ŞAİRİ NAMİQ KAMAL POEZİYASINA BƏDİİ REAKSİYASI

ULDUZ FƏRHAD QIZI QƏHRƏMANOVA

Filologiya Üzrə Fəlsəfə Doktoru

Azərbaycan Dövlət Pedaqoji Universiteti

"Ədəbiyyat" Kafedrasında Baş Müəllim

Orcid İD: 0009-0003-4418-9319

Abstrakt:

M.Ə.Sabir keçən yüzilliyin böyük türk şairi N.Kamalın (1840-1888) 1907-ci ildə "Füyuzat" jurnalının 11-ci nömrəsində çap olunmuş bir şerinə iki nəzirə yazmışdır. Türkiyənin inqilabçı şairlərindən olan Namiq Kəmalın yüksək vətənpərvərlik hissilə yazılmış və "Amalımız, əfkarımız iqbali-vətəndir!" misrası ilə başlayan siyasi-lirik şeirinə M.Ə.Sabir "Övradımız, əzkarımız, əfsaneyi-zəndir" misrası ilə başlayan parodiyasını yazmışdır. Sabirin bu satirası "Namiq Kamalın 1907-ci ilə "Füyuzat" jurnalında 3 mart, № 11-də çap edilmiş, "Amalımız, əfkarımız iqbali-vətəndir!" misrası ilə başlayan şeirinə ikinci nəzirədir. M.Ə.Sabirin N.Kamala, onun həmin şeirinə bənzətmə olaraq yazmış olduğu bu bədii reaksiyası eynilə digər şeirləri kimi təhzildir. Mövzu və məzmunları müxtəlif olsa da, poetik mahiyyətləri baxımından Sabirin bu iki təhzili arasında, demək olar ki, fərq yoxdur. "Lakin bəzi ümidsizlik və kədər motivlərini çıxmaq şərti ilə Namiq Kamal yaradıcılığında vətənin sabahına, onun gələcəyinə inam hürriyyət və istiqbal düşüncələri qədər güclüdür. Türkiyənin düşmən qüvvələrlə üzləşdiyi ən çətin məqamlarda belə şair sabaha olan inamını itirməmiş, xalqının qələbə çalacağını ön plana çəkmişdir. Namiq Kamal yaradıcılığında aparıcı yer tutan, hazırda türk gəncliyinin dillər əzbəri olan, milli duyğu və hisslərin tərənnümü baxımından əvəzsiz nümunəyə çevrilən "Nam alırız biz" şeiri bu cəhətdən xarakterikdir".

Açar sözlər: M.Ə.Sabir, Namiq Kamal, bədii reaksiya, təhzil, nəzirə

Abstract:

M.A. Sabir wrote two vows to a poem of the great Turkish poet of the last century, N. Kamal (1840-1888), published in 1907 in the 11th issue of "Füyuzat" magazine. Namig Kemal, one of the revolutionary poets of Turkey, was written with a high sense of patriotism and said "Our action, our thought is iqbali-watan!" M.A. Sabir wrote a parody of his political-lyrical poem, which begins with the verse "Our family, our memory, legend and zandir". This satire of Sabir was published in "Fyuuzat" magazine, March 3, No. 11 by Namig Kamal in 1907, "Our practice, our thought is Iqbali-watan!" It is the second vow to the poem that begins with the verse. This artistic reaction of M.A. Sabir to N. Kamal, which he wrote as an analogy to that poem, is just like his other poems. Although the topics and contents are different, there is almost no difference between these two studies of Sabir in terms of their poetic essence.

"However, with the exception of some motives of despair and sadness, the belief in the tomorrow of the motherland and its future is as strong as the thoughts of freedom and the future in Namiq Kemal's work. Even in the most difficult moments when Turkey was faced with hostile forces, the poet did not lose faith in the future and emphasized that his people would win. The poem "Nam alıryz biz", which takes a leading place in Namık Kemal's creativity, is currently the language memory of Turkish youth, and has become an invaluable example in terms of the celebration of national emotions and feelings, is characteristic in this respect.

Key words: M.A. Sabir, Namiq Kamal, artistic reaction, study, vow

Giriş:

Azərbaycan ədəbiyyatşünaslığında Mirzə Ələkbər Sabirin Türk şairi Namiq Kamal poeziyasına bədii reaksiyası problemi M.Cəlal, Ə. Cəfər, C.Xəndan, N.Paşayeva, T.Novruzov kimi tədqiqatçılarımızın elmi məqalələrində və monoqrafiyalarında öz əksini tapmışdır. M.Ə.Sabirin bədii reaksiya yaratdığı sənətkarlar arasında müasir türk şairləri də vardır. Demək lazımdır ki, o dövrdə "Füyuzat", "Yeni füyuzat" jurnalları ətrafına toplaşan söz-sənət nümayəndələri Türkiyə şairlərinə xüsusi bir hörmətlə yanaşır, Azərbaycan ədəbiyyatının həqiqi inkişaf yolunu onlara bədii reaksiya yaratmaqda görürdülər.

Əsas hissə: "Namiq Kamalın yaşadığı dövrün ictimai-siyasi problemləri, ziddiyyət və çətinlikləri birmənalı şəkildə yaradıcılığına təsir göstərmiş, sənətində mənsub olduğu xalqın, vətəndaşı olduğu ölkəsinin həyatı üçün xarakterik cəhətlər özünün hərtərəfli əksini tapa bilmişdir. Bu dövr Türkiyədə daha çox Avropa təsiri ilə xarakterizə olunurdu. İlk növbədə Türkiyədə Avropayönlü mətbuat orqanlarının dərci, Avropa yazıçı və şairlərinin əsərlərinin türk dilinə tərcüməsi geniş vüsət almışdı. Tənzimat ədəbiyyatının digər nümayəndələri kimi Namiq Kamal da Avropa ədəbiyyatının təsiri ilə yeni formalaşan türk ədəbiyyatını köhnə məzmun və formadan uzaqlaşdırmağa çalışır, yeni inkişaf mərhələsində ədəbiyyatın qarşısında dayanan vəzifələri həll etməyi vacib məsələ kimi irəli sürürdü." (5, 79) "Hophopnamə"ni vərəqlədikcə biz orada N.Kamal, R.M.Əkrəm, A.Cövdət kimi şairlərdən Sabirin necə bəhrələndiyini görürük. Sabir bunların bəzisinə nəzirə, bəzisinə parodiya, bəzisinə cavab yazmış, hətta bəzisinin şeirini öz məqsədinə uyğun şəkildə təxmis etmişdir. Ə.Cəfərə görə, "Hophopnamə"nin həm köhnə, həm yeni naşirləri **Sabirin iki şerini** böyük türk şairi və dramaturqu **N.Kamalın bir şerinə nəzirə** adlandırırlar. Lakin Sabirin özündə, onun göstərilən şeirlərinin ilk nəşrində bu xüsusda heç bir qeyd yoxdur. Onun bu şeirləri hətta tamam sərlövhəsiz çıxmışdır. A.Səhhət öz nəşrində Sabirin birinci şeirini N.Kamalın göstərilən şeirinə "Nəzireyi-təməsxüranə" adlandırır. İkincisi haqqında isə heç bir qeyd vermir. Namiq Kamal XIX əsrin ikinci yarısında avropayönlü yeni türk ədəbiyyatının formalaşma və inkişafında xidməti olan ən məşhur türk sənətkarlarından biri olmuşdur. O, yaradıcılığa şeirlə başlamışdır. Ilk dövrlərdə divan şeirinin təsiri ilə yazsa da, qısa müddətdə o, Tənzimat ədəbiyyatının tələbləri zəmnində əsərlər yazmış, bu ədəbiyyatın ruhuna uyğun olaraq xalqın azadlığı məsələlərinə xüsusi fikir vermişdir. Sabir keçən yüzilliyin böyük türk şairi N.Kamalın (1840-1888) 1907-ci ildə "Füyuzat" jurnalının 11-ci nömrəsində çap olunmuş **bir şerinə iki nəzirə** yazmışdır. Türkiyənin inqilabçı şairlərindən olan Namiq Kəmalın yüksək vətənpərvərlik hissilə yazılmış və "Amalımız, əfkarımız iqbali-vətəndir!" misrası ilə başlayan siyasi-lirik şeirinə M.Ə.Sabir "Övradımız, əzkarımız, əfsaneyi-zəndir" misrası ilə başlayan parodiyasını yazmışdır. Sabirin bu satirası "Namiq Kamalın 1907-ci ilə "Füyuzat" jurnalında 3 mart, № 11-də çap edilmiş, "Amalımız, əfkarımız iqbali-vətəndir!" misrası ilə başlayan şeirinə ikinci nəzirədir". (6, 347)

Namiq Kamal:

Amalımız, əfkarımız iqbali-vətəndir,

Sərhəddimizə qələ bizim xaki-bədəndir,

Osmanlılarız, zinətimiz qanlı kəfəndir,

Qovğadə şəhadətlə bütün kam alırız biz,

Osmanlılarız, can veririz, nam alırız biz...

M.Ə.Sabir:

1.Amalımız, əfkarımız ifnayi-vətəndir.,

Kinü qərəzü hirs bizə ziynəti-təndir.

Əfal yox, ancaq işimiz lafi-dəhəndir,

Dünyadə əsarətlə bütün kam alırız biz,

Qafqazlılarız, yol kəsiriz, nam alırız biz!

2.Övradımız, əzkarımız, əfsaneyi-zəndir,

Əfsaneyi-zən nuri-dilü ruhi-bədəndir,

Çün hübbi-nisa lazımeyi-hübbi-vətəndir,

Əhli-vətəniz, hübdi-vətən yad alırız biz!

Dindarləriz, gündə bir arvad alırız biz!

Göründüyü kimi, M.Ə.Sabirin N.Kamala, onun həmin şeirinə bənzətmə olaraq yazmış olduğu bu bədii reaksiyası eynilə digər şeirləri kimi təhzildir. Mövzu və məzmunları müxtəlif olsa da, poetik mahiyyətləri baxımından Sabirin bu iki təhzili arasında, demək olar ki, fərq yoxdur. "Lakin bəzi ümidsizlik və kədər motivlərini çıxmaq şərti ilə Namiq Kamal yaradıcılığında vətənin sabahına, onun gələcəyinə inam hürriyyət və istiqbal düşüncələri qədər güclüdür. Türkiyənin düşmən qüvvələrlə üzləşdiyi ən çətin məqamlarda belə şair sabaha olan inamını itirməmiş, xalqının qələbə çalacağını ön plana çəkmişdir. Namiq Kamal yaradıcılığında aparıcı yer tutan, hazırda türk gəncliyinin dillər əzbəri olan, milli duyğu və hisslərin tərənnümü baxımından əvəzsiz nümunəyə çevrilən "Nam alırız biz" şeiri bu cəhətdən xarakterikdir". (5, 82) Sabirin bu satirik şeiri ilə N.Kamalın şeirinin müqayisəsinə gəldikdə isə görünür ki, hər iki şeir beşlik, beşliyin mətləsiz-nəqəratlı şəklində yazılmışdır. N.Kamalın şeirinin vəzni yuxarıda gördüyümüz həzəcin altıncı növüdür, Sabirdə də vəzn eynidir. N.Kamalın şeirində qafiyə sistemi bütün bəndlərdə aaabb şəklindədir. Sabirdə də həmçinin bütün bəndlərdə qafiyə eyni sistemdədir; qafiyələrin özləri də, rədifləri də leksik materialca da eynidir; hər iki şeirdə qafiyələr əsasən- "kam, nam", rədiflər "...alırız biz"dir. Bu birliklərlə yanaşı olaraq, bu iki şeir arasında yenə forma cəhətindən fərqlər də vardır:

a) N.Kamalın şeiri dörd beşlikdən, Sabirin şeiri isə beş beşlikdən ibarətdir.

b) N.Kamalın beşlikləri cüt nəqəratlı, Sabirin beşlikləri təknəqəratlıdır. Bunlardan əlavə, Sabirin şeirində beşinci bənd nəqəratsızdır. Onda nəqərat misrası yerində tamam başqa sözlərlə satirik bir misra durur. Bədii forma cəhətindən bu iki şeirin arasında mühüm bir fərq yoxdur. Bu qədər bənzəyişlər bir şeirin digər bir şeirə nəzirə olmasına kafi hesab edilə bilər. Lakin əsas məsələ bu şeirlərin mövzusunda, ruhunda, ictimai mündəricəsində, ideya məzmunundadır. Birincisində vətənin iqbalı, gələcək səadəti istənilir, ikincisində vətənin ifnaya, məhv edilməyə doğru aparıldığı bildirilir.

Zahiri uyğunluqlar və bədii formanın müxtəlif cəhətlərindən səslənişləri bu iki şeiri bir-birinə son dərəcə yaxınlaşdırır. Lakin bütün bunlara baxmayaraq, bu şeirlər ədəbi keyfiyyətcə və ictimai ideyaca bir-birinə zidd iki əsərdir. N.Kamalın şeiri **romantik patriotizm** ilə gurlayan bir əsər ikən, Sabirin şeiri tarixin həqiqətəri ilə yanan bir qəlbin ilhamıdır. Tək bu cəhətdən aydın olur ki, Sabirin bu şerini N.Kamalın şeirinə nəzirə saymaq büsbütün səhvdir. Burada biz Azərbaycan şairinin böyük türk şairinə qüvvətli bir təhzilini görürük. Sabir bu şeirlərini 1907-ci ilin mart, may aylarında yazmışdır. Bu dövr İranda irticanın güclənməsi dövrü idi. Bunların nəticəsində ölkədə inqilabi hərəkət dalğaları yüksəlir, tətillər, nümayişlər edilir, "Yaşasın hürriyyət!"; "Biz məşrutə istəyirik!" deyə xalq və xalqın nümayəndələri alovlu nitqlərlə hökumətə qarşı mitinqlər qururdular. Belə bir şəraitdə N.Kamalın həmin şeiri İran inqilabçıları tərəfindən "Marselyoza" kimi oxunurdu. N.Paşayevaya görə, hər iki bənzətməsində eyni formaya, eyni bəhrə sadiq qalan Sabir məzmunu tamamilə əks istiqamətə, yəni satirik tipin ifşasına doğru yönəltmiş, güclü siyasi-ictimai mənalı satira yaratmışdır. Sabir birinci bənzətməsində Qafqaz hadisələrini təsvir edir, müsəlmanların əxlaqa, mədəniyyətə, tərəqqi və inkişafa zidd hərəkətlərini, vəhşicəsinə yol kəsib ad almaqla fəxr etdiklərini öldürücü satiraya, kinayə və sarkazma hədəf edir. Misralardan göründüyü kimi, N.Kamal öz xalqının mərdliyi, igidliyi, dönməzliyi ilə fəxr edirsə, Sabir Qafqaz müsəlmanlarının "Yol kəsib, nam almalarını", "meyxanada vodqa vurub, kam almalarını", "qəflətdə yatmalarını", gündə eşqə düşüb bir arvad almalarını və başqa bu kimi iyrənc əməllərini ifşa edirdi. Sabirin "fəxri" də belə bir məzmun daşıyırdı. Əgər N.Kamalın lirik qəhrəmanının məqsədi "İqbali-vətən" isə, Sabirin satirik tipi "amalımız, əfkarımız iqbali-vətəndir"-deyərək əxlaqi, mənəvi, simasızlığını büruzə verir. Yaxud, N.Kamalın qəhrəmanı "sərhəddimizə qələ bizim xaki-bədəndir"-deyərək vətən uğrunda candan belə keçməyə hazır olduğunu bildirirsə, Sabirin satirik tipi "kini", "qərəzi", "ədavəti" özünə "zinət" seçib "əfsaneyi-zəni" "nuri-dilü ruhibədən" bilir. N.Kamalın həmin şeirinə "Övradımız, əzkarımız, əfsaneyi-zəndir" adlı ikinci bənzətməsində Sabir yenə də istifadə olunmuş formaya yeni ictimai məzmun vermiş, onu təzə məzmunla birlikdə yerli və milli zəminə, koloritə tam uyğunlaşdırmışdır. Bu şeirində Sabir o zamankı müsəlman aləmində geniş yayılmış çoxarvadlılığı tənqid və ittiham edir. Şairin ifşa etdiyi tip köhnəpərəstlərin, cahil dindarların ümumu mənfi tipidir və tip mənsub olduğu zümrənin dilindən deyir. M.Ə.Sabir Namiq Kamalın yüksək romantik pafoslu şeirini öz üslubuna uyğun dəyişdirib, onun poetik strukturu əsasında satirik münasibət ifadə edən yeni bir şeir yazmışdır. Füzuliyə parodiyalarda olduğu kimi burada da tənqid və ironiya hədəfi şeirin müəllifi yox, tamam başqa siyasi-ictimai qüvvələrdir. Namiq Kamalın şeiri Sabir üçün bu işdə ancaq köməkçi rolu oynamışdır. Parodiyanın bu tipi Sabirin ciddi satira üslubu ilə sıx bağlıdır. Sabirin "Övradımız, əzkarımız, əfsaneyi-zəndir" adlı satirası ilk dəfə "Molla Nəsrəddin" jurnalında 5 may 1907, № 18-də "Boynuyoğun" imzası ilə çap olunmuşdur. Bütün nəşrlərə daxil edilmişdir. Üçüncü və dördüncü nəşrdə "Gündə bir arvad alırız biz" adı ilə verilmişdir. Göründüyü kimi, burada Namiq Kamalın dilindən, üslubundan, qayəsindən heç bir əsər qalmamışdır, əslində onun turançılıq ideyasına parodiya yazılmışdır. Bu, şairin həmin şeirinə Sabirin yazdığı ikinci parodiyada da daha aydın görünür. Bu parodiya lap ilk misrasından tək bircə sözün dəyişikliyi ilə başlanır. "Amalımız, əfkarımız iqbali-vətəndir." Göründüyü kimi, Namiq Kamalın tək bir sözü dəyişdirilib "iqbal" əvəzinə "ifna" yazılmışdır. Bu kiçik dəyişiklik böyük fərqə səbəb olmuş, lirik şeir satirik şeirə çevrilmiş, Namiq Kamalın misrası Sabirin olmuş, şeirin ideya istiqaməti, hətta üslubu da fərqlənmişdir. Namiq Kəmal iftixar hissi ilə "turanlılarız!" deyə vətənpərvərlik ruhunu tərənnüm etdiyi, həm də təkcə Türkiyəni deyil, Turanı nəzərdə tutduğu halda, Sabir tərənnüm ruhunu satira ilə əvəz edib, turanlılar əvəzinə qafqazlılardan bəhs edərək yazmışdır. M.Ə.Sabirin "Deyirdik bir zəmanlar biz kəmali-fəxrü hümmətlə" adlı dörd misralıq şeiri tərəqqipərvər türk şairi Namiq Kamalın "Hürriyyət qəsidesi" ndən doğmuşdur.

Sabirin bu şeiri ilk dəfə "Həqiqət" qəzetində 14 iyul 1910, № 16-da "Ə.Sabir" imzası ilə çap olunmuşdur. Birinci nəşrdən başqa, bütün qalan nəşrlərə daxil edilmişdir. (6, 407)

Namiq Kamal:

Biz ol ali-himem erbab-ı cidd ü içtihadız kim

Cihangirane bir devlet çıkardık bir aşiretten.

M.Ə. Sabir:

Deyirdik bir zəmanlar biz kəmali-fəxrü hümmətlə

Cəhangiranə bir dövlət çıxardıq bir əşirətdən

Bu gün də iftixar etsək səzadır fərti-qeyrətlə:

Kərəmkaranə beş dövlət yetişdirdik rəiyyətdən!

"Cəhangiranə bir dövlət çıxardıq bir əşirətdən" adlı ikinci misra N.Kamalın həmin bu məşhur qəsidəsindən bir misradır. Sabir poetikasında parodiya formal olaraq yalnız janr hadisəsi kimi də başa düşülməməlidir. O həm də poetikada inqilabi-satirik poeziyanın klassik şeir ənənləri ilə, müasir poetik proseslə əlaqəsinin bir forması və təzahürüdür. Mir Cəlala istinadən demək olar ki, Sabir ömrünün sonlarına, 43-44 yaşlarına qədər köhnə üsulda, qəzəl, qəsidə üslubunda, Şərq klassizmini təqlidən şeirlər yazmışdır. Köhnə şeir üslubundakı bütün üsullar şairin nəzərində öz təravətini itirmiş, yorucu olmuşdu. O, nə isə yeni bir söz demək, yeni bir fikir söyləmək həvəsində idi. Belə bir yenilik, üçün divan ədəbiyyatı üslubu, bədii sənəti yaramırdı. Yeni ifadə şəkli axtarmalı, tapmalı idi. Həmin bu zamanlarda 1905-ci il inqilabı başlandı. Bu hadisə M.Ə.Sabir üçün işıqlı bir ilham fanarı yandırdı.

Nəticə: Sabir klassik Azərbaycan və Şərq ədəbiyyatının gözəl, bədii ənənələrinə etinasızlıq göstərmədi, onları məhəbbətlə öyrəndi və mənimsədi. Lakin onları mexaniki olaraq təkrar etmədi, inkişaf etdirdi, yeni fikirləri, yeni həyatı, yeni dövrü kəskin və qabarıq əks etdirmək üçün yeni bədii priyomlarla zənginləşdirdi. Bütöv əsrin ağrı-acısını öz çiyinlərində yeni əsrə aparan Sabir satirası məhz elə bu səbəblərdən doğuldu. O, köhnə şeirin standart hala düşmüş, çeynənmiş surət və ifadə xüsusiyyətlərinə elə məharətlə güldü ki, bu üsulun müəlliflərindən heç biri Sabir gülüşünün qarşısına çıxa bilmədi. Sabirin gülüşü ictimai, tənqidi gülüşdür. Bu gülüş düşmənlərə qarşı, cəhalətə, köhnəliyə qarşı çevrilmişdir. Sabir klassik şeirin qəlib şəkli almış köhnə, bayağı, çeynənmiş normalarını dağıtmış, şeirə yeni, müasirlikdən, canlı danışıqdan gələn bədii-ifadə vasitələri gətirmişdir. Və bütün bu deyilənləri Sabirin N.Kamala yazdığı parodiyalarında da açıq-aşkar görmək mümkündür. Azərbaycan ədəbiyyatşünaslığında Namiq Kamalın, "türklərin üç inqilabçı şairindən biri" kimi səciyyələndirilməsi, sözün həqiqi mənasında, onun vətən eşqi, vətən sevgisi ilə döyünən yaradıcılığının ideya-bədii xüsusiyyətlərinin düzgün müəyyənləşdirilməsi və qiymətləndirilməsindən irəli gəlmişdir. O, "gur səsli vətən şairi"dir. "Vətən eşqini, hürriyyət zövqünü, haqsızlığa qarşı durmaq duyğusunu şeirlərilə millətə aşılayan Namiq Kamal yalnız böyük bir ədib, qüdrətli bir şair deyil, zehinləri başqa türlü düşündürmüş, qəlbləri həyəcanlarla çırpılmağa alışdırmış bir inqilab və ideal adamdır." Ilk öncə Namiq Kamal ruhuna və yaradıcılığına hakim kəsilən vətən mövzusu özünəməxsus və orijinal formada diqqəti cəlb edir.

Ədəbiyyat:

1.A.Əli, M.Ə.Sabirin satira sənətkarlığı, Bakı, 1999, 144 səh.

2. A.Lukyanova, Sabir yaradıcılığının əsas nöqtələri, Bakı, Nurlan, 2002, 31 səh.

3. B.Nəbiyev, Seçilmiş əsərləri, I cild, Bakı, Çinar-Çap, 2009, 491 səh.

4. C.Xəndan, Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1962, 434 səh.

5. Elman Quliyev, Türk xalqları ədəbiyyatı, Bakı, Qismət, 2009, 399 səh.

6. Ə.Cəfər, Sabirin yaradıcılığında təhzil, nəzirə və bənzətmələr, Azərb.SSR.EA-nın xəbərləri, ictimai elmlər seriyası, 1962, № 5.

7. Hophopnamə, Şərq-Qərb, I, II cild, Bakı, 2004, 478 səh, 383 səh.

8. İsa Kocakaplan, Namık Kemal, Istanbul, 2009, 144 səh.

9. M. Cəlal, Klassiklər və müasirlər, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1973, 294 səh.

10. M. Cəlal, Azərbaycanda ədəbi məktəblər, Bakı, Ziya-Nurlan, Mir Teymur, 2004, 390 səh.

11. N.Paşayeva, Sabir novatorluğu, Mütərcim, Bakı, 1997, 108 səh.

12.N.F.Axundov, Bəzi türk mənbələri M.Ə.Sabir haqqında, Azərb.SSR.EA-nın xəbərləri, ictimai elmlər seriyası, 1962, № 5.

CREATIVITY OF NIZAMI GANJAVI IN THE LEVEL OF SCIENTIFIC AND THEORETICAL VIEW OF ACADEMIC MIRZA IBRAHIMOV

NİZAMİ GƏNCƏVİ YARADICILIĞI AKADEMİK MİRZƏ İBRAHİMOVUN ELMİ-NƏZƏRİ BAXIŞ MÜSTƏVİSİNDƏ

Dr. ÜLKER BAHŞİYEVA

ADPU-Nun Filoloji Fakültesinin
Edebiyatın Tedrisi Teknolojisi
Bölümünün Baş Öğretim Üyesi
ORCID İD 0000-0002-5994-2356

Özet

Nizami sənətini müdrik fikirlər, hakimanə sözlər xəzinəsi adlandıran akademik M.İbrahimov böyük şairimizin həyatı, lirik və epik yaradıcılığını təhlil etmiş, yeri gəldikcə onunla bağlı deyilmiş bəzi təhriflərə (məs: onun İranın Qum şəhərindən olması) aydınlıq gətirmişdir. M.İbrahimov araşdırmalarında şairi zəmanənin ən qabaqcıl adamı hesab edir. Əlbəttə, tədqiqlərdə bu fakt təsadüfi görünmür. Çünki, M.İbrahimov bu faktı yazarkən onun səbəblərini də açıqlayır, fikrin tam təsdiqini təmin edir. Biz M.İbrahimov araşdırmalarında Nizamini zəmanəsinin qabaqcıl adam statusunda təqdimini onun Azərbaycan, ərəb, İran, yunan ədəbiyyatları ilə yanaşı, bu ölkə və xalqların, o cümlədən qədim Çinin tarix, fəlsəfə və mədəniyyətləri ilə yaxından tanışlığı ilə əlaqələndirildiyinin şahidi oluruq.

Anahtar kelimeler: Nizami, M.İbrahimov, şair, milli, dəyər

Summary

Academician M.Ibrahimov, who called Nizami's art a treasure of wise thoughts and wise words, analyzed the life, lyrical and epic works of our great poet and, where appropriate, clarified some distortions that were not related to him (for example, that he was from Qom, Iran). In his studies, M.Ibrahimov considers the poet to be the most advanced man of his time. Of course, in studies, this fact does not appear to be accidental. Because, when M.Ibrahimov writes about this fact, he explains the reasons for it and provides full confirmation of the opinion. In M.Ibrahimov's research, we witness that the presentation of Nizamini as a leading man of his time is connected with his close acquaintance with the history, philosophy and culture of these countries and peoples, including ancient China, along with Azerbaijani, Arabic, Iranian and Greek literature.

Key words: Nizami, M.Ibrahimov, poet, national, value

GİRİŞ

Mirzə İbrahimovun elmi-tədqiqat xarakterli yaradıcılığında klassik irsin öyrənilməsi, onun ənənələri və estetik prinsiplərinin araşdırılması əhəmiyyətli yer tutur. Nizami, Nəsimi, Füzuli, Vaqif, Heyran xanım, Q.Zakir, A.Bakıxanov, M.F.Axundov, C.Məmmədquluzadə, N.Vəzirov, Ə.Haqverdiyev və s. kimi böyük sənətkarları təhlilə cəlb edərkən M.İbrahimov bir tərəfdən Azərbaycan xalqının çoxəsrlik ədəbi-bədii ruhunun rəngarəngliyini, digər tərəfdən hər bir sənətkarın fərdi yaradıcılıq keyfiyyətlərini üzə çıxarmışdır.

Bu cür araşdırmaları ilə akademik M.İbrahimov ayrı-ayrı sənətkarların simasında formalaşan ədəbi-bədii ənənənin güclü olduğunu sübut etmiş, hər hansı yeni mərhələdə ənənənin müsbət nəticələrinin nədən ibarət olduğunu açıqlamağa çalışmışdır. Akademik M.İbrahimov 1959-cu ildə yazmış olduğu "Ənənəyə həssas münasibət" məqaləsində bu barədə belə deyir: "Azərbaycan xalqı uzun əsrlik həyatının və tarixinin xüsusiyyətlərini, mübarizəsini, ruhunu, zövqünü, arzu və istəklərini ifadə edən və özünəməxsus yaradıcılıq siması, yaradıcılıq yolu olan kamil bir poetik məktəb yaratmışdır ki, onun ənənələri, estetik prinsipləri çox güclüdür... Hər hansı ənənə, hər hansı təcrübə yalnız istifadə olunduğu zaman, həm də düzgün istifadə olunduğu zaman müsbət nəticə verir, xalqın irəliləməsinə kömək edir" (11, 507). M.İbrahimovun araşdırma apararaq haqqında orijinal fikir söylədiyi böyük sənətkarlardan biri də Nizami Gəncəvi olmuşdur. Nizami dünyanın elə böyük sənətkarlarındandır ki, öz yaradıcılığı ilə planetin bütün sənətsevərlərini yerindən tərpətmiş, güclü idrak sahiblərini haqqında söz deməyə vadar etmişdir. Orta çağlardan üzü bəri, daha doğrusu, şairin özündən sonra ta bu günə qədər onun irsi heç vaxt diqqətdən kənarda qalmamışdır. Çoxsaylı Şərq və Qərb alimləri azərbaycanlı dahinin əsərlərini öyrənməyə onların hər biri haqqında mühakimə yürütməyə səy göstərmiş, müxtəlif tədqiqat əsərləri yazmışlar.

YÖNTEM

Azərbaycan Nizamişünaslığından bəhs edərkən M.Ə.Rəsulzadə, M.Rəfili, M.İbrahimov, M.Quluzadə, Ə.Ağayev, M.Əlizadə, M.Arif, Ə.Səidzadə, H.Araslı, Q.Əliyev, R.Əliyev, D.Əliyeva, T.Məhərrəmov, X.Yusifov, M.Kazımov, A.Rüstəmova, V.Arzumanlı və bir çox başqalarının xidmətlərini qeyd etmək lazımdır.

"Nizamişünaslığ"a töhfə verən dünya alimlərinin də sayı onlarladır: Y.Hammer, V.Baxer, F.Erdman, Y.Repka, P.Horn, H.Ritter, İ.Byurno, A.Russo, F.Şarmua, L.Araqon, C.Cons, S.Russo, S.Robinson, E.Braun, Y.Bertels, A.Krımski, M.Relski, R.Kelpken, A.Ləvənd, A.Bombaçi, A.Lesaj və s. Onların hamısının adını çəksək, olduqca uzun bir siyahı alınar. Nizamidən bəhs edən alimlər içərisində bəzi məqamlarda yanlışlığa yol verənlər də olub, hər şeyi gerçəklikdə olduğu kimi görüb tam həqiqəti yazanlar da.

N.Gəncəvinin sənəti M.İbrahimovun elmi araşdırmalarında bir neçə baxımdan təhlilə cəlb olunmuşdur. "Şeirimizin şərəf və iftixarı", "Leyli və Məcnun", "Xosrov və Şirin" və s. tədqiqlərində N.Gəncəvinin yaradıcılığını birbaşa hədəf seçmiş, araşdırmalarını konkret problem üzərində davam etdirmişdir. M.İbrahimov N.Gəncəvini haqlı olaraq bəşər söz sənəti tarixinin ölməz və əzəmətli nümayəndəsi hesab edir. Ümumiyyətlə, M.İbrahimov bir alim, bir yazıçı olaraq sənəti qiymətləndirərkən birinci növbədə istedadı yüksək qiymətləndirmişdir. Onun fikirlərinə görə sənət aləmində qələbə yalnız istedad sahiblərinə məxsusdur: "Sənət meydanı elə bir meydandır ki, orada gərək böyük əql və atəşin təbiət sahibləri at oynatsınlar. Birisi yaradıcılığı ilə bizi heyran buraxar, o birisi vəcdə gətirər. Hər ikisi sənətdir. Lakin heç bir halda artıq sözə, duzsuz hərəkətə, insanı bıqdıran təkrarlara yol verilməməlidir. Təkrar biliyin anasıdırsa, sənətin ögey anasıdır" (11, 84).

BULGULAR

N.Gəncəvi dühasını bu cəhətlərdən dəyərləndirən M.İbrahimov onun ədəbiyyatımızdakı rolunu və mövqeyini xüsusi şəkildə təqdim edə bilir. Düzgün olaraq Nizami yaradıcılığında mövcud olan bədii kamillik, ictimai-fəlsəfi məna dərinliyi və ifadə dolğunluğunu sənətin əsas göstəricisi kimi qiymətləndirir. Nizami əsərlərinin zamanından bu günə qədərki şöhrətini də bununla bağlayır. M.İbrahimov N.Gəncəviyə təkcə şərq konteksində yanaşmır. Onu həm də Qərb oxucusu üçün əhəmiyyətli sənətkar hesab edir. Ümumən dünya ədəbiyyatının inkişafındakı rolunu Homerdən, Dantedən, Hötedən, Şekspirdən və s. az hesab etmir.

Nizami sənətini müdrik fikirlər, hakimanə sözlər xəzinəsi adlandıran akademik M.İbrahimov böyük şairimizin həyatı, lirik və epik yaradıcılığını təhlil etmiş, yeri gəldikcə onunla bağlı deyilmiş bəzi təhriflərə (məs: onun İranın Qum şəhərindən olması) aydınlıq gətirmişdir. M.İbrahimov araşdırmalarında şairi zəmanənin ən qabaqcıl adamı hesab edir. Əlbəttə, tədqiqlərdə bu fakt təsadüfi görünmür. Çünki, M.İbrahimov bu faktı yazarkən onun səbəblərini də açıqlayır, fikrin tam təsdiqini təmin edir. Biz M.İbrahimov araşdırmalarında Nizamini zəmanəsinin qabaqcıl adam statusunda təqdimini onun Azərbaycan, ərəb, İran, yunan ədəbiyyatları ilə yanaşı, bu ölkə və xalqların, o cümlədən qədim Çinin tarix, fəlsəfə və mədəniyyətləri ilə yaxından tanışlığı ilə əlaqələndirildiyinin şahidi oluruq. M.İbrahimov öz tədqiqlərində dünya xalqlarının elm, fəlsəfə və mədəniyyətlərindən mənimsəmələrinin Nizami yaradıcılığındakı təzahürünə əhəmiyyətli dərəcədə diqqət ayırır. Alim şairin irsinin əsrləri aşaraq bu günə qədər yaşamasının səbəblərini xüsusi qeyd edir. "Azərbaycan və dünya ədəbiyyatının ölməz dühalarından olan Nizami böyük bir mənəvi sərvət xəzinəsi qoyub getmişdir. Səkkiz yüz il ərzində dövlətləri, quruluşları, imperiyaları dağıtmış olan ictimai təlatümlər o xəzinəyə toxuna bilməmişdir. Bəşəriyyət köhnəlmiş həyat tərzindən, köhnəlmiş zehniyyətdən, çürük ictimai-fəlsəfi və əxlaqi görüşlərdən azad olub yeni, daha mütərəqqi qayələrə yiyələndikcə Nizami əsərlərinə maraq artmışdır. Bu əsərlər insanların əqli inkişafı üçün daha artıq zəruri olmuş, daha güclü zövq mənbəyinə çevrilmişdir" (11, 441). Biz araşdırmalarda daha çox Nizami yaradıcılığının zirvəsi olan "Xəmsə" nümunələrinin yer tutduğunun şahidi oluruq. Əlbəttə, bunu da təbii hesab etmək lazımdır. Hər şeydən əvvəl, XII əsr Şərq ədəbiyyatının komandanı N.Gəncəvi öz "Xəmsə"si ilə elə bir zirvəyə ucaldı, zamanında və özündən sonrakı əsrlərdə bütün diqqətləri bu zirvəyə yönəldə bildi. Uzaq Hindistanda Ə.X.Dəhləvinin, İranda Caminin, Əbdi bəy Şirazinin türk dünyasının mərkəzi sayılan Türküstan ellərində Ə.Nəvainin və s. "Xəmsə" ənənəsinə qoşularaq Nizami dühasına baş əymələri deyilən fikri bir daha təsdiqləyir. Nizami yaradıcılığından danışarkən onun lirik yaradıcılığı ilə epik yaradıcılığı arasında sıx bir rabitənin olduğunu təsdiqləyən M.İbrahimov haqlı olaraq onun lirik yaradıcılıq dövrünü axtarış dövrü kimi xarakterizə edir. "Lirik şeirlər yazarkən Nizami bilik öyrənir, insan həyatı və kainatın sirlərini dərk etmək yolunda inadla çalışırdı" deyən tədqiqatçı onun poemalarında özünü göstərən dərin fəlsəfi və ictimai mənanın dərinliyinin köklərini bu dövrlə bağlayırdı. Nizami Gəncəvi poemalarını yazıldığı xronoloji ardıcıllıqla təhlil edən alim hər poemanın ideya-məzmun xüsusiyyətləri üzərində daha çox dayanır. "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" poemalarının təhlili zamanı bu əsərlərin əsl ideya-məzmunu, mahiyyəti üzərində dayanılsa da, yeri gəldikcə məsələlərə ictimai-siyasi müstəvidə yanaşılmışdır. Düzdür, adları çəkilən poemalarda ictimai-siyasi məzmun bu və ya digər formada Nizami təxəyyülünün məhsuluna çevrilsə də, M.İbrahimov təhlil zamanı bu məsələləri bir qədər qabartmışdır. Təhlil prosesində Şərq istismar tərzi, feodal-patriarxal mühit, məmur özbaşınalığı, qəddar şah rejimi, xalqların azadlıq istəyi, demokratiya meyli və s. kimi ifadələrin işlənilməsi və bunların bilavasitə Nizami poemaları ilə əlaqələndirilməsi dövrün tələblərindən irəli gələn cəhət kimi qiymətləndirilməlidir. Əslində məsələlərə bu cür yanaşma Sovet ideoloji təhlil prinsiplərinin doğurduğu nəticələr idi. M.İbrahimov bir alim, əsl sənətkar olaraq Nizami poemalarının yüksək sənət ölçülərinə uyğunluğunun səviyyəsini yaxşı anlayır və təhlil zamanı bunları xüsusi qeyd edirdi. Məsələn, "Sirlər xəzinəsi" əsərinin o zamankı Şərq ədəbiyyatında hakim olan nəsihətçilik ruhunda yazılmasını, o cümlədən poemada insanların pisliklərdən əl çəkib yaxşı əməllər sahibinə çevrilməsinə, həqiqət yolunun bütün yollardan üstün olmasına çağırışı M.İbrahimov sırf estetik prinsiplər baxımından dəyərləndirir. Nəticədə bu əsərin əsl mahiyyəti açıqlanır, poemadakı real, psixoloji məqamlara tam aydınlıq gətirilir.

Poemadakı "Sultan Səncər və qarı", "Ənuşirəvan və bayquşların söhbəti" və "Zalım padşahın Zahidlə dastanı" hekayələri həm ictimai, həm psixoloji, həm əxlaqi-mənəvi və s. baxımdan təhlilə cəlb olunur, burada Nizami ruhunun mahiyyəti açıqlanır. M.İbrahimov şairin bu əsəri xalqa, zəhmətkeşlərə, yoxsul adamlara başdan-ayağa məhəbbətlə yazdığını qeyd edir. Nizaminin insanları həqiqətpərəst, ədalətli, namuslu olmağa çağırışını Şərq əxlaqi-didaktik prinsiplərinə uyğun olaraq insanın kamilləşmə yolundakı xidməti hesab edir. Bildiyimiz kimi kamil insan nəzəriyyəsi sonralar cəmiyyət modeli olaraq hürufilər tərəfindən daha da təkmilləşdirilmişdir. Digər təlimlər kimi bu nəzəriyyələrin kökündə də Nizami ideyalarının mövcudluğu inkaredilməzdir. M.İbrahimov ötən əsrin 50-ci illərində yazmış olduğu "Şeirimizin şərəf və iftixarı" məqaləsində demək olar ki, Nizaminin bütün poema yaradıcılığını ümumi şəkildə təhlil süzgəcindən keçirmişdir. Lakin "Xəmsə"yə daxil olan "Xosrov və Şirin" və "Leyli və Məcnun" əsərləri ilə bağlı ayrıca olaraq 2 məqalə də qələmə almışdır. 1947-ci ildə yazılmış "Leyli və Məcnun" məqaləsi M.İbrahimovun tədqiqləri içərisində əhəmiyyətli yer tutur. Yeddi hissəyə bölünmüş bu məqalədə Nizami yaradıcılığının ümumi xüsusiyyətləri, "Leyli və Məcnun" əsərinin yazıldığı dövr, əsərin yazılma səbəbi, Nizamiyə qədər bu mövzuda qələmə alınan əsərlər, Nizami və eşq problemi, "Leyli və Məcnun"da qadın məsələsi, əsatir və reallıq problemləri və s. barədə elmi təhlillər əsas yer tutur. Tədqiqatçı alim "Leyli və Məcnun"un təsirindən danışarkən haqlı olaraq onu Şərqlə məhdudlaşdırmır. Bu əsərin Qərbə də təsirinin olduğunu iddia edən M.İbrahimov konkret olaraq Şekspirin "Romeo və Cülyetta"sı ilə "Leyli və Məcnun" arasında oxşarlığın olduğuna diqqət yönəldir: "...Qərb xalqları içərisində ingilislər Nizami ilə daha çox maraqlanan xalqdır. Bəşəriyyətin böyük dühası olan Şekspir əsrinin bilikli adamı olmuşdur. Onun xronikaları Şərq əfsanələrindən xeyli istifadə etdiyini açıq göstərir. Hər halda dünya dramaturgiyasının bəzəkli gəlini olan "Romeo və Cülyetta" ilə "Leyli və Məcnun" arasındakı ümumi və daxili oxşayış diqqətəlayiq bir haldır" (11, 663). Təhlil prosesində o, əsərlə bağlı digər məqamlara da aydınlıq gətirir. Bildiyimiz kimi, Leyli və Məcnunun Ərəbistanda yaşadığını iddia edən fikirlər də mövcuddur, iki gəncin nakam məhəbbəti timsalında öz eşqini gizlədən bir şəxs tərəfindən "Leyli və Məcnun" əfsanəsinin düzəldiyini deyənlər də. M.İbrahimov öz elmi yanaşmasında bu cür fikirləri rədd edir. O, "Leyli və Məcnun"u "ürək yandırıcı, təmiz və yüksək bir məhəbbət haqqında xalqın və xalq şüurunun yaratdığı əfsanə" hesab edir. Əsəri sənətkarlıq baxımından qiymətləndirən akademik onu yüksək sənət əsəri hesab edir. Əsərdə romantik pafosun yüksəkliyi ilə yanaşı, həyat həqiqətlərinin kamil ifadə olunmasına sənətkar qüdrətinin aliliyi kimi dəyər verir. Təhlil prosesində qadın mövzusu da diqqət mərkəzində saxlanılır. M.İbrahimov şairin Leyliyə münasibətində Nüşabə, Şirin, Məhinbanudan fərqli cəhətləri meydana qoyduğunu diqqətə çatdırır. Məqalədə belə bir iddia irəli sürülür ki, əgər Leyli obrazının özünəməxsus tərzdə təqdimi olmasa idi, Məcnunun bir sıra xüsusiyyətləri bu qədər açıqlana bilməzdi. Məsələn, M.İbrahimovun fikrincə əsərdə onun gözləri qarşısında hər dəfə Leylinin canlanması Məcnun obrazının anlaşılmaz görünəcək hərəkətlərinə aydınlıq gətirir. "Xosrov və Şirin" poeması M.İbrahimov tədqiqlərində geniş yer tutur. Onun 1968-ci ildə qələmə aldığı "Xosrov və Şirin" məqaləsi Qulamhüseyn Beqdelinin "Nizaminin "Xosrov və Şirin" poeması və bu mövzunun Şərq ədəbiyyatında işlənməsi" adlı geniş elmi-tədqiqat əsəri ilə bağlıdır. Qulamhüseyn Beqdelinin adı çəkilən tədqiqat əsəri filologiya üzrə elmlər doktoru adı almaq üçün yazılmışdır. M.İbrahimov Qulamhüseyn Beqdelinin əsərini təhlil etməzdən əvvəl məqalənin təxminən 3 səhifədən çox bir hissəsində Nizami yaradıcılığına münasibət bildirmişdir. Digər səhifələrdə Qulamhüseyn Beqdelinin tədqiqatlarından danışsa da, Nizami ilə bağlı orijinal fikirlər, daha çox diqqəti cəlb edir, yeri gəldikcə polemikaya da yer verilir. Ona görə də məqalənin elmi-tədqiqat xarakteri xüsusi əhəmiyyət kəsb edir.

M.İbrahimov "Xosrov və Şirin" məqaləsində Nizamini dünya renessansının ilk böyük nümayəndəsi hesab etməklə, Nizami sənətində mövcud olan insan və şəxsiyyət amilini, psixoloji aləmi, humanizm dəyərlərini yüksək qiymətləndirir. Nizami sənətinin gücünü bilavasitə bunlarla bağlayan tədqiqatçı onun yaradıcılığındakı lirik-romantik pafosu bir neçə məqamdan təhlil edir. Təbii ki, bu məqamda tədqiqatçı alim məzmun, forma və ideya məsələlərini ön planda saxlayır. Təhlil zamanı M.İbrahimov bir sıra tədqiqatçılara irad bildirməkdən də çəkinmir. O, qeyd edirdi ki, Məhinbanu, Şirin, Fərhad, Xosrov, Şapur və s. obrazlar sistemində əsərin realist xüsusiyyətlərini necə inkar etmək olar? Bunlarla barışmayan tədqiqatçı düzgün olaraq əsərindəki realist xüsusiyyətləri qəbul edir və bununla da klassik ədəbiyyatın realist metod mövcudluğunun təsdiqini reallaşdırır. Eyni zamanda o, klassik ədəbiyyatda o cümlədən, Nizami yaradıcılığında realizmin romantizmlə paralelliyini, daha doğrusu, birləşmiş şəkildə mövcudluğunu nəzərə çatdırır. Fikirlərinin təsdiqi üçün M.Qorkidən sitat gətirərək, Şekspir, Balzak və Puşkin sənətində də belə paralelliyin olduğunu nəzərə çatdırır. M.İbrahimov şərti də olsa, məqalənin ikinci hissəsində Q.Beqdelinin tədqiqatları əsasında fikirlərini ortaya qoyur. Burada Q.Beqdelinin tədqiqlərinə əsasən Nizamidən əvvəl "Xosrov və Şirin" dastan və rəvayətlərinin Bizans, Assori, ərəb, İran, hind və Azərbaycan mənbələrində olduğu fars-tacik və türk ədəbiyyatlarında bu mövzunun Firdovsi, Qətran Təbrizi, Dəhləvi, Hatifi, Nəvai, Arif Ərdəbili tərəfindən işlənməsi və s. cəhətləri nəzərə çatdırılır. Ə.Nəvainin "Fərhad və Şirin" poeması ilə Nizami poemasının müqayisəsi əsasında Beqdelinin ortaya qoyduğu oxşarlıq və fərqləri doğruluğunu təsdiqləyir. "Xosrov və Şirin" əsərindən danışarkən onun əsas məzmun və ana xəttində pak sevgi və təmiz məhəbbətin dayandığını iddia edən Mirzə İbrahimov Q.Beqdeli tədqiqatlarında da problemə bu cür yanaşılmasını təqdir edir. Bu məqalədə M.İbrahimovun nizamişünaslıq üçün vacib olan bir sıra məsələlərə münasibəti də gözdən yayınmır. Bildirdiyimiz kimi, bəzi Qərbşünaslıq və Şərqşünaslıq mənbələrində Nizaminin İranın Qum şəhərində olmasından, fars şairi kimi təqdimindən tutmuş, onun əsərlərinin Firdovsini, Fəxri Gürganini təqlid etdiyinə qədər yanlışlığa yer verilmişdir. M.İbrahimov Q.Beqdelinin məlum tədqiqatına əsaslanmaqla yanaşı, özünün elmi mühakimələrinə istinadən iddia olunduğu kimi Nizaminin "Xosrov və Şirin", "Yeddi gözəl", "İsgəndərnamə" əsərlərində Firdovsinin təqlid və təkrar etmədiyini söyləyir. Alim burada bir sıra mənbə və faktlarla, o cümlədən "Xosrov və Şirin" əsərinə istinadən Nizaminin orijinallığını təsdiqləyir. Biz isə öz növbəmizdə bir cəhəti də qeyd etməliyik ki, "İsgəndərnamə" poemasına görə Nizamini təkrar təqliddə ittiham edənlər tam yanlış yoldadır. İlk növbədə ona görə ki, İsgəndərin İran taxtını, İran səltənətini alt-üst etməsi İran tarixində qara səhifəyə çevrilib.Milli təəssübkeşliyinə görə seçilən, İran taxt-tacının zəfərini özü üçün şərəf sayan Firdovsi İsgəndərin tarixi şəxsiyyət, qalib sərkərdə obrazını heç vaxt mədh edə bilməzdi. Amma "İsgəndərnamə" əsərində biz bu obraza Nizaminin hörmət və ehtiramının şahidi oluruq. Təbii ki, məqsəddən asılı olaraq bəzi tənqidi yanaşmalar istisna olunmaqla. Bu barədə prof. N.Cəfərovun fikirləri ədəbiyyatşünaslığımızda əhəmiyyətli yer tutur. Bu sıradan olan digər bir əsassız iddianın təkzibi də maraq doğurur. Əsassız fikirlərdən biri də budur ki, guya Nizaminin "Xosrov və Şirin" poeması XI əsr İran şairi Fəxri Gürganinin "Vis və Ramin" əsərinin təsiri ilə təqlidi şəkildə yazılmışdır. Bu fikri rədd edərkən M.İbrahimov Q.Beqdelinin təhlillərinə önəm verir. N.Gəncəvinin əsərdə qadın-kişi münasibətində dünyəvi məhəbbət, saflaşdırıcı mənəvi qüvvə modeli ilə F.Gürganini "Vis və Ramin" əsərindəki qadın kişi arasındakı ibtidai, cismani münasibətin fərqini qarşılaşdırır və heç bir əlaqə tipinin olmadığını nəzərə çatdırır. "Vis və Ramin" əsərinin məzmununa istinad etsək, görərik ki, qocalıb əldən düşən şahənşah Məbud hökmdar qadın Şəhruya öz eşqini bildirir. Qadın da öz növbəsində şahənşahə deyir ki, bətnindəki dünyaya gətirəcəyim qız uşağını sənə verəcəyəm. Şəhrunun qızı olur. Adını Vis qoyurlar. O, böyüdükdən sonra Şəhru onu Məbud şaha yox, qızın qardaşına verir. Məbud şah buna görə müharibə edir. Amma müharibədə məğlub olur.

Var-dövlət düşkünü olan qızın anasına çoxlu qızıl göndərir və qızı alır. Vis bu izdivacdan narazı olur. Məbud şahın qardaşı Raminlə gizli görüşür. Məbud şah bundan xəbərdar olur. Ramini başqa ölkəyə göndərir. Əsərin sonunda Məbud şah ölür. Vis və Ramin bir-birinə qovuşurlar. Göründüyü kimi, əsərdəki bəzi motivləri çıxarmaq şərti ilə "Xosrov və Şirin"in əsasında başqa motiv və ideyalar dayanır. Buna görə də M.İbrahimov bəzi epizod elementlərinə görə Nizamini təkrarçılıqda və təqlidçilikdə ittiham edənlərə üz tutaraq belə yazır: "Epizod və hadisə bənzəyişlərinə əsasən Nizaminin təqlidçilikdə ittiham etmək nəinki insafsızlıqdır, həm də sənət yaradıcılıq haqqında çox bəsit anlayışların təzahürüdür. Görəsən, bu adamlar Şekspir haqqında nə deyərlər?! Axı o, ayrı-ayrı müəlliflərdən nəinki hazır süjetləri və qəhrəmanları hətta bütöv parçaları götürməkdən çəkinmirdi. Lakin bunları öz qələminin gücü ilə adilikdən dahiliyə qaldıra bilirdi. Sənəti bəsit anlayanlar yəqin ki, Şekspiri plagiatda ittiham etməkdən çəkinməzlər. Çünki onlar adi yazılarla böyük sənət nümunələri arasında çox incə və nazik bir hüdud olduğunu duya bilmir, əsərə qiymət verərkən ancaq gözə görünən zahiri oxşayış və bənzəyişlərə əsaslanırlar" (7, 447).

SONUÇ

Fikrimizcə, həm akad.M.İbrahimovun, həm də prof.Q.Beqdelinin araşdırmalarında prof.M.Rəfilinin "Vis və Ramin"lə bağlı tədqiqatına münasibət bildirmək xeyli əhəmiyyətli görünərdi. Prof. M.Rəfili 1947-ci ildə yazdığı "Vis və Ramin" problemi" adlı tədqiqatında bir sıra müddəalar irəli sürməklə bu əsərin Fəxri Gürganiyə deyil, N.Gəncəviyə məxsus olduğunu əsaslandırır. Prof.M.Rəfili özünün elmi qənaətlərini və Dövlətşah Səmərqəndinin, Lütfəli bəy Azərin, A.Bakıxanovun, alman şərqşünası Hammerin fikirlərini əsas götürərək "Vis və Ramin" əsərini Nizami dühasının məhsulu hesab edir. Düzdür, əsərin 1850-ci ildə Springer tərəfindən tapılan əlyazması və 1865-ci ildə Nassau Lis tərəfindən çap olunmuş nümunələri üzərində aparılan iş bu əsərin Fəxri Gürganiyə məxsusluğunu təmin etmişdir. Bu mənada akademik M.İbrahimovun və prof. Q.Beqdelinin "Vis və Ramin"lə bağlı fikirləri daha əhəmiyyətli görünərdi. "Xəmsə"yə daxil olan "Yeddi gözəl" və "İsgəndərnamə" poemalarının mövzu, ideya və s. baxımdan təhlili M.İbrahimovun elmi fəaliyyətində mühüm yer tutur. Nizami Gəncəvini novator sənətkar hesab edən M.İbrahimov onun sənətini problemlərin qoyuluşu, yeni qəhrəman, yeni insanın təqdimi, yeni ideyaların təbliği, sözə verdiyi dəyər və s. baxımından təhlil edir. Məsələn, M.İbrahimov Nizami qəhrəmanlarını yeni qəhrəman, yeni insan tipində dünyanı dəyişdirə biləcək varlıq kimi təqdim edir. Alim Nizaminin böyüklüyünü sözdən istifadə bacarığında, sözə verdiyi qiymətdə görür. Bu mənada şairin "Sirlər xəzinəsi"ndə sözü dünya sirlərinin açarı adlandırılmasına nəzəri-estetik baxımdan yanaşma diqqətdən yayınmır. M.İbrahimov Nizaminin bu fikirlərini təhlil edərkən sözün qüdrətini sənətdə sözün yeri, imkanları və s. əlaqələndirməklə yanaşı, şairin yaratdığı söz xəzinəsinin incəlikləri barədə də söhbət açır. Nizaminin "Sirlər xəzinəsi"ndə sözlə bağlı fikirləri "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə" əsərlərində də davam etdirilir. Çünki şeir yolunu ağır hesab edən Nizami sənətdə birinci uğuru sözlə bağlayır. Şair qeyd edir ki, "varlığın anası hələ sözdən gözəl övlad doğmayıb." Nizaminin bu kimi kəlamlarını əsas götürən M.İbrahimov şairin söz, elm, sənət və s. barədə fikirlərini təhlil edir. "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" poemaları ilə yanaşı "İsgəndərnamə"də diqqəti cəlb edən bədii söz və sənətlə bağlı fikirlərin təhlili zamanı M.İbrahimovun peşəkarlığı diqqətdən yayınmır. Nizaminin sənətdə yeni ictimai, əxlaqi və fəlsəfi ideyaları ortaya atması tələbini yüksək qiymətləndirən tədqiqatçı-alim sözün həqiqi mənasında onun sənət görüşlərinin mahiyyətinin nədən ibarət olmasını ortaya qoya bilir. O, göstərir ki, Nizaminin qədim yunan ədəbiyyatı və fəlsəfəsinin materialist və realist ənənələrinə rəğbəti və onlardan bəhrələnmə səviyyəsi heç bir orta əsr şairində o qədər olmamışdır. M.İbrahimov Nizamidəki yeni insan konsepsiyasının bir səbəbini də bunda axtarır.

Ancaq bu məsələdə M.İbrahimov sovet ideoloji baxışlarına uyğun olaraq islami və sufi dəyərlərə tam əks mövqedən yanaşırdı: "Nizami "insandan insanlığı" bərpa etmək, insan mənəviyyatını pak və zəngin, əxlaqını təmiz və nəcib, şüurunu sağlam və qüdrətli görmək istəyir və öz ölməz sənəti ilə bu bəşəri ideala xidmət edirdi. Nizami əməkçi insanın yaradıcı qüvvələrinə, sağlam şüurun qüdrətinə inanırdı. İnsanı Allahın əlində kor və iradəsiz bir qul hesab edən islamiyyətin sufi şairlər və fanatiklərin əksinə olaraq Nizami insan şüuru və iradəsinin hər şeydən üstün olduğunu deyirdi" (11, 303). Göründüyü kimi, burada Nizami yaradıcılığı üçün xarakterik xüsusiyyətlərə münasibət zamanı dini və təriqət ideyalarına kommunist ideoloji baxışı özünü göstərir. Məlumdur ki, həm islami, həm də sufi baxışlarda insan amili aparıcı olmaqla yanaşı bu dünyada kor və iradəsiz yox, fəaliyyətinə və əməllərinə görə fərqlənən, həmin əməllərinə görə ədəbi aləmdə yerini müəyyənləşdirən şüurlu bəndədir. Allahın ona verdiyi şüur onu həyatda kor və fəaliyyətsiz saxlamır, əksinə yerini müəyyənləşdirməyə, seçim etməyə kömək edir. Dini və sufi görüşlərə görə Allahın insana verdiyi şüur bir sıra məsələlərdə onu qabaqcadan xəbərdar edir və s. Nəzərə alaq ki, Nizami irsinə bu cür yanaşma M.İbrahimov təhlillərində ötəri xarakter daşıyır. M.İbrahimovun Nizami yaradıcılığı üçün xarakterik olan xalq və hakim məsələsinə münasibəti də xüsusi yerlərdən birini tutur. "Sirlər xəzinəsi" poemasında üç hekayətin təhlilində bu problemə diqqəti görə bilirik. "Xosrov və Şirin ", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İsgəndərnamə" ilə bağlı təhlillərdə hakim və xalq məsələsinə bu və digər dərəcə münasibətlə rastlaşırıq. "Leyli və Məcnun" poemasında M.İbrahimov Nizaminin "maarifpərvər hakim" ideyası ilə bağlı mülahizələrini ortalığa qoyur. Nizaminin ölkəni ağıllı, bilikli, maarifpərvər şəxsin idarə etməsi ideyasını təqdir edən tədqiqatçı bu məsələdə Azərbaycan ictimai-siyasi fikrinin altı yüz il Avropanı qabaqladığını qeyd edir. Avropa maarifpərvər və materialistləri olan Russo və Volterin Nizamidən altı yüz il sonra Avropa idarəçilik sistemi üçün irəli sürdükləri "ölkəni alim başlar və fəhlə əllər idarə etməlidir" fikrinin özəyində Nizaminin ideyalarının dayandığını bildirən M.İbrahimov bu məsələdə Azərbaycan dühasının üstünlüyünə diqqət ayırır. "İsgəndərnamə"də İsgəndər obrazını Nizaminin məqsədli olaraq ideallaşdırdığı şəkildə təhlil edən M.İbrahimov bu obraz vasitəsilə də xalq və hakimiyyət problemlərinin bir sıra detallarına toxunur. Əsas olaraq Nizami siyasi-ictimai konsepsiyası düzgün təhlilini tapır.

KAYNAKLAR

1. İbrahimov M. Əsərləri, 10 cilddə, I cild, Bakı: Yazıçı, 1978, 512 s.
2. İbrahimov M. Əsərləri, 10 cilddə, II cild, Bakı: Yazıçı, 1978, 504 s.
3. İbrahimov M. Əsərləri, 10 cilddə, III cild, Bakı: Yazıçı, 1979, 592 s.
4. İbrahimov M. Əsərləri , 10 cilddə, IV cild, Bakı: Yazıçı, 1979, 596 s.
5. İbrahimov M. Əsərləri, 10 cilddə, V cild, Bakı: Yazıçı, 1980, 339 s.
6. İbrahimov M. Əsərləri, 10 cilddə, VI cild, Bakı: Yazıçı, 1981, 376 s.
7. İbrahimov M. Əsərləri, 10 cilddə, VII cild, Bakı: Yazıçı, 1981, 332 s.
8. İbrahimov M. Əsərləri, 10 cilddə, VIII cild, Bakı: Yazıçı, 1981, 303 s.
9. İbrahimov M. Əsərləri, 10 cilddə, IX cild, Bakı: Yazıçı, 1982, 664 s.
10. İbrahimov M. Əsərləri, 10 cilddə, X cild Bakı: Yazıçı, 1983, 507 s.
11. İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, 552 s.
12. İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı: Azərnəşr, 1961, 524 s.
13. İbrahimov M. Ana dili – hikmət xəzinəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991, 136 s.

THE GREAT LEADER HAYDER ALIYEV AND THE STORY OF "KITABI-DADE GORGUD", OUR CULTURAL HISTORICAL MONUMENT

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİ TARİXİ ABİDƏMİZ OLAN "KİTABİ-DƏDƏ QORQUD" DASTANI

ULDUZ FƏRHAD QIZI QƏHRƏMANOVA

Filologiya Üzrə Fəlsəfə Doktoru

Azərbaycan Dövlət Pedaqoji Universiteti

"Ədəbiyyat" Kafedrasında Baş Müəllim

Orcid İD: 0009-0003-4418-9319

Abstrakt:

Ulu Öndər Heydər Əliyev müasir mərhələdə ümumi türkçülüyün, türk birliyinin, türk dövlətləri birliyinin aparıcı ideoloqu, böyük şəxsiyyəti idi. H.Əliyev türkçülüyü, azərbaycançılığı, dünyəviliyi və islami dəyərləri milli-ideoloji məsuliyyət səviyyəsinə yüksəltdi. Siyasi leksikona "bir millət, iki dövlət" tezisini irəli sürən şəxsiyyət də məhz müdrik rəhbər Heydər Əliyev olmuşdur. Heydər Əliyevə görə, hər bir xalqın milliyini, mənəvi dəyərlərini, mədəniyyətini yaşadan, inkişaf etdirən onun dilidir. Dilimizi isə yaşadanlar, inkişaf etdirənlər yazıçılarımız, şairlərimiz olmuşdur. Çünki biz yazıçılarımızın, şairlərimizin yaratdığı bədii əsərlərdən çıxış edərək tarixi kimliyimiz, dilimiz, adət-ənənələrimiz haqqında fikirlər söyləyə bilirik. Heydər Əliyev bu qurultayda Türk xalqlarının tarixi keçmişinə yenidən qayıtmağın və yenidən təhlilinin tərəfdarı idi. Ona görə də Ulu Öndər H.Əliyevin ədəbiyyatla bağlı ədəbi-estetik görüşlərinin bir hisssəsi bütün türkdilli xalqların folklorunu, qədim abidələrini, müştərək dastanlarını öyrənməsi təşkil edirdi. Məlumdur ki, sovet dönəmində türk xalqlarının tarixən keçdiyi yollar təhrif edilmiş, uydurulmuşdur. Təbii ki, bu Sovetlərin ideoloji təzyiqlərindən irəli gəlirdi. Belə təzyiqlərə məruz qalan türk abidələrimizdən biri "Kitabi-Dədə Qorqud" dastanı idi. XX əsrin ortalarında Sovet ideologiyası bu dastanı "məşhər ayağına" çəkmişdi. Bu abidəyə feodal təfəkkürün məhsulu damğasını vuraraq zəhmətkeş xalqın düşməni elan etmişdi. Bu damğa adı altında "Kitabi-Dədə Qorqud" eposunu uzun zaman yasaq etdi. Lakin H.Əliyevin təşəbbüsü ilə həyata keçirilən, YUNESKO səviyyəsində təşkil edilən bu yubiley tədbiri yeni yetişən gənc nəslin "itən", "korlaşan" yaddaşını təzələdi, onu kökünə, özünə qaytardı. Bu yubiley tədbiri mənəvi dünyazmıza təntənəli qayıdış oldu. H.Əliyev "Kitabi-Dədə Qorqud" eposuna xəlqilik, millilik, azərbaycançılıq, dövlətçilik, milli məfkurə prizmasından yanaşmışdır. Ulu Öndər bu eposu tarixi ədəbi milli fakt hesab etmişdir. H.Əliyevə görə, "Kitabi-Dədə Qorqud" eposu türk xalqının milli keçmişini, milli kimliyini üzə çıxaran, təsdiqləyən tarixi pasport, tarixi sənəddir. Bu eposla H.Əliyev dünyaya belə bir mesaj vermişdir. Bu abidə sübut edir ki, azərbaycan türkləri çox qədim tarixə malikdir.

Açar sözlər: Türk, Heydər Əliyev, ortaq türk dili, konsepsiya "Kitabi-Dədə Qorqud" dastanı

Summary:

The Great Leader Heydar Aliyev was a leading ideologist and a great personality of general Turkism, Turkish unity, and the unity of Turkish states at the modern stage.

H. Aliyev raised Turkism, Azerbaijaniism, secularism and Islamic values to the level of national-ideological responsibility. It was the wise leader Heydar Aliyev who put forward the thesis of "one nation, two states" into the political lexicon. According to Heydar Aliyev, it is its language that keeps alive and develops the nationality, moral values, and culture of every nation. Our writers and poets were the ones who kept our language alive and developed. Because we are able to speak about our historical identity, language, and traditions based on the artistic works created by our writers and poets. In this congress, Heydar Aliyev was a supporter of returning to the historical past of the Turkish people and re-analyzing it. Therefore, a part of the great leader H. Aliyev's literary-aesthetic meetings related to literature was the study of the folklore, ancient monuments, and common epics of all Turkic-speaking peoples. It is known that during the Soviet era, the historical paths of the Turkish people were distorted and invented. Of course, this was due to the ideological pressure of the Soviets. One of our Turkish monuments subjected to such pressures was the "Kitabi-Dada Gorgud" epic. In the middle of the 20th century, Soviet ideology made this saga "popular". He branded this monument a product of feudal thinking and declared it an enemy of the working people. Under the name of this stigma, he banned the epic "Kitabi-Dada Gorgud" for a long time. However, this jubilee event, which was implemented at the initiative of H. Aliyev and organized at the level of UNESCO, renewed the "lost", "blinded" memory of the young generation, brought it back to its roots. This anniversary event was a solemn return to our spiritual world. H. Aliyev approached the epic "Kitabi-Dada Gorgud" from the perspective of nationalism, nationalism, Azerbaijaniism, statehood, and national ideology. The Great Leader considered this epic to be a historical, literary and national fact. According to H. Aliyev, the epic "Kitabi-Dade Gorgud" is a historical passport, a historical document that reveals and confirms the national past and national identity of the Turkish people. H. Aliyev gave such a message to the world with this epic. This monument proves that Azerbaijani Turks have a very ancient history.

Key words: Turk, Heydar Aliyev, common Turkish language, concept "Kitabi-Dade Gorgud" epic

Ulu Öndər Heydər Əliyev müasir mərhələdə ümumi türkçülüyün, türk birliyinin, türk dövlətləri birliyinin aparıcı ideoloqu, böyük şəxsiyyəti idi. H.Əliyev türkçülüyü, azərbaycançılığı, dünyəviliyi və islami dəyərləri milli-ideoloji məsuliyyət səviyyəsinə yüksəltdi. Siyasi leksikona “bir millət, iki dövlət” tezisini irəli sürən şəxsiyyət də məhz müdrik rəhbər Heydər Əliyev olmuşdur. Ümummilli Lider Heydər Əliyev istər Sovet dövründə Azərbaycanda rəhbər vəzifələrdə çalışdığı vaxtlarda, istər Azərbaycan Respublikasına rəhbərlik etdiyi zamanlarda, istərsə də müstəqil dövlətimizin başçısı olarkən xüsusi diqqət yetirdiyi, onun üçün prioritet olan sahələrdən biri türk xalqlarının ədəbiyyatı, mədəniyyəti, incəsənəti olmuşdur. Ulu Öndər Heydər Əliyev türk xalqlarının ədəbi-bədii, mənəvi sərvətlərinə müstəsna dərəcədə böyük dəyər vermişdir. Ümummilli Lider Heydər Əliyevin Azərbaycan və bütöv Turan xalqına olan bu böyük sevgisi onun milli kökünə olan böyük sevgisindən qidalanırdı.Məlumdur ki, Türk dünyası yazıçılarının qurultayı ilk dəfə 1992-ci ildə Türkiyədə Ankara şəhərində keçirilmişdir. Bu qurultayda türk dünyası qurultayının iki ildən bir keçirilməsi qərarlaşdırılmışdır. Heydər Əliyevin də təşəbbüsü ilə 1996-cı ildə Bakıda ilk dəfə iri miqyasda türk xalqları yazıçılarının III Qurultayı keçirilir. Türk dünyası yazıçılarının III Qurultayının Azərbaycanda-Bakı şəhərində toplaşılması Ulu Öndər Heydər Əliyevdə fəxr, qürur hissi yaratmışdır. Bu qurultayda H.Əliyev “Tarixi köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir” şəklində elmi məruzə ilə çıxış etmişdir. Məlumdur ki, sovet dönəmində türk xalqlarının tarixən keçdiyi yollar təhrif edilmiş, uydurulmuşdur. Təbii ki, bu Sovetlərin ideoloji təzyiqlərindən irəli gəlirdi. Belə təzyiqlərə məruz qalan türk abidələrimizdən biri “Kitabi-Dədə Qorqud” dastanı idi.

XX əsrin ortalarında Sovet ideologiyası bu dastanı "məşhər ayağına" çəkmişdi. Bu abidəyə feodal təfəkkürün məhsulu damğasını vuraraq zəhmətkeş xalqın düşməni elan etmişdi. Bu damğa adı altında "Kitabi-Dədə Qorqud" eposunu uzun zaman yasaq etdi. Lakin H.Əliyevin təşəbbüsü ilə həyata keçirilən, YUNESKO səviyyəsində təşkil edilən bu yubiley tədbiri yeni yetişən gənc nəslin "itən", "korlaşan" yaddaşını təzələdi, onu kökünə, özünə qaytardı. Bu yubiley tədbiri mənəvi dünyazmıza təntənəli qayıdış oldu. Ulu Öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud" eposuna xəlqilik, millilik, azərbaycançılıq, dövlətçilik, milli məfkurə prizmasından yanaşmışdır. Bu eposu tarixi ədəbi milli fakt hesab edirdi. H.Əliyevə görə, "Kitabi-Dədə Qorqud" eposu türk xalqının milli keçmişini, milli kimliyini üzə çıxaran, təsdiqləyən tarixi pasport, sənəddir. Bu eposla Ulu Öndər Heydər Əliyev dünyaya belə bir mesaj vermişdir. "Kitabi-Dədə Qorqud" abidəsi sübut edir ki, azərbaycan türkləri çox qədim tarixə malikdir. Həmçinin Ulu Öndər H.Əliyev bu abidənin ümumdünyaya, bəşəriyyətə Azərbaycan-oğuz türklərinə mənsubluğunun mesajını vermişdir. H.Əliyev 2000-ci ilin 9 aprel tarixində Respublika Sarayında "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini YUNESKO səviyyəsində ümumdünya mədəniyyət salnaməsinin bir nümunəsi kimi keçirməklə dünyaya Azərbaycan xalqının çoxəsrlik tarixə malik bir xalq olduğunun mesajını da vermişdir. H.Əliyev "Kitabi-Dədə Qorqud" eposuna xəlqilik, millilik, azərbaycançılıq, dövlətçilik, milli məfkurə prizmasından yanaşmışdır. Ulu Öndər bu eposu tarixi ədəbi milli fakt hesab etmişdir. H.Əliyevə görə, "Kitabi-Dədə Qorqud" eposu türk xalqının milli keçmişini, milli kimliyini üzə çıxaran, təsdiqləyən tarixi pasport, tarixi sənəddir. Bu eposla H.Əliyev dünyaya belə bir mesaj vermişdir. Bu abidə sübut edir ki, azərbaycan türkləri çox qədim tarixə malikdir. Məlumdur ki, Rus-Sovet imperiyası dövründə Azərbaycan türklərinə aid bir çox dastan və eposlar müştərək türk abidələri kimi öyrənilirdi. Buraya "Kitabi-Dədə Qorqud", "Koroğlu" dastanları da daxildir. Həmçinin mənşəcə Azərbaycan türklərinə mənsub olan Nizami, Xaqani, Füzuli, Nəsimi kimi klassik şairlər də Rus-Sovet imperiyasının siyasəti ilə ümumtürk klassik şairlər kimi öyrənilirdi. Təbii ki, klassik folklor, klassik irsin türk xalqları arasında müştərək abidə kimi öyrənilməsi istər-istəməz anlaşılmazlığa, narazılığa səbəb olurdu. Belə ki, hər bir türk xalqı həmin abidələri özlərinə aid edirdi. H.Əliyev 2000-ci ilin 9 aprel tarixində Respublika sarayında "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyini YUNESKO səviyyəsində ümumdünya mədəniyyət sənaməsinin bir nümunəsi kimi keçirməklə dünyaya Azərbaycan xalqının çoxəsrlik tarixə malik bir xalq olduğunun mesajını vermiş oldu. "Bu gün Azərbaycan xalqı möhtəşəm "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyini böyük bayram kimi təntənə ilə qeyd edir. Bu yubiley....bəşər mədəniyyəti üçün müstəsna əhəmiyyəti olan bir tarixi hadisədir. Bu bizim tarixi köklərimizə, milli ənənələrimizə, milli-mənəvi dəyərlərimizə, mədəniyyətimizə, elimizə, xalqımızın çoxəsrlik tarixinə olan hörmət, ehtiram bayramıdır" (Novruzov T. 2007; 41). Göründüyü kimi, Ulu Öndər H.Əliyevin bu abidənin YUNESKO səviyyəsində tədbirini təşkil etməkdə əsas məqsədi ümumdünyaya, bəşəriyyətə "Kitabi-Dədə Qorqud"un Azərbaycan-oğuz türklərinə mənsubluğunun mesajını verməkdir. "Kitabi-Dədə Qorqud"un yubiley tədbirləri elə planlaşdırılmışdır ki, Türk Dövlətlər Birliyinin IV Bakı Zirvə Toplantısı ilə bir məqama düşürdü. Bu toplantı 2000-ci il 8 aprel tarixində keçirildi. Türkdilli Dövlətlər Birliyi Türkiyə Cümhuriyyətinin lideri Süleyman Dəmirəlin təşəbbüsü ilə 1992-ci ildə yaradılmışdır. 1997-ci il 20 aprel tarixində də Heydər Əliyev "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi haqqında fərman imzalayır. 2000-ci il 9 aprel tarixində isə Respublika sarayında YUNESKO səviyyəsində "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyi həyata keçirilir. Bu iş o vaxtkı baş nazirin müavini Elçin Əfəndiyevə həvalə edilmişdir. Həmin gün Azərbaycanın paytaxtı Bakı dədəqorqudşünaslığın paytaxtına çevrilmişdir. XX əsrin ortalarında Sovet ideologiyası bu dastanı "məşhər ayağına" çəkmişdi. Bu abidəyə feodal təfəkkürün məhsulu damğasını vuraraq zəhmətkeş xalqın düşməni elan etmişdi. Bu damğa adı altında "Kitabi-Dədə Qorqud" eposunu uzun zaman yasaq etdi.

Hətta onu öyrənməyə, təhlil etməyə cəhd göstərənlərin taleyi də acınacaqlı oldu. Belə ki Azərbaycanda "Kitabi-Dədə Qorqud"un nüfuzlu tədqiqatçısı olan Əmin Abid bu eposa həsr olunmuş bir neçə əsər çap etdirdikdən sonra Sovet rejimi tərəfindən əbədi susduruldu. 1950-ci ilin may ayında "Dədə Qorqud"un kobud siyasi səhv olduğu partiya yığıncağında rəsmi elan olundu. Bu rəsmi mövqedən sonra eposun xalqa zidd bir əsər olduğu tezisi irəli sürüldü. Eposa Sovetlər İttifaqı qadağa damğası vurdu. Sovet dövründə repressiyaya məruz qalmış bu tarixi, mənəvi dəyərimiz H.Əliyevin təşəbbüsü ilə həyata keçirilən, YUNESKO səviyyəsində təşkil edilən yubiley tədbiri ilə yeni yetişən gənc nəslin "itən", "korlaşan" yaddaşını təzələdi, onu kökünə, özünə qaytardı. Bu yubiley tədbiri mənəvi dünyazmıza təntənəli qayıdış oldu. Yubiley günlərində (2000-ci ildə) H.Əliyev "Dədə Qorqud" eposunun Drezden kitabxanasında saxlanılan nüsxəsinin surətini almaq istəsə də yubileyə qədər gəlib çata bilmədi. Lakin sonralar 2002-ci ildə Hüseyn Cavidin ev muzeyinin açılış mərasimində H.Əliyev "Kitabi-Dədə Qorqud"un Drezden nüsxəsinin surətini Əlyazmalar Fonduna təhvil verdi. Bununla da H.Əliyev "Dədə Qorqud"u repressiyadan xilas edir və Azərbaycan xalqına geri qaytarır. Bu yubiley tədbirində iştirak edənlər arasında Türkiyə Cümhuriyyətinin o vaxtkı prezidenti Süleyman Dəmirəl də vardı. Süleyman Dəmirəl bu tədbirdə belə bir təntənəli nitq söyləyir: "Kitabi-Dədə Qorqud" kimi türk mədəniyyəti tarixinin çoxlu dastanları vardır. Bu dastanlar türk dünyasının bütün övladlarını-qazax, qırğız, özbək, türkmən, azəri qardaşlarımızı, Anadolu türklərini, bir sözlə, böyük türk ailəsini nəzərdə tuturam-birləşdirir, tarix içindəki hekayələrimizi gələcək nəsillərə çatdırır...Öz milli köklərini axtaran bir Türkiyə türkü, bir qazax, bir azərbaycanlı, bir türkmən və ya başqa bir qardaşımız bu əsəri mütaliə etdiyi zaman orada türk birliyini və qardaşlığını görəcəkdir" (Novruzov T. 2007; 50). O vaxt YUNESKO-nun baş direktoru Koisiro Matsuuran idi. Bu şəxs də tamamilə türk soyundan uzaq biri idi. Koisiro Matsuura da "Kitabi-Dədə Qorqud" eposunu ümumbəşəri mədəniyyətin bir nümunəsi kimi qəbul edir, dastanı "İliada", "Mahabharata" kimi abidələrlə müqayisə edir və dastanı fəlsəfi əsər hesab edir. Ulu Öndər Heydər Əliyev deyirdi: "...Belə yubileylərin hazırlanması, keçirilməsi bizim xalqımız üçün, millətimiz üçün olduqca vacibdir və lazımdır. Bunlar...göstərir ki, biz kimik, haradan gəlmişik, haradayıq, hara da gedirik. Biz, beləliklə, özümüzü və varlığımızı, öz milli köklərimizi dərk edirik...Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi bir abidə bütün türk dilli dövlətlərə mənsub olaraq, eyni zamanda və birinci növbədə Azərbaycan xalqına mənsubdur. Fəxr edirik ki, biz "Kitabi-Dədə Qorqud"un sahibiyik, onu yaşadacağıq və gələcək nəsillərə daha da böyük töhfələr verəcəyik"

(Novruzov T. 2007; 51-52).

Ulu Öndər Heydər Əliyev "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin YUNESKO çərçivəsində keçirməklə həm bu abidəni dünyaya tanıtdırırdı, həm də dastanın 1300 il yaşı olduğunu vurğulamaqla xalqımızın qədimliyini dünyaya bəyan etdi. Bu yubiley tədbiri Azərbaycan və dünya tarixində "Kitabi-Dədə Qorqud"un dəqiq və düzgün yaşını da müəyyən etdi. Bəli, bu tipli yubileyləri keçirməklə biz bir xalq olaraq öz milli köklərimizi dərk etdik. Ulu Öndər Heydər Əliyev deyirdi: " "Kitabi-Dədə Qorqud" bizim ana kitabımızdır. Dədə Qorqud bizim ulu babamızdır, əcdadımızdır. Biz fəxr edirik ki, "Kitabi-Dədə Qorqud" kimi ulu əcdadımız vardır..."Kitabi-Dədə Qorqud" qəhrəmanlıq dastanıdır. Biz "Kitabi-Dədə Qorqud"un vəsiyyətlərindən bu gün həyatımızda istifadə edərək xalqımızda vətənə məhəbbət, sevgi, sədaqət, vətənpərvərlik hisslərini daha da artırırıq..."Kitabi-Dədə Qorqud" insanları, xalqları sülhə, barışa dəvət edibdir. Bizim xalqımız bu gün "Kitabi-Dədə Qorqud"un bu vəsiyyətlərinə sadiqdir...Biz Dədə Qorqud yolu ilə gedirik. Biz sülh yolu ilə gedirik" (Novruzov T. 2007; 322-323). Ona görə də Ulu Öndər H.Əliyevin ədəbiyyatla bağlı ədəbi-estetik görüşlərinin bir hisssəsi bütün türkdilli xalqların folklorunu, qədim abidələrini, müştərək dastanlarını öyrənməsi təşkil edirdi.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə türk mədəniyyət abidələri ilə bağlı beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi bilavasitə türk milli-mənəvi ideologiyasının dünya arenasında təbliği baxımından da əlamətdardır. Heydər Əliyev türk xalqları ədəbiyyatı problemlərindən danışarkən, ayrı-ayrı yaradıcı şəxsiyyətlərdən söhbət açarkən türk xalqlarının həm siyasi, həm də mədəni həyatında rolu olan yazıçı və şairlərin fikirlərinin bütün zamanlar üçün əhəmiyyət daşıdığını xüsusi qeyd etmişdir.

ƏDƏBİYYAT:

1.Xəlilov B. (№ 3, 24 aprel 2003), Heydər Əliyev və mədəni irsimiz, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU, s. 25

2.Xəlilov B. (10 may 2004), Heydər Əliyev və azərbaycanşünaslıq, Pedaqoji Universitetin xəbərləri, Bakı: ADPU, № 2, s.12

3.Xəlilov B. Azərbaycan dili: dünən və bu gün, Bakı:, 150 səh.

4.Qurbanov A. (2004) Heydər Əliyev və Azərbaycan təhsilinin inkişafı, Bakı: Gənclik, 1997, 267 səh.

5.Novruzov T. (2007), Heydər Əliyev və ədəbiyyat məsələləri, Bakı: ADPU, 252 səh.

6.Ümummilli liderin ədəbiyyat strategiyası (2023), Bakı, “Elm və təhsil”, 293 səh.

VIEW OF A. KHAGANI'S ART (BASED ON THE SCIENTIFIC AND THEORETICAL VIEWS OF M. IBRAHIMOV)

Ə.XAQANİ SƏNƏTİNƏ BAXIŞ (M.İBRAHİMOVUN ELMİ-NƏZƏRİ GÖRÜŞLƏRİNƏ ƏSASƏN)

Dr. ÜLKER BAHŞİYEVA

ADPU-Nun Filoloji Fakültesinin

Edebiyatın Tedrisi Teknolojisi

Bölümünün Baş Öğretim Üyesi

ORCID İD 0000-0002-5994-2356

Özet

M. İbrahimov Xaqani yaradıcılığını dəyərləndirərkən onun sənətinin milli xüsusiyyətlərini də diqqətdən kənarda saxlamamışdır. Akademik M.İbrahimov Xaqaninin bütün irsinin fars dilində yazılmasına baxmayaraq, şairin düşüncə və idrak sistemində özünü mühafizə edən milliliyin mövcudluğundan söz açır. Bunları bilavasitə təsvir və obrazlar silsiləsi ilə əlaqələndirən tədqiqatçı həmin silsilədəki milliliyi xüsusi şəkildə dəyərləndirmişdir.

Anahtar kelimeler: M.İbrahimov, Xaqani, şeir, elm

Summary

While evaluating Khagani's creativity, M.Ibrahimov did not ignore the national features of his art. Despite the fact that all of Khagani's legacy is written in Persian, Academician M.Ibrahimov speaks of the existence of self-protecting nationality in the poet's thinking and cognitive system. The researcher who connected them directly with the series of images and images, evaluated the nationality in that series in a special way.

Key words: M. Ibrahimov, Khagani, poetry, science

GİRİŞ

Azərbaycan klassik ədəbiyyatının öyrənilməsi və tədqiqi problemləri Mirzə İbrahimovun ədəbi-nəzəri görüşlərinin əsas tərəflərindən birini təşkil edir. Klassik ədəbiyyat problemlərinin araşdırılması M.İbrahimovun elmi fəaliyyətində iki baxımdan diqqəti cəlb edir. Onun nəzəri görüşlərində klassik ədəbiyyat sırf metod, cərəyan, təriqət və s. nəzəri problemlər daxilində özünə yer tapmaqla yanaşı, bu ədəbiyyatın ayrı-ayrı aparıcı yaradıcı şəxsiyyətlərinin həyat və yaradıcılıqlarının öyrənilməsi də daim diqqət mərkəzində saxlanılmışdır. Bu mənada, M.İbrahimovun elmi-nəzəri araşdırmalarının nəticəsi olaraq Azərbaycan renessans ədəbiyyatı, klassik Azərbaycan ədəbiyyatının metodu və s. məsələlər, o cümlədən Nizami, Xaqani, Nəsimi, M.F.Axundov, M.Ə.Sabir və digər sənətkarların yaradıcılıqları ilə bağlı tədqiqləri klassik Azərbaycan ədəbiyyatı haqqında kompleks elmi fikirlər yürütmək baxımından əhəmiyyət daşıyır. M.İbrahimovun elmi araşdırmalarında XII əsr klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Xaqaninin tədqiqi xüsusi yer tutur.

O, klassik ədəbiyyata həsr etdiyi bir sıra məqalələrində Xaqani yaradıcılığına diqqət ayırsa da, 1980-ci ildə yazmış olduğu "Xaqaninin həyatı və estetik idealı" və 1982-ci ildə qələmə aldığı "Nizami və Xaqani yaradıcılığının tədqiqinin bəzi məsələləri" adlı araşdırmalarında konkret olaraq Xaqaninin həyat və yaradıcılığı üçün xarakterik olan bir sıra məsələləri təhlil etmiş, bəzi mübahisəli məqamlara aydınlıq gətirmişdir.

YÖNTEM

M.İbrahimov Xaqanini ilk növbədə Azərbaycan ədəbiyyatının böyük klassiki və bəşəriyyətin bədii fikir tarixində əbədi ad qazanan şairi hesab edir. Bir tərəfi milli, digər tərəfi bəşəri dəyərlərə hesablanan bu fikri ilə M.İbrahimov Xaqaninin ədəbi qüdrətinin masştabını üzə çıxarır, qüdrətli söz sahibinin ədəbiyyat tarixlərində birincilər cərgəsində dayanmasının bu amal ilə möhkəm bağlandığını diqqətə çatdırır. Alim öz tədqiqlərində Xaqaninin həyatı, dövrü, mühiti və yaradıcılıq keyfiyyətləri haqqında söz açsa da, bu yaradıcılığın estetik xüsusiyyətlərinə daha çox yer vermiş, şairin parlaq dühasının məhsulu olan poeziyasını "dərin psixoloji incəliklər", "realist lövhələr", "renessans ruhlu xüsusiyyətlər" və s. baxımdan araşdırmağa təşəbbüs göstərmişdir. M.İbrahimovun Xaqani kimi dahi sənətkarın yaradıcılığına bu tələblər daxilində yanaşması səbəbindəndir ki, onun poetik qüdrəti ideya-estetik baxımından düzgün qiymətini ala bilmişdir. M.İbrahimov özünəqədərki tədqiqlərdə Xaqani ilə bağlı yanlışlıqlara diqqəti çəkməklə ona məddah şair damğası vuranlarla barışmadığını bildirir. Tədqiqatçı-alim haqlı olaraq Xaqanini məddah şair deyil, "şərq poetik təfəkküründə tamamilə yeni mərhələ olan novator ruhlu" və "dərin fəlsəfi mahiyyəti" ilə seçilən poeziyanın yaradıcısı hesab edir. Xaqanini zəmanəsinin övladı və onun bütün həyatını yaradıcılığını dövrü ilə bağlı hesab edən M.İbrahimovun aşağıdakı fikirləri də şairin yaradıcılığını xarakterizə etməkdən ötrü əhəmiyyətlidir: "O, zəmanəsinin kasıbı yox, yaşayan, mübarizə aparan, onu təhlil və tənqid edən böyük şairi, işıqlı filosofu idi" (8, 69). M.İbrahimov Xaqani poeziyasının fəlsəfi aspektini onun dərin humanizmində, xalq həyatı ilə bağlılığında, xalq ruhunu əks etdirən demokratizmdə, insan səadəti, insan azadlığı ilə bağlı, o cümlədən təbiət və cəmiyyət hadisələrinə aid düşüncələrində axtarır, təhlil prosesində fikirlərini əsaslandıra bilir. Məsələn, Xaqani yaradıcılığına xas olan insan səadəti və mənəvi rəzalət problemlərindən danışarkən M.İbrahimov hər iki halın insan cəmiyyətinə xas olduğunu bildirir, birinin düz, digərinin naqis xüsusiyyətlərini nümunələr əsasında diqqətə çatdırır. Tədqiqatçı haqlı olaraq bu prosesdə Xaqani yaradıcılığının böyüklüyünü insana olan inamla hər cür pisliklərin, rəzalətin səbəblərinin açıqlanması ilə bağlayır. M.İbrahimov bir çox bədii nümunələrə istinad etməklə insan və cəmiyyət münasibətlərinin Xaqaniyə məxsus modelini üzə çıxarır. Şairin ictimai münasibətlər zəminində insanın naqisliyini anadangəlmə deyil, həyat şəraiti və bu şəraitə rəvac verən ictimai quruluşla bağlamasını düzgün sayır: "Xaqani poeziyasında o zamankı həyat, cəmiyyətin mənəvi, fəlsəfi aləmi, şairin mübarizələrlə bağlı olan şəxsi hissləri dərindən əks olunmuş, demək olar ki, bütün təfərrüatı ilə öz geniş obrazlı ifadəsini tapmışdır" (8, 65).

BULGULAR

M.İbrahimov Xaqani yaradıcılığını dəyərləndirərkən onun sənətinin milli xüsusiyyətlərini də diqqətdən kənarda saxlamamışdır. Akademik M.İbrahimov Xaqaninin bütün irsinin fars dilində yazılmasına baxmayaraq, şairin düşüncə və idrak sistemində özünü mühafizə edən milliliyin mövcudluğundan söz açır. Bunları bilavasitə təsvir və obrazlar silsiləsi ilə əlaqələndirən tədqiqatçı həmin silsilədəki milliliyi aşağıdakı şəkildə dəyərləndirir: "Bunlar Azərbaycan ruhu, Azərbaycan zövqü, Azərbaycan bədii təfəkküründən və həyatından qidalanmışdır. Əsərlərində çoxlu Azərbaycan məsəlləri, obrazlı ifadələri və sözləri də işlənir ki, bu da az əhəmiyyətli deyildir" (8, 69). Xaqani poeziyasında obrazlı ifadənin, bədii ümumiləşdirmənin genişliyini diqqətə çatdıran tədqiqatçı bu yolla onun poetik qüdrətinin böyüklüyünün vacib tərəflərini açıqlaya bilir.

Onun sənətindəki realist boyaların əlvanlığını, xalq təfəkkürü və xalq ədəbiyyatından gələn ifadə çeşidliyini və s. bu sənətin aparıcı tərəfi kimi şərh edir. Tədqiqatçı alim göstərir ki, Xaqani insanların psixologiyasını, əxlaq dəyərlərini, ictimai və siyasi görüşlərini təsvir edərkən daha çox inandırıcılıq faktoruna riayət edir. Şair sözü elə seçir və işlədir ki, oxucu həm fakta, hadisəyə, həm də ifadə tərzinə məftun olur. M.İbrahimov araşdırmalarında Xaqani yaradıcılığının elmi-fəlsəfi cəhətinə diqqətlə yanaşır. Bu halda Xaqani sənətinin elmi təfəkkür amili daha çox təhlil obyekti kimi seçilir. M.İbrahimov Xaqanidə müşahidə etdiyi elmi-fəlsəfi cəhəti bilavasitə şairin Şərq və Qərb elmlərinə dərindən bələdçiliyi ilə bağlayır. Xüsusilə Xaqaninin yunan fəlsəfəsinə bələdçiliyi ilə bağlı M.İbrahimovun söylədiyi fikirlər diqqətdən yayınmır. Akademik M.İbrahimov Xaqaninin yunan fəlsəfəsinə tənqidi münasibətinin şair-filosofun fəlsəfə elminin dərinliklərinə bələdçiliyi kimi xarakterizə edir və göstərir ki, "Töhfətül-İraqeyn" poemasındakı "Ərzin fəziləti" fəslində həyata fəlsəfi yanaşma daha mühüm yer tutur. Xüsusilə, "aləmdə məhşər qopacağı", "bütün cahanın alt-üst olacağı" və s. barədə falçı, rəmmal, fırıldaqçı və s. fikirlərinin qeyri-fəlsəfi, qeyri-həyati məqamlarını ələ salması bu baxımdan diqqəti cəlb edir. Məlumdur ki, Xaqani əsərlərində zəmanədən şikayət xüsusi yer tutur. Bu cəhət klassik ədəbiyyatda daim müşahidə olunsa da, Xaqani sənətində şikayət motivinin dərəcəsi başqa sənətkarlardan qat-qat yüksəkdə dayanır. Maraqlıdır ki, Xaqaninin zəmanədən şikayət motivinə tədqiqatlarda müxtəlif yanaşma var. Şairin dövrdən şikayəti bir çox tədqiqlərdə düzgün dəyərləndirilsə də, bəzi tədqiqatlarda bədbinliyin təzahürü kimi təhlil olunmuşdur. M.İbrahimov Xaqani yaradıcılığında özünü göstərən şikayət amilinə ictimai məna verir, bu halı tərki-dünya kimi təhlil edənlərə etirazını bildirir. O qeyd edir ki, Xaqaninin "şikayət" modelində dünya aparıcı amilə çevrilir. Dünya isə Xaqanidə geniş ictimai-fəlsəfi məna daşıyır. Yəni Xaqani yaradıcılığında şikayət amili dünyada mövcud olan haqqsızlığa, ədalətsizliyə, insafsızlığa və s. olan konkret etirazdır. Bu cəhəti əsas götürən M.İbrahimov bəzi Avropa tədqiqatçılarının əsərlərində Xaqaninin dünyadan şikayətinin tərki-dünyalıqla, bədbinliklə əlaqələndirilməsinə haqlı etirazını bildirir. O, öz yanaşması ilə Xaqaninin tərki-dünya olmadığını sübut etməyə çalışır. Fikirlərinin təsdiqi üçün "Töhfətül-İraqeyn" poemasının nəsrlə yazılmış müqəddiməsindən misal verir: "Yaramazlıqlar törədən şərabın söhbətindən çəkin, hadisələr doğuran dünyadan həzər elə: bu köhnə, murdar qarıdan canını qurtar, özünü elm və biliyin kölgəsində saxla, əgər istəyirsən qəlbin yaralanmasın, vərəm və alçaqlıq törədən dövlətli adamların qapısına yardım üçün getmə ki, şah acığa düşüb yaramazlıqlar törətməsin" (8, 67).

SONUÇ

Eyni ideyanın davamı olaraq M.İbrahimov "Fəxriyyə"dən gətirdiyi misallarda da idrakdan, ağıldan və s. uzaq olan dünyanın Xaqani tərəfindən tənqid olunduğunu qeyd edir və göstərir ki, şairə görə bütün eybəcərliklərin səbəbkarları şahlar, dövlətlilər, xalqı düşünməyənlərdir. Bütün bunların fonunda M.İbrahimov Xaqani sənətində mövcud olan "yeni ruh", "yeni nəfəs", "yeni bədii keyfiyyət" amilinin təhlilini vacib sayır. Xaqani yaradıcılığını həm dövrü üçün, həm də zamanından sonrakı dövrlər üçün əhəmiyyətli hesab edir: "Onun əsərlərinin dərin mənası və füsunkar gözəlliyi zəmanəsində də, sonrakı əsrlərdə də insanları sehirləmiş, görünməmiş yüksək bədii həzz və ləzzətlə onların xəyalını oynatmış, sinəsində zəngin duyğular oyatmışdır. İnsan hisslərinin qüdrətli emosional ifadəsi və fikrin kəskinləşdirilməsi cəhətdən Xaqani nadir sənətkarlardandır. Təsadüfi deyil ki, 800 il ərzində poeziyasının təsir qüvvəsi daima özünü göstərmiş, müxtəlif xalqların böyük şairləri ondan təsirlənmiş, onu ustad, özünü ona şagird hesab etmişlər. Təkcə "Miratüs-səfa" və "Mədain xərabələri"nə onlarla qüdrətli şairlər nəzirələr yazmışlar. Onların sırasında XIII əsr böyük hind şairi Əmir Xosrov Dəhləvi, tacik-İran ədəbiyyatının klassiki Əbdürrəhman Cami və başqaları vardır" (8, 67-68).

Göründüyü kimi, bu dəyərdə Xaqaninin böyüklüyü bir çox baxımdan diqqətə çatdırılır. Xüsusilə Ə.X.Dəhləvi və Ə.Cami kimi sənət korifeylərinin Xaqanidən təsirlənməsi fikri daha əhəmiyyətli görünür. Xaqani ilə Nizami arasında olan mənəvi-estetik bağlılıq faktının təsdiqi M.İbrahimov tədqiqlərində müəyyən yer tuta bilir. Maraqlıdır ki, M.İbrahimov Xaqani ilə Nizami arasında bədii-estetik əlaqədən danışarkən bu təsir və əlaqəni məhdud bir zamanla bağlamır. Nizamidən Sabirə qədərki mərhələdə Xaqani təsirinin mövcudluğunu təsdiqləyən alim, bu təsirin əhəmiyyətini hər hansı konkret bir sənətkarla bağlamır. Onu Azərbaycan bədii təfəkkürünün, Azərbaycan bədii zövqünün inkişafına töhfə kimi dəyərləndirir.

KAYNAKLAR

1. İbrahimov M. Əsərləri, 10 cilddə, I cild, Bakı: Yazıçı, 1978, 512 s.
2. İbrahimov M. Əsərləri, 10 cilddə, II cild, Bakı: Yazıçı, 1978, 504 s.
3. İbrahimov M. Əsərləri, 10 cilddə, III cild, Bakı: Yazıçı, 1979, 592 s.
4. İbrahimov M. Əsərləri , 10 cilddə, IV cild, Bakı: Yazıçı, 1979, 596 s.
5. İbrahimov M. Əsərləri, 10 cilddə, V cild, Bakı: Yazıçı, 1980, 339 s.
6. İbrahimov M. Əsərləri, 10 cilddə, VI cild, Bakı: Yazıçı, 1981, 376 s.
7. İbrahimov M. Əsərləri, 10 cilddə, VII cild, Bakı: Yazıçı, 1981, 332 s.
8. İbrahimov M. Əsərləri, 10 cilddə, VIII cild, Bakı: Yazıçı, 1981, 303 s.
9. İbrahimov M. Əsərləri, 10 cilddə, IX cild, Bakı: Yazıçı, 1982, 664 s.
10. İbrahimov M. Əsərləri, 10 cilddə, X cild Bakı: Yazıçı, 1983, 507 s.
11. İbrahimov M. Niyəsiz, necəsiz bir yazısan sən. Bakı: Yazıçı, 1985, 552 s.
12. İbrahimov M. Xəlqilik və realizm cəbhəsindən. Bakı: Azərnəşr, 1961, 524 s.
13. İbrahimov M. Ana dili – hikmət xəzinəsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1991, 136 s.

QARABAĞA ERMƏNİ İDDİALARI VƏ AZƏRBAYCAN XALQ CUMHURİYYƏTİNİN BU TƏCAVÜZƏ QARŞI MÜBARİZƏSİ

ƏLİYEV MÜRVƏT CAVİD OĞLU

ADPU-nun Quba filialı

https://orcid.org/0000-0002-4493-7204

Özet

Ermeniler, Rusya tarafından tarihi Azerbaycan topraklarına nakledildiği günden itibaren ana topraklarımıza sahip çıkmaya başladılar. Bu iddialar Çarlık Rusyası'nın yönetici çevreleri tarafından da desteklendiğinden her geçen gün iddialarını artırdılar. Çarlık Rusya'sının yıkılmasından ve 1918'de bağımsız bir devletin kurulmasından sonra, Avrupa ülkelerinden destek alarak daha da sapkın hale geldiler. Azerbaycan halkı tarihsel olarak toprak iddialarından dolayı acı çekmiştir. AHC döneminde hükümet bunlara karşı ciddi önlemler aldı ve Karabağ ve çevresinin güvenliğini sağlamak için burada bir Genel Valilik oluşturdu. Hüsrev bey Sultanov'un önderliğinde bu valilik kararlı tedbirler aldı. Alınan önlemler sonucunda Karabağ'da AKP'nin gücü tamamen yeniden sağlandı. Maalesef Karabağ'da Sovyet yetkililerinin emriyle çıkan Ermeni ayaklanması AHC'yi zor durumda bırakmış ve Sovyet yetkilileri bundan yararlanarak Doğu'nun ilk bağımsız cumhuriyetinin varlığına son vermiştir.

Anahtar Kelimeler: Azerbaycan Demokratik Cumhuriyeti, Karabağ, X, Sultanov, Ermeniler, Azerbaycan ordusu.

Summary

Armenians began to claim our homeland from the day they were transferred to the historical Azerbaijani lands by Russia. Since these claims were supported by the ruling circles of Tsarist Russia, they increased their claims day by day. After the collapse of Tsarist Russia and the establishment of an independent state in 1918, they became even more heretical, receiving support from European countries. The people of Azerbaijan have historically suffered due to territorial claims. During the AKP period, the government took serious measures against these and established a Governor General's Office here to ensure the security of Karabakh and its surroundings. Under the leadership of Husrev bey Sultanov, this governorship took decisive measures. As a result of the measures taken, the power of the AKP in Karabakh was completely restored. Unfortunately, the Armenian uprising in Karabakh, which broke out under the orders of the Soviet authorities, put the APC in a difficult situation, and the Soviet authorities took advantage of this and ended the existence of the first independent republic of the East.

Keywords: Azerbaijan Democratic Republic, Karabakh, X, Sultanov, Armenians, Azerbaijani army.

Giriş

XIX əsrin sonlarında dünyada sürətlə yayılan marksist ideologiya zəhmətkeşlərin bərabərliyini, qardaşlığı, həmrəyliyi təbliğ etdiyi bir zamanda, ermənilər arasında başqa xalqlara qarşı nifrət, özünü digərlərindən üstün tutma, ayrı-seçkilik və separatçılıq ideyaları yayılırdı.

Ermənilər özlərinə "aşağı mədəniyyət sahibi olan qonşularla" bir ölkədə yaşamağı rəva görmür, onların hamısının erməni torpaqlarından qovulub çıxarılmasına çalışır və bu zaman heç din amilini də nəzərə almırlar. Ermənilər dinindən, dilindən, etnik mənsubiyyətindən asılı olmayaraq bütün xalqların özlərinin yaşadıqları torpaqlarda yaşamasını istəmirlər. Deyilənlərin təsdiqi üçün müasir Ermənistanın etnodemoqrafik durumuna nəzər salmaq kifayət edir. Hazırda bu ölkədə ermənilərdən başqa heç bir etnos yaşamır, hətta qonşu xristian gürcülərin yaşadığı bir kəndə belə təsadüf etmək mümkün deyil. Amma ermənilər özləri dünyanın hər yerində yaşayır. Qonşu dövlətlərin hər birində cəm şəkildə erməni icmaları mövcuddur: Azərbaycanda 40 minə yaxın (Dağlıq Qarabağ xaric), Gürcüstanda 160 minə yaxın, Türkiyədə 100 minə yaxın, İranda da təxminən bu qədər. Amma adı çəkilən xalqların heç bir nümayəndəsi Ermənistanda qalmayıb. Deməli, Daşnaksütyun "Böyük Ermənistan" planının ilk mərhələsini həyata keçirib.

I. Ermənilərin Azərbaycanlılara qarşı milli qırğın siyasəti

1905-ci ilin yayında ermənilər Qarabağda da türk-müsəlman əhali ilə savaşa başladı. 16 avqust 1905-ci ildə başlayan müharibə, avqustun 21-də sülh elan edilməsi ilə başa çatdı. Bu müharibədə yüzlərlə azərbaycanlı qətlə yetirilmişdi.

Çox keçmədən ermənilər imkanlı ermənilərin köməyi ilə 1905-1906-cı illərdə Türkiyə və İrandan muzdlu erməni döyüşçüləri gətirib türklərə qarşı yenidən döyüşə başladılar. Müsəlmanların öldürülməsində Rusiya tərəfindən Qarabağa və Şuşa qəzasına təyin edilən generalların da iştirakı olmuşdur. Bunlardan general Qalaşşapov qəddarlığı ilə xüsusən seçilirdi. Yeni döyüşün başlanması üçün bəhanə 1906-cı ilin iyul ayının 12-də bir neçə gün əvvəl ölmüş erməni meyitini generala nişan verərək: "budur bu saat sənin qonşuluğunda müsəlmanlar qətlə yetirmişlər" - deməklə general Qalaşşapovu hərəkətə gətirdilər. O da bəhanə axtardığından dərhal Köçərli məhəlləsini topa tutmaq əmrini verdi. Kazak dəstələri ilə birlikdə 10 minə yaxın daşnak dəstələri azərbaycanlılara qarşı hücuma keçdilər. Azərbaycanlılar igidliklə vuruşaraq ermənilərin daha çox itki verməsinə nail oldular. General Qalaşşapov vəziyyəti belə görüb daha evdən bayıra çıxmadı. Ermənilər bu müharibəni etməzdilər, çünki bu dəfə hökumət qoşununa arxayın idilər. Müsəlmanların mərdanəliyi ermənilərə və hökumət qoşununa məlum oldu. Müharibənin altıncı günü ayın 18-də general Qalaşşapov hər iki tərəfdən bir neçə vəkil götürüb müsəlman hissəsinin fikrini öyrənməyə gəldi. Söhbət zamanı "bir quru barışıqdan ötrü işi bu məqama çıxardınız"- deyib ağladı. [M.S.Ordubadi, 2007; s 52] 1918-1919-cu illərdə qanlı hadisələrin baş verdiyi bölgələrdən biri də Qarabağ idi. Şuşa Zəngəzur ilə qonşu olduğundan buradan ermənilər asanlıqla Şuşaya soxulub qətliamlar törədə bilirdilər. Kazım Qarabəkir Paşa ermənilərin Şuşaya basqınları haqqında yazırdı: "Erməni əhalisi Qarabağ məntəqəsində təcavüzə başlayaraq, Qarabağın mərkəzi olan Şuşa qalasına hücum etdilər. Qarabağda, Şuşa qalasında Andranik Ozanyanın birliklərinə qarşı əsgəri hazırlıqlar 6 sentyabr 1918-ci ildə başa çatmışdır. Albay Cahid bəy Şuşa ətrafında mühasirədə olan müsəlmanlara xəbər göndərərək bir az da müqavimət göstərmələrini istədi. Hər tərəfdən mühasirəyə düşdüyünü görən Andranik geri çəkilməyə məcbur oldu. Albay Cahid bəy Şuşanın çox sa vaşmadan ələ keçirildiyindən razıdır" [B.N.Şimşir, 1994; s. 25] Qarabağ ermənilərinin 1918-ci ilin iyulun 22-də çağırılmış I qurultayı zamanı bölgənin ermənilər yaşayan dağlıq hissəsini müstəqil siyasi-inzibati vahid elan edərək öz hökumətlərinin yaradılmasını bəyan etmişdilər. Arxiv sənədlərindən məlum olduğu kimi, ümumilikdə 1918-ci il iyul ayından 1920-ci ilin aprelinə kimi erməni separatçıları Qarabağda doqquz qurultay keçirmişdilər. İkinci qurultaydan etibarən (15 sentyabr 1918-ci il) erməni separatçılarının yaratdıqları hökumət "Erməni Milli Şurası" adlanmağa başladı. Erməni Milli Şurasının Azərbaycan hökuməti əleyhinə fəaliyyətinin yeni mərhələsi 1919-cu ilin yanvarında, Qarabağ general-qubernatorluğunun yaradılması və onun fəaliyyəti dövrünə təsadüf edir.

Azərbaycan hökumətinin ölkənin ərazi bütövlüyünün qorunub saxlanması məqsədilə 15 yanvar 1919-cı ildə Cavanşir, Şuşa, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general qubernatorluğunun yaradılması xüsusi olaraq qeyd olunmalıdır. Məhz bu qərar bölgədə ictimai-siyasi sabitliyin yaranmasına gətirib çıxartdı. Adranikin əsl cəllad siması 1918-ci ilin yayında özünü büruzə verdi. Bu vaxt türk, ingilis və almanlar arasında Cənubi Qafqaz respublikalarına münasibətdə baş verən ziddiyyətlərdən istifadə etməyə çalışan, Bakıda Şaumyanın erməni hökumətinin ağır vəziyyətə düşməsindən sonsuz dərəcədə məyus olan Andranik öz quldur dəstələri ilə Azərbaycan sərhədlərini keçərək qəflətən Zəngəzura hücum etdi. [V.Arzumanlı, 1995; s.37] Gürcüstandakı Azərbaycan diplomatik heyətinin rəhbəri M.Y.Cəfərov, Tiflisdəki Ermənistan diplomatik heyətinin rəhbəri A.Camalyana 15 avqust 1918-ci il tarixində verdiyi notada Andranikin Ermənistan sərhədindən Azərbaycan ərazisinə keçdiyini, Şuşa yolunun və Zəngəzurun bir hissəsini işğal etdiyini diqqətə çatdırır və bu cür təcavüzlərə son qoymağı tələb edirdi. [ARDA, f. 897,siy 1, iş 11]

II. AXC-nin erməni fəaliyyətinə qarşı mübarizəsi

Ermənistan hökuməti özünün 1919-cı il 21 yanvar tarixli iclasında Zəngəzuru və Qarabağın ermənilər yaşayan dağlıq hissəsini Ermənistanın ayrılmaz hissəsi elan etmiş və həmin ərazilərdə müvəqqəti olaraq ali hakimiyyət funksiyasını həyata keçirməyi Erməni Milli Şurasına tapşırmışdı. Ermənistan hökuməti bölgədə vəziyyətə nəzarət etmək üçün hətta ali komissar vəzifəsini təsis etmiş və bu vəzifəyə Arsen Şaxmazyanı təyin etmişdi. Öz növbəsində Erməni Milli Şurası 1919-cu fevralın 4-də Böyük Britaniyanın Bakıdakı hərbi təmsilçisi general Tomsona göndəryi müraciətdə Paris sülh konfransının yekunlarına kimi, Zəngəzurun və Qarabağın ermənilər yaşayan dağlıq hissəsində müvəqqəti erməni idarəçiliyinin yaradılması təklifi ilə çıxış edirdi. Həmin təklif əsasında 19-21 fevral 1919-cu il tarixində keçirilən Qarabağ ermənilərinin IV qurultayında xüsusi sənəd də qəbul olunmuşdu. Bu sənədə əsasən Zəngəzurun və Qarabağın ermənilər yaşayan hissəsinin idarə olunması üçün mərkəzi Şuşada yerləşən Vilayət Şurası təşkil olunmalı, onun tərkibinə yerli əhalidən 7 erməni və 3 müsəlman daxil olmalı idi. Buraya daimi üzv kimi Şuşadakı ingilis qoşunlarının nümayəndəsi seçilməli və bölgənin strateji yerlərində ingilis qoşunları yerləşdirilməli idi.[V.A.Mikaelyan, 1992; s. 80] Ermənilərin yalan və iftira dolu mütəmadi müraciətlərinin nəticəsi olaraq 1919-cu il martın 25-də general Tomson bəyan etdi ki, Azərbaycan hökuməti tərəfindən yaradılmış Qarabağ general-qubernatorluğu müvəqqəti haldır və hazırda orada Azərbaycan qoşunlarının və idarəçiliyinin olması gələcəkdə bu ərazinin ona mənsubiyyətini həll etmir. İngilis komandanlığının bu cür mövqeyi erməni separatçılarını ruhlandırır və onların hökumət əleyhinə fəaliyyətinin fəallaşmasına şərait yaradırdı. Erməni Milli Şurasının nümayəndələri cavab məktublarında ingilislərin bu mövqeyini yüksək qiymətləndirərək, onları erməni xalqının himayəçisi və maraqlarının əsas müdafiəçisi kimi göstərirdilər.

[V.A.Mikaelyan, 1992; s. 134]

Qarabağ general-qubernatoru X.Sultanovun fəaliyyətinin ilk dövrlərində onun qarşısında duran mühüm məsələlərdən biri Andranikin silahlı dəstələrinin Zəngəzur və digər bölgələrdə yaratdığı ciddi təhlükəni birdəfəlik aradan qaldırmaq idi. Azərbaycan torpaqlarında, xüsusilə Naxçıvanda və Zəngəzur bölgələrində dinc əhaliyə qarşı vəhşiliklər törədən Andranikin quldur dəstələri nəhayət ki, 1919-cu ilin yazında bu bölgələrin hüdudlarını tərk etməli oldular. [H.İ.Məmmədova, 2006; s. 78]

İngilis hərbi nümayəndələri bölgədəki real vəziyyəti yaxından öyrəndikdən sonra bölgədəki vəziyyətlə bağlı ermənilərin təbliğatının yalan olduğu qənaətinə gəldilər və bu, onların mövqelərində dəyişikliklərə səbəb oldu. 1919-cu il aprelin 3-də ingilis qoşunlarının Şuşadakı nümayəndəsi polkovnik Şatelvort xüsusi əmrlə Azərbaycan hökuməti tərəfindən yaradılmış Qarabağ general-qubernatorluğunu bölgədə ali hakimiyyət orqanı olduğunu təsdiq etdi və onun əmrlərinin bütün əhali üçün məcburi oluduğunu bildirdi. Burada xüsusilə vurğulanırdı ki, general-qubernator X.Sultanovun qanuni fəaliyyəti bölgədə yerləşən ingilis komandanlığı tərəfindən tam dəstəklənir. [V.A.Mikaelyan, 1992; s. 149] İngilis komandanlığının bu qətiyyətli mövqeyi erməni separatçıları üçün gözlənilməz oldu. Buna cavab olaraq 23 aprel 1919-cu ildə çağırılmış Qarabağ ermənilərinin V qurultayında qəbul olunmuş qətnamədə polkovnik Şatelvortun tələblərinə açıq etiraz bildirildi və erməni əhalisinin Azərbaycanın tərkibində hər hansı bir quruma tabe olmayacağı bəyan edildi. Buna baxmayaraq, aprelin 25-də polkovnik Şatelvort Ermənistanın ingilis hərbi missiyası yanında nümayəndəsi M.Arzumanyanla görüşündə bildirmişdi ki, onun hökumətinin nümayəndəsi Şaxmazyan Zəngəzurda Azərbaycan əleyhinə qoşun topladığı üçün, qubernatorluğu tərk etməlidir. Eyni tələb ilə mayın 5-də general Tomson da çıxış etdi. O, Şaxmazyan kimilərinin Qarabağda yaranmış kövrək sabitliyin pozulmasında günahlandıraraq Ermənistan hökumətinin rəhbəri Xatisovdan onun geri çağırılmasını tələb etdi. Əks halda Tomson Şaxmazyanın həbs olunacağını və səhra məhkəməsinə veriləcəyini bildirirdi. 1919-ci il may ayının sonunda Ermənistanın Qarabağ və Zəngəzurda nümayəndəsi təyin olunmuş A.Şaxmazyan və Ermənistanın Şuşadakı ingilis hərbi missiyası yanında nümayəndəsi M.Arzumanyan ingilis zabitlərinin müşaiyəti ilə Azərbaycan ərazisini tərk etdilər. [İ.V. Niftəliyev, 2009; s. 87] Vəziyyətin bu cür inkişafını görən erməni separatçıları 1919-ci il iyunun 4-5-də bölgədə qanlı qarşıdurma törətdilər. Məqsəd uzun illər təcrübədən keçmiş üsülla, yəni erməni qanının axıdılması yolu ilə beynəlxalq aləmə guya türklərin onları qırdıqlarını bəyan etmək idi. 1919-cu il iyunun 4-də Qarabağ ermənilərinin silahlı dəstələri Şuşa ətrafındakı azərbaycanlı hərbi hissələrin yerləşdiyi gözətçi məntəqələrinə hücum etdilər. Lakin onların bu hücumu X.Sultanovun gördüyü qəti tədbirlər nəticəsində dəf edildi. Bu dövrdə Şuşa şəhəri faktiki olaraq erməni və azərbaycanlıların yaşadıqları iki hissəyə bölünmüşdü. Şəhərdə yaşayan ermənilər müxtəlif şayiələr yayır və Avropa dövlətlərində yerləşən təmsilçilərinin vasitəsilə İngiltərə hökumətinə yalan dolu məlumatlar verərək ingilis komandanlığının da fəaliyyətinə mane olurdu. Erməni qəzetləri özlərinin dağıtdıqları türk-müsəlman kəndləri haqqında elə məlumat yayırdılar ki, guya dağıdılan erməni kəndləridir və qırılan, talana məruz qalan da erməni əhalisidir. Bu məlumatlar hətta qərb qəzetlərinin səhifələrində də özünə yer tapırdı. Erməni təbliğatı barədə ingilis jurnalisti Skotland-Liddel yazırdı: "Ermənilər həmişə özləri savaş axtarır və nə vaxt ki, onu tapırlar, onlar öz təbliğatlarında bunu sıxışdırılmaq adlandırırlar. Əslində isə bu onların özlərinin qazandıqları cəzadır... Daşnaklar üçün öldürülmüş erməni çox qiymətlidir. Əgər bu hadisədən necə lazımdırsa istifadə edə bilirlərsə, onda o təbliğat onlara çoxlu xeyir gətirir". Jurnalist, Nuru Paşadan misal gətirərək erməni xarakterinin mahiyyətini açıqlayır: "Erməni, nə vaxt, necə ölməsindən asılı olmayaraq, həmişə başını məzardan qaldıraraq qışqırır: -"Mən kütləvi qırğın zamanı öldürülmüşəm". [A.Ə.Paşayev, 2011; s.185] İrəvan ətrafında türk-müsəlman kəndlərini dağıdan ermənilər eyni cinayətləri Zəngəzurda və Cəbrayıl qəzasında da törətmişdilər. Onların məqsədi İrəvanın ətrafını tamamilə türk-müsəlman əhalisindən təmizləmək, Cəbrayıl qəzasını ələ keçirmək və beləliklə də Qarabağı cənubdan tutmaq və Naxçıvanı mühasirəyə salmaq idi. 1919-cu ilin fevralında ermənilər Göyçədə də qırğınlar törətdilər. Azərbaycan Xarici İşlər Nazirliyi bu bölgədə baş verən hadisələrlə bağlı da Ermənistana nota vermişdi. Notada deyilirdi: "Erməni silahlı dəstələri Göyçə gölü kənarından Azərbaycanın sərhədlərini keçərək Qızıl Vəng, Subatan, Zağalı, Şahab və başqa müsəlman kəndlərini dağıtmışlar.

Ələ salınaraq təhqir edilmiş Şahab kəndli qadının dediyinə görə, kəndin bütün kişiləri doğranmış, uşaqlar təndirdə yandırılmışdı". Göyçə faciəsi ilə bağlı məlumat müttəfiqlərin Qafqazdakı ali baş komandanlığına da göndərilmişdi. [A.Ə.Paşayev, 2011; s.180] 1920-ci ilin yazında ermənilər yenə də Şuşa, Cavanşir, Zəngəzur qəzalarında və onun ətrafında silahlı qiyam qaldırdılar və Əsgəran qalasını tutdular. Azərbaycan milli ordu hissələri bu qiyamı yatırmaq üçün Qarabağa yeridiləndə XI ordu şimal sərhədlərini keçərək Bakıya irəliləməyə başladı. Əslində Qarabağ ermənilərinin qiyamı da XI ordu qərargahından idarə olunur, tapşırıqlar Moskvadan gəlirdi. [M.S.Süleymanov, 1998; s. 408]

İstifadə olunmuş ədəbiyyat

1. ARDA, f. 897, siy.1, iş 11.
2. Документы и материалы по внешней политике Закавказья и Грузии. Тифлис: 1919, 514 с.
3. Allahverdiyev V., Mehdiyev Ş. Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920). Bakı: Gənclik mərkəzi, nəşriyyatı, 1990, 96 s.
4. Məmmədov X.M Azərbaycan xalqının milli istiqlal mübarizəsi (XIX yüzilliyin sonları-XX yüzilliyin əvvəlləri). Bakı, Elm, 2005, s. 215.
5. Nəsibzadə N.L. Azərbaycanın xarici siyasəti (1918-1920). Bakı: "Ay-Ulduz" nəşriyyatı, 1996.- 304 s.
6. Nuru Paşa. Qafqaz İslam Ordusu Hərəkatı. Bakı: Hərbi Nəşriyyat, 1999, 144 s.
7. Oruclu M.R. Azərbaycanda və mühacirətdə Müsavat partiyasının fəaliyyəti (1911-1922). Bakı: Azərnəşr, 2001, 272 s.
8. Süleymanov M.S. Azərbaycan ordusu. Bakı: Hərbi nəşriyyat 1998

OPTIMIZING LEKER PROFITS USING SIMPLEX METHOD LINEAR PROGRAMMING

ANGELINA PURNANDA[*1)], CARMELITA NIRANDA[*2)], HERONIKA TYAMTA[*3)], LIVIA RICHEL[*4)], LEONY LEORENZA[*5)], DUDY EFFENDY[*7)]

1,2,3,4,5,6,7 Fakultas Ekonomi Bisnis, Universitas Widya Dharma Pontianak

Abstract

Leker is one of the iconic foods from Surabaya which is quite famous and people love it. Leker also can found in the street food, and known as asmall businesses, Leker also can found in the street food, and known as a small businesses, which is a snack made from wheat flour, eggs, milk, sugar and a little salt. Leker is popular because of the tastes is combined from sweet to salty, savory and crunchy. You can find this snack very easy, like in front of schools, campuses, busy centers such as night markets or malls. There is one of small businesses called "Lekerputar. Nyong" that located in the Widya Dharma University area of Pontianak. However, even though this business is considered practical, this business also requires good manufacturing methods starting from measuring the ingredients. The aim of this research is to optimize profits in "Lekerputar.Nyong" production. To obtain maximum profits, the right formula is needed through production planning with linear programming. By maximizing profits, this research was carried out using the simplex method which functions to find the optimum solution.

Keywords: Leker, chocolate, oreo, strawberry, Linier Program, Simplex Method, Profit Optimization.

FREE DRIVING AND TEAMWORK IN PROJECT EDUCATION

ЖОБАЛЫҚ БІЛІМ БЕРУДЕГІ ЕРКІН ЖҮРГІЗУ ЖӘНЕ ТОПТЫҚ ЖҰМЫС

СВОБОДНОЕ ВОЖДЕНИЕ И КОМАНДНАЯ РАБОТА В ПРОЕКТНОМ ОБРАЗОВАНИИ

ӘБІТАЙ ӘЛИЯ НҰРЛАНҚЫЗЫ [1], ИМАНОВА ЭЛЬМИРА МЫРЗАБЕКҚЫЗЫ [1]
[1]ҚАЗАҚ ҰЛТТЫҚ ҚЫЗДАР ПЕДАГОГИКАЛЫҚ УНИВЕРСИТЕТІ
АЛМАТЫ, ҚАЗАҚСТАН

АННОТОЦИЯ

Соңғы жылдары білім беру бағдарламалары білім алушылрдың үлгерімін арттыру құралы ретінде жобалық оқытуды оқу жоспарларына көбірек енгізуде. Бұл үрдіс студенттер мен оқытушылардың рөлін өзгертті. Алайда, әдебиет пен практикалық тәжірибе топтық жұмыстың жағымсыз жанама әсерлерін көрсетеді, бұл топтағы өнімділіктің төмендеуіне әкеледі. Ең әсерлі нәтижелердің бірі-топтық жұмыс топтың кейбір мүшелеріне еркін қозғалуға мүмкіндік береді. Бұл мақалада фрирайдтың эмпирикалық зерттеулері сипатталған. Ол назар аударады:

* Оқытушының жаңа рөлдерінің еркін жүргізу әсеріне
* Өзіндік жұмыстың команданың тиімділігіне және оның сипаттамаларының әсеріне

Осы мақалада келтірілген нәтижелерге сүйене отырып, жобалық оқыту мүмкін екендігі айқын болады

команданың жұмысына теріс әсер етеді. Мұның себебі, бір жағынан, топтық жұмыс топтың кейбір мүшелері арасында еркін жүруге әкелуі мүмкін. Екінші жағынан, жарысқа қатыспайтын қатысушылар олардың орнын толтырудың орнына күш-жігерін қысқартады ("жеңілген эффект"гипотезасы). Бұл мінез-құлық команданың тиімділігінің жалпы төмендеуіне әкеледі.

Кілттік сөздер: еркін оқу, тьютор рөлдері, топтық жұмыс, жобалық оқыту, сенім, топтың қанағаттануы, оқу мақсаттары

Abstract

Məhz bu misraların yaradıcılıq əhvali-ruhiyyəsində, müasir ədəbiyyatın, ədəbi prosesin mənzərəsini görürük. Müasir poeziyanın novatorluq yolunda və prinsiplərində şairin mövqeyi kifayət qədərdir. XX əsrin "birinci yolunda" M.Ə.Sabir, A.Səhhət, kimi şairlər, "ikinci yolunda" Səməd Vurğun və Süleyman Rüstəm kimi böyük şairlər yazıb-yaradıblar. "Üçüncü yolda" isə ardıcıl yazıb-yaradan, özündən sonra böyük məktəb qoyan şairimiz Rəsul Rza oldu. Şairin poema yaradıcılığı minillik tarixə malik Azərbaycan poeziyasına özünəməxsus yenilik, təravət gətirmişdir. Rəsul Rzanın lirik-epik səpkidə yazılmış "Qızılgül olmayaydı" poeması Azərbaycan ədəbiyyatında repressiya qurbanları mövzusunda yazılmış ən dəyərli əsərlərdən biri sayılır. Poemanın mövzusu Müşfiqin həyatı və taleyi ilə bağlıdır. Rəsul Rza həm də gözəl poemalar müəllifi kimi tanınmışdır. Onun "Bir gün də insan ömrüdür", "Füzuli", "Qızıl gül olmayaydı", "Xalq həkimi", "Xalq şairi", "Bir min dörd yüz on səkkiz" və s. əsərləri Azərbaycan poemalarının ən gözəl nümunələridir. Rəsul Rza həmçinin, özünün yaradıcılıq metodu və xüsusiyyəti ilə də həmişə fərqlənən orjinal şairdir. R.Rzanın bu dövr poeziyasında məşhur "Rənglər" silsiləsinin ayrıca yeri vardır. Silsilə şeirləri ilk dəfə 1962-ci ildə "Azərbaycan" jurnalında (№11) dərc olmuşdur. Silsilənin bu nəşri 27 şeirdən ibarət idi. "Firuzəyi", "Qırmızının inam çaları", "Mavinin təsəlli çaları", "Sürməyi", "Saman sarısı" və s. poetik mətnlərini yazdı və bu yeni şeirlər "Dözüm" kitabına (1965) daxil edildi. Bütövlükdə silsilə 33 şeirdən ibarətdir. Rəsul Rza özünün yaradıcılıq metodu, sənətkarlıq xüsusiyyəti ilə həmişə fərqlənən orijinal şairdir. Poeziya aləmində şairin öz üslubu, öz dəsti-xətti var. Onun sənət aləminin məzmun və mündəricəsinə diqqət yetirdikdə bu yaradıcılığın yalnız Rəsul Rzaya məxsusluğunu çətinlik çəkmədən görürsən. Rəsul Rza heç kimi yamsılamır, heç kəsi təkrarlamır. Rəsul Rza ömrü yalnız şərəfli, dözümlü, heç kəsə baş əyməmiş bir ömr olduğuna görə deyil, həm də dəyişən dövranların, zamanların ərzində öz varlığını, təməl dəyərlərini qoruyub saxlayan bir Çinar ömrüdür. Onun "Çinar ömrü"nə qədər uzanan, dönmədən, azmadan qət edilmiş bir həyat yolu var.

Gecə keçmiş, ulduzlar ağ, göy qara...

Söykənmişəm qocaman bir çinara.

Gecə qara durdum, düşündüm bir az,

Dedim:- Nədən ulu çinar yıxılmaz?

Birdən çinar dilə gəldi, dedi:-Bax!

Bu torpaqda dərindən kök salaraq,

Hər tərəfə uzatmışam qolumu,

Övladlarım bürüyüb sağ-solumu.

Belə məğrur dayanmağa haqlıyam,

Mən kökümlə bu torpağa bağlıyam.

Xalqımızın çinar vüqarlı yenilməz şairi təkcə özünün bu qüdrəti, bu əzəməti ilə deyil, həm də nəcibliyi və həlimliyi ilə doğma xalqının hərarətli qəlbinə, işıqlı yaddaşına əbədi həkk olunmuşdur. Rəsul Rza irsinin mahiyyəti uşaqlarda yeni dövr şeirini daha dərindən duymaq, başa düşmək haqqında təssəvvür oyatmaqdır. Şairin "Mən torpağam"adlı şeirində dəyərli bədii nümunələrə rast gəlirik.

Mən torpağam, məni atəş yandırmaz

Tərkibimdə kömürüm var, külüm var,

Mən baharam çəmən-çəmən

Çiçəyim var, gülüm var.

Mən küləyəm, əsməsəm,

Kim bilər ki, mən varam.

Mən buludam, səhraları susuz görüb,

Ağlaram.

Mən ürəyəm, döyünməsəm

Ölərəm.

Rəsul Rza "Mən torpağam" şeirində insanı yüksək qiymətləndirir, insan əlinin yaratdığı nemətləri görüb sevinir, zəhmətə qiymət verməyi bacarır. İnsanı hətta buluda bənzədir. Bulud susur, səhraları görüb yağış yağdırır, səhraları suvarır. İnsan da çətinliyə düşənlərə, darda qalanlara kömək əlini uzadır, xeyirxah işləri ilə onları sevindirir.

Mən insanam, vətənim var, elim var.

Ən böyük həqiqəti Azadlığı, məhəbbəti, nifrəti

Söyləməyə qadir olan dilim var.

Şair böyük vətənpərvər kimi vətəni ilə, dili ilə fəxr edir. Ana dilinin qüdrətli, zəngin olduğunu da şeirində vurğulayır. Rəsul Rza XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindəndir. O, söz sənətimizə forma və məzmunca yeniliklər gətirərək novator şair kimi milliliyimizi qoruyub saxlamışdır. Azərbaycan dilinin poetik potensialının yeni-yeni imkanlarını üzə çıxaran Rəsul Rza yarım əsrə yaxın dövr ərzində yüksək dəyərli bədii nümunələr meydana gətirməklə yanaşı, respublikamızın elmi-mədəni həyatında yaxından iştirak etmiş, dolğun və səmərəli ictimai fəaliyyəti ilə tanınmışdır. Şairin uşaq ədəbiyyatında fəaliyyəti danılmazdır. Rəsul Rzanın "İlkin məktəbə gedir", "Balacaların təbiət ensiklopediyası", "Cücülər", "Təranənin oyuncaqları" və s. kimi kitablarının rolu müasir Azərbaycan uşaq ədəbiyyatının maraqlı mövzularındandır. Şairin "Balacaların təbiət ensiklopediyası" adlı kitabındakı şeirlər demək olar ki, bütün heyvanlara, həşəratlara və bitkilərə həsr edilmişdir. Məsələn, Tülkü, Dələ, Porsuq, Pişik, Dəvə, Keçi. Quşlardan Qaraquş, Qartal, Bildirçin, Laçın. Həşəratlardan Dozanqurdu, Əqrəb, Kəpənək, Çəyirtkə və s. kimi maraqlı heyvanlar, uşaqların təbiətlə bağlı bilgilərini formalaşdırır. Əsas məqsəd isə şair tərəfindən uşaqları təbiətə səyahətə aparmaqdır. "Buludların ətəyində yellənən yaz yağışından göbələk ətri gəlir. Çiçəklər yuxulu, heyrətli, iri gözləriylə üfüqdə gül açan günəşə boylanırlar. Qarışqalar, arılar, kəpənəklər çölə, çəmənə tələsirlər. Quş isə göllərin gümüşü sinəsi kimi titim-titim titrəyir. Yüzillik çinar isə köhlən ürgələrin kişnərtisindən diksinir. Açılan səhər təbiətə təzə qayğılar gətirir".

"Balacaların təbiət ensiklopediyası" adlı kitabındakı şeirlərində heyvanlara, həşaratlara aid maraqlı tanışlıq epizodları var. "Zürafə", "Dələ" şeirləri buna misal ola bilər.

Zürafə

Boynu uzun zürafə
Boylanır hər tərəfə
Yarpaqları yeməkçin
Hündür-hündür ağacdan
Nə pilləkan gərəkdir,
Ona, nə də nərdivan...

Dələ

Bu quyruğu uzun dələ,
Bir yaşında deyil hələ.
Adət edib tullanmağa
Bu budaqdan o budağa.
Qoz fındığı şaraq-şaraq
Dişlərində sındıraraq,
Yeyir, yaman nadincdir o,
Çox hiyləgər, çox bicdir o.

R.Rzanın ədəbi yaradıcılığı olduqca zəngin ədəbiyyatdır. Onun əsərlərindən "Rənglər"silsiləsindən ibarət olan şeirlər kitabı Kanada da üç dəfə təkrar çap olunmuşdur. Azərbaycanda da, uzaq Kanadada da, Danimarkada da, Fransada da, Moskvada da fərqli illərdə böyük oxucu kütləsinin tələbi ilə təkrar nəşr olunmuşdur. "Rənglər" silsilə kitabından fərqli olaraq yazıçı, balaca oxucularına rəngləri tanıdırdısa, "Balacaların təbiət ensiklopediyası" silsiləsində isə məqsəd azyaşlı uşaqlarda təbiətə qarşı sevgi hissi aşılamaqdır. Silsilənin ilk bölümündə, şair "Bostan və tərəvəz bitkiləri" nin zahiri əlaməti haqqında danışaraq, eyni zamanda qidada və müalicə xüsusiyyətlərinə toxunaraq gərəkli məlumat verir. Şair bitkilər və güllər haqqında məlumat verərkən əsərdə onların təbiət adlarınıda açıqlayır. Onların zahiri əlamətlərinidə olan fərqliliyi balaca oxucularına şeir yolu ilə təsvir edir. R.Rza, təbiətdən cəmiyyətə, cəmiyyətdən də təbiətə boylanan, insanla təbiət arasında harmoniyanı şeirlərində böyük məhəbbətlə canlandıran şairdir. Azərbaycan həm də uzunömürlü şairlər diyarıdır. Mikayıl Müşfüq, Səməd Vurğunun və Əli Kərimin qısa şair ömürlükləri oxucularını nə qədər sarsıtsa da, uzunömürlü şairlərimizin varlığı poeziyamızın toy-bayramıdır. R.Rza müasir Azərbaycan poeziyasının öndər şairlərindən biridir. 70 yaşına qədər ömür sürmüşdür. Bütün ömrü, həyatı, aldığı nəfəs belə sözlə, şeirlə yoğrulan R.Rza əsl poeziya həqiqətidir. Milli Azərbaycan şeirinin, bütün gözəllik və incəliklərini özündə əks etdirən R.Rza şeiri XX əsrin söz inciləridir; torpaq kimi səxavətli, günəş kimi odlu, hərarətli, səma kimi aydın və işıqlıdır... Sevimli şairimiz Rəsul Rza 1981-ci il aprelin 1-də Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

ƏDƏBİYYAT

1. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. I cild-Bakı-Azərnəşr, 2002- səh, 458

2. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. II cild-Bakı-Azərnəşr, 2002-səh, 435

3. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. III cild-Bakı-Azərnəşr, 2002-səh, 431

4. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. IV cild-Bakı-Azərnəşr, 2002-səh, 463

5. Rəsul Rza. Seçilmiş əsərlər: Beş cilddə. V cild-Bakı-Azərnəşr, 2002-səh, 457

Özet

Çocuk edebiyatı mirasını ülkemizde birkaç neslin oluşmasında paha biçilmez bir manevi varlık olarak nitelendiren Resul Rıza, şiirsel bir dille, Azerbaycan çocuk edebiyatının yaratılması ve geliştirilmesinin edebiyat ve sanatımızın temel kaygılarından ve sorumlu görevlerinden biri olduğunu anlattı. bağımsızlık döneminde bilimsel ortam. Çocuk edebiyatında tarihi tecrübeye sahip olan R.Rza, Azerbaycan çocuk edebiyatına aydınlanma ruhunu aşılamış, milli fikirlerle zengin çocuk eserlerinin gelişmesinde büyük rol oynamış, insani değerlerin önemini korumayı başarmıştır. Azerbaycan çocuk edebiyatı edebi-tarihsel gelenekleri koruyan bir edebi süreçtir. Değerli şairimiz, bu tarihsel sürecin temel amacı olarak milli fikrin ve çocuk edebiyatının sağduyu ile gelişme perspektifleri olarak ahlaki vasıflar aşılayan eserler yazmayı tercih etmeyi her zaman belirtmiştir. Resul Rıza, 19 Mayıs 1910'da Azerbaycan'ın Göyçay şehrinde aydın bir ailede dünyaya geldi. R.Rza ilk şiirleriyle basında yer almaya başladığında edebiyat sürecinde yeni, devrimci bir düşünce şekilleniyordu. Bir yanda deneyimli yazarlar, diğer yanda yeni bir yazar kuşağı vardı ve şunu da belirtmek gerekir ki, yeni edebiyat mücadelesi, bu edebiyatın ideolojik ve sanatsal ilkelerinin korunması ve hararetle savunulması çok önemli bir mücadeleydi. bu sürecin bir yönü. R.Rza, ilk şiirleriyle bu edebiyat mücadelesine katılan bir şair olarak dikkat çekmiştir. Yetenekli bir şairin yaratıcılığı ilk şiirlerinde hissediliyordu. İlk matbu eseri Bu Gun'da okurun anlaması onun şiirsel ilkesinin temel gereğiydi. R.Rza'nın edebi eseri oldukça zengin bir edebiyattır. Eserleri arasında "Renkler" serisinden oluşan şiir kitabı Kanada'da üç kez yeniden basıldı. Çok sayıda okuyucunun isteği üzerine Azerbaycan, uzak Kanada, Danimarka, Fransa ve Moskova'da farklı yıllarda yeniden basıldı. Yazar, "Renkler" kitap serisinden farklı olarak küçük okuyucularına renkleri tanıtırken, "Çocuklar İçin Doğa Ansiklopedisi" serisi ise küçük çocuklara doğa sevgisi duygusu aşılamayı amaçlıyor. Şair, serinin ilk bölümünde "Bostan ve sebze bitkileri"nin görünümünden bahsederken aynı zamanda besleyici ve şifalı özelliklerine de değinerek gerekli bilgileri veriyor. Şair, eserde bitki ve çiçekler hakkında bilgi verirken bunların doğal isimlerini de açıklamaktadır. Dış işaretlerindeki farklılığı şiirle küçük okurlarına anlatıyor. R.Rza, doğadan topluma, toplumdan doğaya uzanan, insan ve doğa arasındaki uyumu şiirlerinde büyük bir sanatla canlandıran bir şairdir. Azerbaycan aynı zamanda uzun ömürlü şairlerin de ülkesidir. Mikayil Müşfuk, Samad Vurgu ve Ali Kerim'in kısa biyografileri okurları ne kadar şok etse de, uzun ömürlü şairlerimizin varlığı şiirimiz için bir şanstır. R.Rza, modern Azerbaycan şiirinin önde gelen şairlerinden biridir. 70 yaşına kadar yaşadı. Bütün hayatı, hayatı ve nefesi söz ve şiirle yoğrulan R.Rza, şiirin gerçek hakikatidir. Milli Azerbaycan şiirinin tüm güzelliklerini ve inceliklerini bünyesinde barındıran R.Rza'nın şiiri, 20. yüzyılın söz incileridir; Toprak kadar cömert, güneş kadar ateşli ve sıcak, gökyüzü kadar berrak ve parlak...

Sevgili şairimiz Resul Rıza, 1 Nisan 1981'de Bakü'de vefat etti ve Fahri Hiyaban'da defnedildi.

Anahtar kelimeler: milli, sorun, düşünce, klasik, şiir, tecrübe, fikir

Abstract

Describing the heritage of children's literature as an invaluable spiritual asset in the formation of several generations in our country, Resul Rıza explained in a poetic language that the creation and development of Azerbaijani children's literature is one of the main concerns and responsible duties of our literature and art. scientific environment during the independence period. R. Rza, who has historical experience in children's literature, instilled the spirit of enlightenment in Azerbaijani children's literature, played a major role in the development of children's works rich with national ideas, and managed to preserve the importance of human values. Azerbaijani children's literature is a literary process that preserves literary-historical traditions. Our esteemed poet has always stated that the main purpose of this historical process is to prefer to write works that instill moral qualities as common sense and development perspectives of the national idea and children's literature. Resul Riza was born on May 19, 1910, in Goychay city of Azerbaijan, in an intellectual family. When R.Rza started to appear in the press with his first poems, a new, revolutionary thought was taking shape in the literary process. There were experienced writers on one side, and a new generation of writers on the other, and it should be noted that the struggle for new literature, the preservation and fierce defense of the ideological and artistic principles of this literature, was a very important struggle. one aspect of this process. R.Rza attracted attention as a poet who participated in this literary struggle with his first poems. The creativity of a talented poet was felt in his first poems. In his first printed work, This Gun, the reader's understanding was the basic requirement of his poetic principle. R.Rza's literary work is a very rich literature. Among his works, the poetry book consisting of the "Colors" series has been reprinted three times in Canada. At the request of numerous readers, it was reprinted in different years in Azerbaijan, distant Canada, Denmark, France and Moscow. Unlike the "Colors" book series, the author introduces colors to his young readers, while the "Nature Encyclopedia for Children" series aims to instill a sense of love for nature in young children. In the first part of the series, while the poet talks about the appearance of "Orchard and vegetable plants", he also gives the necessary information by touching on their nutritional and healing properties. While giving information about plants and flowers in the work, the poet also explains their natural names. He explains the difference in his external signs to his little readers through poetry. R.Rza is a poet who portrays the harmony between humans and nature with great artistry in his poems, extending from nature to society, from society to nature. Azerbaijan is also the country of long-lived poets. No matter how short biographies of Mikayil Müşfuk, Samad Vurgu and Ali Kerim shock the readers, the existence of our long-lived poets is a chance for our poetry. R. Rza is one of the leading poets of modern Azerbaijani poetry. He lived until he was 70 years old. R. Rza, whose whole life, life and breath are kneaded with words and poetry, is the real truth of poetry. R. Rza's poetry, which contains all the beauties and subtleties of the national Azerbaijani poetry, is the pearl of words of the 20th century; As generous as the earth, as fiery and warm as the sun, as clear and bright as the sky...

Our beloved poet Resul Rıza passed away in Baku on April 1, 1981 and was buried in Fahri Hiyaban.

Keywords: national, problem, thought, classical, poetry, experience, idea

THE ROLE OF GILMAN ILKIN IN AZERBAIJAN CHILDREN'S LITERATURE. RELEVANCE OF THEME IN THE NOVEL OF BAKU AND BAKILIANS

QILMAN İLKİNİN AZƏRBAYCAN UŞAQ ƏDƏBİYYATINDA ROLU. BAKI VƏ BAKILILAR ROMANINDA MÖVZU AKTUALLIĞI

AYGUN AHMADOVA SHUKUR KIZI

Azerbaycan Devlet Pedagoji Üniversitesi (Ü. Hacıbeyov-68), 0000-0002-2464-2513

Qılman İlkin ədəbiyyat tarixində özünəməxsus mövqeyə malik sənətkarlardan biri kimi uzun illər ərzində çoxcəhətli səmərəli fəaliyyət göstərmiş və zəngin Azərbaycan nəsrinin realist ənənələri zəmnində yaratdığı qiymətli əsərləri ilə milli mədəniyyətin inkişafına töhfələr vermişdir. **İlham Əliyev,**

Azərbaycan Respublikasının Prezidenti

Qılman İlkin (Musayev) bütün yaradıcılığında yeni nəslin tərbiyəsini əsas məqsəd kimi qarşıya qoyaraq, onların mənəvi həyatında aşkar olan narahatlıqların, həyəcanların müsbət yöndə bədii həllinə çalışıb, insan tərbiyəsinin ən başlıca və əsas məsələləri üzərində düşünüb, nəticədə, uşaqların mənəvi tələbatını ödəyən əsərlərin yazılmasına nail olub. Nasirin bir çox əsərlərində uşaqların məişəti, onların məktəb həyatı, elmə, təhsilə olan tükənməz həvəsi, əxlaqi təmizliyi, mənəvi-psixoloji və əxlaqi-etik münasibətləri öz əksini tapıb. Yazıçının yaradıcılığına daxil olan nəsr və dramaturji əsərlər müxtəlif mövzuları əhatə edir. Bir sıra hallarda dövr üçün daha səciyyəvi olan əmək adamlarının, onların cəmiyyətdə tutduğu mövqenin pafoslu tərənnümü, ideoloji-siyasi məqamlara nüfuz etməsi diqqəti çəksə də, yeni nəslin elmi biliklərə yiyələnməsinə, təlim-tərbiyəsinə, mənəvi-əxlaqi tərbiyəsinin formalaşmasına meyli, istəyi daha güclü nəzərə çarpır. Yeni dövrdə qurub-yaratmağı, vətən, xalq üçün xidmət göstərməyi tövsiyə edən nasir, tərbiyə yolunu bunda görür, gənc nəslin bu istiqamətdə formalaşmasını məqbul sayırdı. Azərbaycan uşaq ədəbiyyatının inkişafında əhəmiyyətli rolu olan yazıçılardan biridə Qılman İlkindir. O, 1914-cü il aprel ayının 28-də Bakının Mərdəkan kəndində anadan olmuşdur. İbtidai təhsilini Zeynalabdin Tağıyevin Mərdəkanda açdığı Bağbançılıq məktəbində alıb. Bu məktəbdə ona Feyzulla Qasımzadə və Cəfər Rəmzi dərs deyiblər. Hörmətli yazıçımız, öz xatirələrində Zeynalabdin Tağıyevi necə gördüyündən söz açırdı. Deyirdi ki, Tağıyev hərdən bizim məktəbə də baş çəkirdi, o qədər sadə idi ki, heç deməzdin bu, milyonçudur. Amma ömrünün son illərini əzəbla yaşayirdı. Nərimanov olmasaydı bolşeviklər onun qocalığına heç baxmazdılar. Bir yazıçı olaraq, Q. İlkin bütün həyatı boyu tarixi hadisələri izləyərək 96 il yaşadı. Azərbaycan yazıçıları arasında misli olmayan bir uzunömürlülüyə imza atan nadir yazıçılarımızdan biri oldu. İkinci Dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq Qılman İlkin ordu sıralarına çağırılmışdır. O, müharibə illərində keçmiş Sovet Ordusu tərkibində Qafqaz cəbhəsində və İranda hərbi qəzetlərdə müxbir olmuş, Təbrizdə çıxan "Vətən yolunda" adlı əsgər qəzetinin redaksiyasında çalışmışdır. Xalq yazıçısı Ənvər Məmmədxanlı haqqında xatirələrində yazırdı, "Ənvər Məmmədxanlı ilə dostluğumuz otuzuncu illərdən başlamışdı. Onun istedadını yüksək qiymətləndirirdim. Azərbaycan nəsrində lirik üslub onun və İlyas Əfəndiyevin adıyla bağlıdır. Ümumiyyətlə mən ağlamağı sevən bir insan deyiləm.

Heç bir yazıçının, şairin dəfnində ağlamamışam, göz yaşlarımı saxlamışam, amma Ənvər Məmmədxanlının ölüm xəbərini eşidəndə özümü saxlaya bilmədim. Çünki Ənvər Məmmədxanlı mənim nəzərimdə fövqəladə insan idi. Mərd, xeyirxah, sədaqətli, ağıllı və həm də istedadlı idi. Ənvər ziyalılığın mücəssəməsi idi. Həyat tərzi köhnə kişiləri xatırladırdı, amma o, başdan-ayağa müasir insan idi". Müasir Azərbaycan nəsrinin tanınmış nümayəndələrindən olan Qılman İlkin 1943-cü ildən etibarən ədəbi yaradıcılığa başlamışdır. O, altmış ildən artıq bir dövr ərzində nasir kimi zəngin fəaliyyət göstərmiş və ədəbiyyatımızın inkişafına öz töhfəsini vermişdir. Yazıçının qələminin məhsulu kimi meydana çıxan çox sayda hekayə, povest və romanlarda tarixilik, vətənpərvərlik və tərbiyəvi mövzular aparıcı yer tutmuşdur. Bu əsərlər yaxın keçmişimizdə baş verən hadisələrlə və müasirlərimizin həyatından alınan bədii lövhələrlə zəngin nəsr nümunələridir. Dövrün gənc ədəbi simalarından olan Qılman İlkin yaradıcılığı öz əlvanlığı ilə diqqəti cəlb edirdi. Qələm təcrübələri ilə ədəbi aləmə qədəm qoyaraq ədəbi mühitin daha da canlanması və formalaşmasına böyük təsiri ilə seçilmişdir. Ədəbi yaradıcılığa Qılman İlkin bir publisist kimi başlayıb, "Ədəbiyyat qəzeti"ndə tənqidi məqalələri dərc edilib. "Yaralı şahin" adlı hekayəsi ilə yaradıcılığa başlayan Q. İlkin 1947-ci ildə "Həyat yollarında" adlı ilk kitabını nəşr etdirmişdir. Eyni adlı povestdə müəllif görkəmli dramaturqumuz Nəcəf bəy Vəzirovun uşaqlıq illərinin maraqlı, yaddaqalan lövhələrini yarada bilmişdir. 1949-cu ildə hekayələrdən ibarət ikinci kitabı nəşr edilmiş, sonra Q. İlkin daha məhsuldar çalışaraq Üçtəpə uşaqları", "Sahil küçəsində", "Yazılı daş". "Qalada üsyan" kitablarını yazmışdır. Axırıncı əsər daha çox şöhrət qazanmış, onun motivləri əsasında uşaqların və böyüklərin çox sevdiyi "Yenilməz batalyon" filmi çəkilmişdir. Qılman İlkin məhsuldar yazıçı olmuşdur. Onun qələmindən çıxan "Şah və qarışqa", "Şimal küləyi", "Tapşırıq", "Sərvinazım mənim", "Ömrün oğlan çağları", "Dağlı məhəlləsi", "Tayqa nağılı", "Dəniz qapısı" və s. kitabları oxucular maraqla qarşılamışlar. Q. İlkinin "Üçtəpə uşaqları", "Ömrün oğlan çağı" povestlərində də uşaqların və gənclərin, arzu və düşüncələri, onların mübarizələrdə bərkiyən həyatı ön plana gətirilmişdir. Qılman İlkinin yaradıcılığında hekayə janrı mühüm yer tutur. O, yığcam bir süjetlə öz qəhrəmanlarının daxili aləmini açmağa nail olmuşdur. Ədibin hekayəçiliyində təzə hadisə olan həm uşaqlar üçün maraqlı və gərəkli, həm də böyüklər üçün dərin, düşündürücü, ibrətamiz "Nağıllar" silsiləsi də daxildir. Q.İlkinin hekayələri olduqca rəngarəngdir. Onun yaradıcılığı nəsrimizin uğurlarındandır. Onu da qeyd edək ki, onların bir çoxu uşaqların həyatına həsr edilib. Yazıçının yaradıcılığında uşaqların və gənclərin həyatına aid mövzular əsas yer tutur. "Bahar tüstüləri", "Sahildə" və başqa kitablarında yazıçının bir sıra maraqlı və mənalı hekayələri toplanmışdır. Uşaqların həyatından və müxtəlif mövzulardan bəhs edən bu hekayələr maraqlıdır. "Qalada üsyan" və "Şimal küləyi", romanları da uşaqlara qəhrəmanlıq, mərdlik, kimi yüksək keyfiyyətlər aşılayır. Qılman İlkinin bir publisistik romanı, "Bakı və bakılılar" əsəridir. Müəllifin Bakı həyatını, Bakı mühitini çox yaxşı bildiyi üçün, əsərinin baş qəhrəmanı Bakı şəhəri idi. Bakı haqqında çoxlu əsərlər yazılıb. Amma Bakını ta qədimdən müasir dövrümüzə (təxminən XX əsrin ortalarına gəlib çıxır) qədər təsvir edən, onun bir şəhər kimi keçdiyi tarixi yolları heç kim Qılman İlkin kimi canlı, emosional şəkildə təsvir edə bilməyib. "Bakı və bakılılar"da Bakının on dörd əsrlik tarixi vərəqlənir və o vərəqlərin hər birində tarixin müxtəlif dövrlərinin Bakısını görürük. Bakı xanlıqları, milyonçuları və ziyalıları, ruhaniləri, qoçuları və hamballarını, Bakı mətbuatı, təhsil və maarifin səviyyəsindən tutmuş, əsəri bitirdiyi tarixi günə qədər paytaxtımızın mənzərəsini ustalıqla təsvir edərək oxucusuna geniş məlumat vermişdir. Ensiklopedik səciyyəyə malik olan bu kitabda köhnə Bakının ab-havası və təkrarsızlığı müəllifin publisistik məlumatlarında öz əksini tapmışdır. Kitabda həmçinin Pavel Sisianovun öldürülməsi haqqında geniş məlumatlar verilir. Pavel Sisianov haqqında yazıçı tarixi istinadlara güvənərək 1804-cü ildə Pavel Sisianovun, Gəncə xanlığını işğal etdiyini və Cavad xanı qətlə yetirməyindən söz açır. İşğal olunan xanlıqların siyahısında Şamaxı, Şəki və Qarabağ xanlıqları mövcüddur.

1805-cı ildə general Pavel Sisianov Bakı xanlığına hücum edir. İlk hücum uğurlu alınmasada ikinci hücum zamanı Sisianov Bakını mühasirəyə ala bilir. Bakı xanı Hüseynqulu xan danışıqlar aparmaq üçün onu Qala qapısına yaxın bir yerə dəvət edir. Məqsədi P.Sisianovu öldürmək deyildir. Lakin bu görüşdən xəbər tutan Hüseyinqulu xanın əmisi oğlu İbrahim bəy qarşılıqlı münasibətə xəyanət edərək, 1806-cı ilin 8 fevralında general Pavel Sisianovu Bakının Qala qapısı yaxınlığında öldürür. P. Sisianovun ölümündən sonra vəziyyət çətinləşir. 1806-cı ilin oktyabrında Bakı işğal edilir. 1813-cü ildə isə Gülüstan müqaviləsində Bakı xanlığının Rusiyaya birləşdirilməsi rəsmiləşdirilir. Uzun müddət nəşi Bakı qəbirstanlığında qalan Sisiyanovun cəsədi 1811-ci ildə Tbilisiyə aparılaraq orada kilsə qəbiristanlığında dəfin edilir. Hərbi işdən əlavə P. Sisiyanov həm də ədəbi fəaliyyətlə də məşğul olur, fransız dilindən şeirlər tərcümə edərək, Gürcü və Rus ədəbiyyatında tarixi mövqeyini qoruyur. Bakı və Bakılılar romanında, Bakıxanovlar sülaləsi, Bakı kəndləri, Nargin adasında olmuş əsirlər və H.Z.Tağıyevin mühakimə edilməsi barədə dəqiq məlumatlar verilmişdir. O, Bakı kəndləri və bu kəndlərdə yaşayan əhalinin adət-ənənələri, yaşam tərzi ilə bağlı oxucuya yeni faktlar, məlumatlar çatdırır. Ramana, Balaxanı, Biləcəri, Qobu, Dərnəgül, Bülbülə, Sabunçu, Binəqədi, Digah, Zabrat, Fatmayı, Novxanı, Saray, Xoca Həsənli, Masazır, Corat, Şağan, Mərdəkan, Buzovna, Pirşağı, Hökməli, Kürdəxanı, Goradil, Zuğulba, Bibiheybət, Keşlə, Əhmədli, Zığ, Hövsan, Türkan, Zirə, Qala, Suraxanı, Binə, Əmircan... bu kəndlərin hər birinin özünəməxsus "obrazını" yaradaraq, oxucusuna bilgi verir. Qılman İlkin. “Bakı və bakılılar” romanında, respublikamızın paytaxtı Bakı şəhərinin keçmiş günlərdə necə olduğu haqqında oxucusuna ətraflı izzah verir. Sevdiyimiz, fəxr etdiyimiz bu gözəl şəhərin əsrlər boyu nə kimi çətinliklərdən keçdiyini, bugünkü xoşbəxt günlərinə necə nail olduğundan söz açaraq, mərd oğullarının yenilməz Vətən sevgisindən, onu necə qoruduqlarından və qədim abidələrin necə hifz edib saxlamalarını tarixi əsaslarla səciyyələndirir. Kitab nadir və ilk dəfə çap üzü görən fotoşəkillərlə zəngindir. Bakını əsrlər boyu quranlar, yaradanlar haqqında yazıçı geniş məlumat verir. Bugünkü və gələcək nəsillər üçün gözəl bir əsər ortaya qoyaraq Bakının tarixi ilə onları tanış edir. Xalq yazıçısı Qılman İlkinin 2006-cı ildə oxuculara təqdim etdiyi “Bakı və bakılılar” kitabında tarixi faktlar və inandırıcı həqiqətlər çoxdur. Kitabın «Ön sözü» mərhum akademik-filosof Fuad Qasımzadənin bu gün soydaşlarına son sözü kimi səslənir: “Çağdaş və gələcək nəsillərə doğma Azərbaycanımızı tanıtmaq hamımızın borcudur. Bu, müqəddəs bir işdir. Hər nəsil yaşadığı mühitdə göz açır, onun ab-havası ilə böyüyür, necə deyərlər, hər şeyi bir növ hazır görür. Bilmir ki, gördüklərinin tarixi var, böyük bir keçmişi var. Bu gün dünəndən yaranıb, sabah da bu gündən yaranacaq. Lakin tarix ardı-arası kəsilməz prosesdir. Həm fasiləlidir, həm də fasiləsiz. Həyatın dialektikası belədir. Hər hər bir hadisədə keçmişin qalıqları, indinin əsasları, gələcəyin isə rüşeymləri olur. Tarix və müasirlik bitməz əsaslara bağlıdır. Biri digərsiz ola da bilməz. Odur ki, tariximizi, keçmişimizi bilməliyik. Müxtəlif ölkələrin millət və xalqlarının tarixini yada salın. Görün bir, Paris fransızlar, London ingilislər, Madrid ispanlar, Roma italyanlar, Berlin almanlar, Varşava polyaklar üçün nə qədər vacib əhəmiyyətə malik olmuşdur. Moskva ruslar üçün, İstanbul türklər üçün, Bağdad iraqlılar üçün əziz olduğu kimi, Bakı da bizim üçün əziz və qiymətlidir”. Qılman İlkinin bütün nəsillərə yazılı əmanəti olan “Bakı və bakılılar” kitabının “Qədim şəhər” fəslində Bakının tarixini soraqlayanlar üçün zəngin məlumatlar (səh.10-17) vardır. Bəzi məqamlara diqqət yetirək: “1826-cı ildə Bakıda olmuş görkəmli səyyah Zeynalabdin Şirvani yazırdı: “Bakını Badikubə də adlandırırlar. Çünki bu yerdə daim küləklər əsir. Buna görə də burada evlərin özülünü yonulmuş daşlardan qoyur, damları qırla örtürlər”. Xalq yazıçısı Əli Vəliyev, Qılman İlkinin “Bakı və bakılılar” romanı haqqında yazırdı: Yazıçının müvəffəqiyyətlərindən biri, bəlkə də birincisi Bakı şəhərini, Xəzər dənizini, Abşeron kəndlərini, bağlarını yana-yana, sevə-sevə göstərməsidir. Mən inqilabdan qabaqkı Bakını görməmişəm. Bu şəhərdə yaşamamışam.

Qılmanın əsərlərini oxuyandan sonra həm şəhəri, həm də hadisələrin cərəyan etdiyi şəraiti görməyə başladım.” Qara Namazov yazırdı: "Q. İlkinin əsərlərinin mövzu dairəsi genişdir. Onun əsərlərində təkcə inqilabi keçmişimiz və Vətəndaş müharibəsi deyil, dinc quruculuq illərində uşaqların təhsili, işi və fəaliyyəti, vətənimizin zəngin sərvətlərinin axtarılması, kəndlərimizin keçmişinin ve bu gününün öyrənilməsi və s. geniş və ətraflı təsvir və tərənnüm olunmuşdur". Q.İlkin, erməni işğalçılarının törətdiyi cinayətlərdən təsirlənərək, "Nifrət" adlı məqaləsində yazırdı: "Yürüyün, Allah amanında! Allah da sizin tərəfinizdədir. "Erməni işğalçılarına ölüm!" sözləri sizi bütün döyüşlərdə müşayiət etsin. İrəli, əsgər övladlarımız, irəli! Zaman artıq öz hökmünü verir. Diqqətlə baxın, üfüqdə də artıq dan sökülür. O əlvan şəfəqlər parlaq qələbəmizdən xəbər verir. Gülgün səhərin açılmasına az qalmışdır". İctimai fəaliyyəti dövründə Qılman İlkin yazıçı kimi çox məsuldar işləmişdir. Bütün yaradıcılığı boyu 53 kitabı nəşr edilmişdir. Bunlardan dördü roman, povest və hekayələrdir. Yazıçının əsərləri bir sıra xalqların dillərinə tərcümə olunaraq ölkəmizin hüdudlarından nəsrimizi layiqincə təmsil etmişdir. Eyni zamanda onun tərcümələri sayəsində Azərbaycan oxucusu dünya ədəbi fikrinin bəzi nümunələri ilə tanış olmaq imkanı qazanmışdır. Qılman İlkinin müasir Azərbaycan ədəbiyyatı və mətbuatının inkişafında səmərəli xidmətləri qiymətləndirilmişdir. O, bir çox mükafatlara və təltiflərə, o cümlədən Azərbaycan Respublikasının Xalq Yazıçısı və Əməkdar İncəsənət Xadimi fəxri adlarına layiq görülmüşdür. Onun ədəbi irsi insanların, cəmiyyətin formalaşmasında böyük rol oynamışdır. Qılman İlkin 6 noyabr 2009-cu ildə 96 yaşında, Bakı şəhərində vəfat etmiş və II Fəxri xiyabanda dəfn olunmuşdur. Tanınmış yazıçı, gözəl publisist və təvazökar insan Qılman İlkinin xatirəsi onu tanıyanların, sevənlərin qəlbində həmişə yaşayacaqdır.

ƏDƏBİYYAT

1. Axundlu Y. “Yazıçı ömrü”, Qılman İlkin-80 “Mənim ədəbi dünyam”. Bakı-Maarif, 1998. səh, 213-219.

2. Şükürova E. “Nəsrimizin klassiki-Qılman İlkin Sözə sevdalılar” - ədəbi düşüncələr. Bakı-Nərgiz, 2011. səh, 368-373.

3. Həyat yollarında, Azərbaycan nəsri antologiyası: 5 cilddə. Bakı: Şərq-Qərb, 2006. c-4. səh, 34-76. (Müasir Azərbaycan ədəbiyyatı).

Özet

Gilman İlkin, Azerbaycan çocuk edebiyatının gelişmesinde önemli rol oynayan yazarlardan biridir. 28 Nisan 1914'te Bakü'nün Merdekan köyünde doğdu. İlköğrenimini Zeynalabdin Taghiyev'in Mardakan'da açtığı Bahçıvanlık okulunda aldı. Bu okulda Feyzulla Gasimzade ve Cafer Remzi'den ders aldı. Değerli yazarımız anılarında Zeynalabdin Tağıyev'i nasıl gördüğünü anlatmıştır. Taghiyev'in bazen okulumuzu ziyaret ettiğini, o kadar basit olduğunu, milyoner olduğunu bile söyleyemeyeceğinizi söyledi. Ancak hayatının son yıllarını ıstırap içinde geçirdi. Nerimanov olmasaydı Bolşevikler onun yaşlılığına hiç bakmazlardı. G.İlkin, yazar olarak 96 yıl boyunca tarihi olayları takip ederek yaşadı. Azerbaycanlı yazarlar arasında eşi benzeri olmayan bir uzun ömürlülüğe ulaşan ender yazarlarımızdan biri oldu. "Bakü ve Bakü Halkı" Gılman İlkın'ın gazetecilik romanıdır. Yazar, Bakü hayatını ve Bakü çevresini çok iyi bildiğinden eserinin baş kahramanı Bakü şehri olmuştur. Bakü hakkında pek çok eser yazılmıştır. Ancak hiç kimse Bakü'yü eski çağlardan günümüze (20. yüzyılın ortalarına doğru) ve bir şehir olarak tarihi yollarını canlı ve duygusal olarak anlatamadı. "Bakü ve Bakulyalılar"da Bakü'nün on dört asırlık tarihi sayfalar halinde anlatılıyor ve bu sayfaların her birinde Bakü'nün farklı tarih dönemlerini görüyoruz.

Bakü hanlıkları, milyonerler ve aydınlar, din adamları, çobanlar ve hamallar, Bakü basını, eğitim ve aydınlanma seviyesinden eseri bitirdiği tarihi güne kadar başkentimizin manzarasını ustalıkla anlatmış ve okuyucularına geniş bir bilgi yelpazesi sunmuştur. Bu ansiklopedik kitapta eski Bakü'nün atmosferi ve özgünlüğü yazarın gazetecilik bilgilerine yansıyor. Kitapta ayrıca Pavel Sisianov cinayetiyle ilgili de geniş bilgiler veriliyor. Pavel Sisianov hakkındaki yazar, tarihi referanslara dayanarak, 1804 yılında Pavel Sisianov'un Gence Hanlığı'nı işgal ederek Cevad Han'ı öldürdüğünü söylüyor. İşgal altındaki hanlıklar listesine Şamahı, Şeki ve Karabağ hanlıkları da dahildir. 1805 yılında General Pavel Sisianov Bakü Hanlığına saldırdı. İlk saldırı başarılı olmazsa ikinci saldırıda Sisianov Bakü'yü kuşatmayı başardı. Bakü Hanı Hüseyngulu Han, müzakere yapmak üzere onu Kale kapısının yakınında bir yere davet eder. Amacı P. Sisianov'u öldürmek değil. Ancak bu görüşmeyi duyan Hüseyingulu Han'ın kuzeni İbrahim Bey, karşılıklı ilişkiye ihanet ederek 8 Şubat 1806'da General Pavel Sisianov'u Bakü Kalesi kapısı yakınında öldürdü. P. Sisianov'un ölümünden sonra durum zorlaşır. Ekim 1806'da Bakü işgal edildi. 1813 yılında Gülistan Antlaşması Bakü Hanlığı'nın Rusya'ya ilhakını resmileştirdi. Uzun süre Bakü mezarlığında kalan Sisiyanov'un naaşı 1811 yılında Tiflis'e götürülerek oradaki kilise mezarlığına defnedildi. P. Sisiyanov askeri çalışmalarının yanı sıra edebi faaliyetlerle de uğraşmakta, Fransızca'dan şiirler çevirmekte ve Gürcü ve Rus edebiyatındaki tarihi konumunu sürdürmektedir. "Bakü ve Bakü Halkı" romanında Bakuhanov hanedanı, Bakü köyleri, Nargin Adası'ndaki esirler ve H.Z. Taghiyev'in davası hakkında doğru bilgiler verilmektedir. Bakü'nün köyleri ve bu köylerde yaşayan insanların gelenek ve yaşam tarzları hakkında yeni gerçekleri ve bilgileri okuyucuya aktarıyor. Ramana, Balakhani, Bilajari, Gobu, Darnagul, Bülbül, Sabunçu, Binagadi, Digah, Zabrat, Fatmayi, Novkhani, Saray, Hoca Hasanlı, Masazir, Çorat, Şagan, Mardakan, Buzovna, Pirshaghi, Hokmeli, Kurdakhani, Goradil, Zugulba, Bibiheybat , Keshla, Ahmadli, Zigh, Hovsan, Türkan, Zira, Gala, Surakhani, Bina, Amirjan... bu köylerin her birinin kendine özgü bir "imajı" yaratarak okurunu bilgilendiriyor.

Anahtar kelimeler: manevi, psikolojik, ideoloji, uzun ömür, politik, kaygılı, geçmiş

Abstract

Gilman İlkin is one of the writers who played an important role in the development of Azerbaijani children's literature. He was born on April 28, 1914 in Merdekan village of Baku. He received his primary education at the Horticulture school opened by Zeynalabdin Taghiyev in Mardakan. He took lessons from Feyzulla Gasimzade and Cafer Remzi at this school. Our esteemed author explained how he saw Zeynalabdin Tağıyev in his memoirs. He said that Taghiyev sometimes visits our school, he is so simple that you cannot even say that he is a millionaire. However, he spent the last years of his life in agony. If it weren't for Narimanov, the Bolsheviks would never have cared about his old age. G.İlkin lived as a writer, following historical events for 96 years. He became one of our rare writers who achieved an unprecedented longevity among Azerbaijani writers. "Baku and the People of Baku" is Gilman İlkın's journalistic novel. Since the author knows Baku life and the Baku environment very well, the main hero of his work was the city of Baku. Many works have been written about Baku. But no one was able to vividly and emotionally describe Baku from ancient times to the present day (towards the middle of the 20th century) and its historical paths as a city. In "Baku and Bakulians", the fourteen-century history of Baku is told in pages, and on each of these pages we see different historical periods of Baku. Baku khanates, millionaires and intellectuals, clergy, shepherds and porters, the Baku press masterfully described the landscape of our capital from the level of education and enlightenment to the historical day when he finished the work and offered its readers a wide range of information. In this encyclopedic book, the atmosphere and originality of old Baku are reflected in the journalistic knowledge of the author. The book also provides extensive information about the murder of Pavel Sisianov.

The author about Pavel Sisianov, based on historical references, says that in 1804, Pavel Sisianov invaded the Ganja Khanate and killed Javad Khan. Shamakhi, Sheki and Karabakh khanates are also included in the list of occupied khanates. In 1805, General Pavel Sisianov attacked the Baku Khanate. If the first attack was not successful, Sisianov managed to surround Baku in the second attack. Baku Khan Hüseyngulu Khan invites him to a place near the Castle gate to negotiate. His goal is not to kill P. Sisianov. However, Huseyingulu Khan's cousin Ibrahim Bey, who heard this meeting, betrayed the mutual relationship and killed General Pavel Sisianov near the gate of Baku Castle on February 8, 1806. After the death of P. Sisianov, the situation becomes difficult. In October 1806 Baku was occupied. In 1813, the Treaty of Gulistan formalized the annexation of the Baku Khanate to Russia. The body of Sisiyanov, who stayed in the Baku cemetery for a long time, was taken to Tbilisi in 1811 and buried in the church cemetery there. In addition to his military work, P. Sisiyanov is also engaged in literary activities, translating poems from French and maintaining his historical position in Georgian and Russian literature. In the novel "Baku and the People of Baku", the Bakuhanov dynasty, Baku villages, prisoners on Nargin Island and H.Z. Accurate information is provided about Taghiyev's case. It conveys to the reader new facts and information about the villages of Baku and the traditions and lifestyles of the people living in these villages. Ramana, Balakhani, Bilajari, Gobu, Darnagul, Bülbül, Sabunçu, Binagadi, Digah, Zabrat, Fatmayi, Novkhani, Saray, Hoca Hasanlı, Masazir, Çorat, Şagan, Mardakan, Buzovna, Pirshaghi, Hokmeli, Kurdakhani, Goradil, Zugulba, Bibiheybat , Keshla, Ahmadli, Zigh, Hovsan, Türkan, Zira, Gala, Surakhani, Bina, Amirjan... he informs his readers by creating a unique "image" of each of these villages.

Keywords: spiritual, psychological, ideology, longevity, political, anxious, past

PROSE AND LITERARY CRITICISM OF THE 1970s
70-Cİ İLLƏR NƏSRİ VƏ ƏDƏBİ TƏNQİD

GÜNEL HÜMMƏTOVA (PƏNİYEVA) SALEH

Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi, fil.ü.f.dok.
Orcid ID:0000-0002-8916-3484

Xülasə

70-ci illər ədəbi fikirini səciyyələndirən cəhət biri də odur ki, müasir insanın, müasir psixoloji və əxlaqi həqiqətlərin daha tam və daha həqiqi dərki axtarışlarında bədii fikir adi, sıravi, sadə qəhrəmanla daha tez-tez rastlaşmağa başlamışdı. Şübhəsiz, qəhrəmanın tipi öz-özlüyündə hələ bədii niyyətin, estetik idealın miqyasını və vüsətini müəyyən etmir. Hər hansı "qəhrəman həyatımızın, sosialist gerçəkliyinin partiyalı, obyektiv, analitik təhlili vasitəsi ilə çevrilə bilirsə, deməli, o sosialist realizminin bədii obraz, tip arsenalının lazımlı qəhrəman kimi estetik mövcudluq haqqına malikdir."(4.s.176) Tənqidçinin də qeyd etdiyi kimi bu tip qəhrəmanlarının seçilməsi sosialist realizm cərəyanına aid edilir ki, məhz bu qəhrəmanın da "adi", "siravi" adamlardan seçilməsi əsasdır. Ədəbi tənqidin dönə-dönə göstərdiyi kimi Müasir Azərbaycan nəsri "adi" adamların həyat və məişətinə daha çox maraq göstərir. Davranışları, danışıqları, dünyagörüşləri ilə ilk baxışda özgələrindən seçilməyən adamlar baş qəhrəman yerində çıxış edir. Bu tipli yeni qəhrəmanlar indi daha çox özüntəhlil məqamlarında diqqəti cəlb etməsi və digər nəslin qəhrəmanlarından, insanlarından seçilməsi də nəsrimizdə "düşünən" qəhrəmanların yaranmasına gətirib çıxartmışdı. Burada düşünmək, mühakimə yürütmək özü də müəyyən mənada hərəkət deməkdir. Beləki, obrazın fəallığını mütləq kimə qarşı isə açıq mübarizə aparmaq mənasında yox, özünü və başqalarını müəyyən səviyyədə təhlil etmək kimi də anlamaq lazımdı. Düşünmək yaxud daxili, passiv etiraz daha geniş miqyasda təzahür edir. Nəsrimizdə bu anlayışın da ən ümumi cəhəti məhz ondan ibarətdir ki, o siravi adamların – zəhmətkeş kəndli, fəhlə və ziyalıların bədii surətidir. Lakin orasıda var ki, hər siravi adamı düşünən, özünü dərk edən qəhrəman kimi götürmək olmaz. Düşünən adam təbii ki, dərketmənin mənəvi-əxlaqi atributlarını daşıyan, daxili etirafı bacaran bir qəhrəmandır. "Düşünən qəhrəman"ın təsviri üçün daxili monoloq əlverişli bədii vasitəyə çevrilir. Daxili monoloqun dialoqlu səciyyə daşıması, mənəvi kolliziyanı əks etdirməsi onun mühüm əlamətləri sırasına daxildir. Seçilmiş qəhrəmanın əsərdə tam olaraq hansı mövqedə çıxışı aydın şəkildə bilinmir. Çünki bu dövr nəsrində işlənmiş qəhrəmanlarının "mənfi" və ya "müsbət"liyindən danışmaq mümkün deyil. İnsan bu ədəbiyyatda özünün bütün təbiiliyi, mürəkkəbliyi ilə üzə çıxdı: "Qəribə, uğursuz, təzadlı, mürəkkəb taleli adamlar, həyatda bəxti gətirməyənlər, ütüsüz, rəndələnməmiş, nahamvar düşüncələr, xasiyyətlər və xarakterlər də nəsrdə axınla daxil olmağa başladı. Məişətdə və mənəviyyatda həqiqət və ədalət axtarışlarında bəzən onların gəldiyi qənaətlər əcaib görünür, hakim, standart "sovet adamı" ehkamına və anlayışına heç cür sığmır."(3.s.127) Tənqidçinin qeyd etdiyi kimi bu uyğunsuzluq, əlbəttə, təsadüfü deyildi, yazıçılar, sadəcə gerçəkliyi, həyatı olduğu kimi əks etdirirlər. Həyatda isə bu uyğunsuzluq obyektiv olaraq özünü göstərirdi.

Mənəvi axtarışlar nəsrində əvvəlki müsbət-mənfi qütbləşmənin yox olmasını Azərbaycan tədqiqatçılardan biri olan M.İbrahimov belə izah edir : " İfrat müsbətlik və ifrat mənfilik ölçülərindən uzaqlaşıb insanı hərtərəfli planda təsvir edən müasir nəsr, təbii ki, folklordakı çoxmənalılıqdan qidalanır." (2.s.13) Əlbəttə, biz folklor nümunələrinə nəzər saldıqda ordakı qəhrəmanların bəzilərinin sırf "mənfi" və ya "müsbət" xarakterə aid edildiyinin şahidi olmaqla yanaşı, hər bir mənfidə bir müsbətin olmasını və heç vaxt tam şəkildə yüzdə-yüz nə mənfinin, nə də müsbətin olmadığının şahidi oluruq. Biz bu xüsusiyyəti və bununla yanaşı dastanla müasir romanın mövzu, ideya-məzmun və qəhrəman kimi mühüm komponentlərində hətta bədii forma və təhkiyə üslubunda da tipoloji yaxınlıq özünü göstərir ki, buna da İ.Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" romanını nümunə kimi göstərə bilərik. Məsələn, İ.Əfəndiyevin "Sarıköynəklə Valehin nağılı" romanının baş qəhrəmanı olan Valeh və mənfi surət kimi verilən Gülbala surətlərinin təhlilini K.Talıbzadənin məqaləsində nəzərdən keçirdikdə belə qənaətə gələ bilərik ki, bu iki surətin heç biri nə tamlığında mənfi, nə də tamlığında müsbətdir. Çünki Valehdə mənfilik vəkili yolda soyundurması, Gülbalagilin məhəlləsindəki gənclərə yuxarıdan aşağı baxması onun xarakterinin ideal olmadığına və həyatda nəyinsə tam olmadığına işarədir. Əgər "aldı-Gülbala" kimi onada söz verilsəydi o, da Valehin bu mənfiliyini qeyd edər, özünün yaşadığı məhəllənin qanunları ilə onu yaxından tanış edər və onun heç bir yalnış etmədiyini sübuta yetirərdi. Valehlə özünün ayrı-ayrı mühitdə yaşadıqlarını və hərənin öz mühitinin qayda-qanunlarına uyğun hərəkət etdiyini bildirməyə çalışardı. Tənqidçi Valehin Balaəminin yolda soyundarmasının mənfiliyini Gülbalanın dili ilə belə təsvir edir "Qaldı ki, sənin arvadına – Sarıköynəyə sataşan Balaəminin şalvarını çıxartdırıb küçənin ortasına buraxmağına heç xoşum gəlmədi, sənə acığım tutdu..." (5.s.67) Şübhəsiz, biz bu illərin nəsrinin adi, siravi qəhrəman obrazları ilə zənginləşdiyini tam doğruluğu ilə qeyd edə bilərik. Lakin adidə qeyri-adinin, siravidə böyüklüyü yaratmaq, qeyri-adidə adinin yaradılması məhz bu illər nəsrinin əsas məziyyətlərindəndir. 70-ci illər nəsrində nasirlər ən yaxşı ənənələr axtararaq, bədii insan konsepsiyasını, şəxsiyyətin bədii təhlil və təsviri vastələrini tamamilə yeni səciyyəyə qaldırdılar. Onların əsərlərində özlüyündə təsərrüfat, istehsal, sosial tərəqqi və s. problemətika yox, bütün bunların mərkəzində dayanan şəxsiyyətin mənəvi aləmi, psixologiyası və sosial mövqeyi, insanın daxili aləmində gedən proseslərin, idealla adilik, daxili fəallıqla imkansızlıq, saflıqla eybəcərlik arasında qalan insanın mövqeyinin, mənəviyyatı ilə mühitin təmasının dərindən təhlil və şərhi maraqlıdır. " Nəsrimizdə əsas diqqət insan psixologiyası və mənəviyyatının, insan intellektinin təhlilinə və ifadəsinə yönəlmişdir. Bu proseslə bağlı olaraq, son dövrdə haqqında çox danışılan bir məsələ, "intellektual" yaradıcılıq məsələsi diqqəti cəlb edir....İnsanın intelektual–mənəvi aləminin və gerçəkliyin bu aləmdə inkasının bədii təhlili və ifadəsi sovet ədəbiyyatında rəngarəng vastələrlə, o cümlədən, əsatiri-folklor ənənələrindən istifadə ilə həyata keçirilir."(1. s.35) 70-ci illərin nəsrinin bəzi nümunələrində fərdin, şəxsiyyətin taleyinə, onların daxili aləminə diqqət verilir. Bu tipli əsərlərdə insanın, fərdin yetkinləşməsinin, cəmiyyət həyatı ilə uyğunlaşmasını müəyyən kollektivdə və mühitdə əks etdirmək baxımından maraqlı nümunələr zəngindir. İnsanın ən yaxşı keyfiyyətlərinin və mənəvi - əxlaqi simasının püxtələşməsinin bilavastə kollektivin təsiri ilə əlaqələndirmək şəxsiyyət və mühit probleminin bədii həlli üçün geniş imkan açır. Qəhrəmanların mühitlə əlaqələri isə müxtəlif baxımdan izah olunmalıdır. Nəsrimizin bir sıra nümunələrində qəhrəmanın mənəvi-əxlaqi keyfiyyətlərinin formalaşması məhz mühitin və kollektivin təsiri ilə əlaqələndirilir. Tənqidçi V.Yusifli qey edir ki, "əlbəttə, qəhrəmana münasibətdə müxtəliflik, mövcuddur: beləki, burada tam rəğbət anlamı olduğu kimi, zidd hallar və anlaşmazlıq da ola bilər. Mühitin qəhrəmanı dərk, yaxud rədd etməsi müəyyən səciyyə ilə əlaqədardır. Ola bilər ki, mühit hələ qəhrəmanın yüksək keyfiyyətlərini dərk etməyə qabil deyildir. Belə hallarda mühitin sağlamlaşma və yeniləşməsi prosesi şəxsiyyətin fəaliyyəti ilə əlaqələndirilir" (6.s.132).

Ədəbiyyat siyahısı

1. Hacıyev A. Epik ənənə və müasir bədii nəsr. Bakı, Bilik cəmiyyəti, 1984, 44 s.
2. İbrahimov M. Bütün yaxşılıqlara ölüm. Bakı, Azərnəşr, 1993, 376 s.
3. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı, Elm, 1991, 116 s.
4. Qarayev Y. Poeziya və nəsr. Yazıçı, Bakı, 1979, 198 s.
5. Talıbzadə K. "Yazıçı ideyası və təhkiyə". "Ədəbiyyat və incəsənət" qəzet, 1980, 4 aprel, s.67.
6. Yusifli V. Nəsr: konfiliktlər, xarakterlər. Bakı, Yazıç, 1986, 165 s.

Açar sözlər: tənqid, 70-ci illər nəsri, mövzu, təsvir

Summary

One aspect that characterizes the literary thought of the 70s is that in the search for a more complete and truer understanding of the modern man, modern psychological and moral truths, the artistic thought began to meet the ordinary, ordinary, simple hero more often. Undoubtedly, the type of the hero in itself does not yet determine the scale and extent of the artistic intention and aesthetic ideal. If any "hero can be transformed by means of a partisan, objective, analytical analysis of our life, socialist reality, then he has the right to aesthetic existence as an artistic image, a necessary hero of the arsenal of types of socialist realism." (4. p. 176) As the critic also noted. the selection of heroes of this type is attributed to the trend of socialist realism, and the selection of this hero from "ordinary" and "ordinary" people is the main thing. As literary criticism has repeatedly shown, Modern Azerbaijani prose is more interested in the life and everyday life of "ordinary" people. People who do not stand out from others at first glance with their behavior, conversations, worldviews act in the place of protagonists. The fact that new heroes of this type attract attention in the moments of self-analysis and their selection from the heroes and people of other generations has led to the creation of "thinking" heroes in our prose. Here, thinking and judging means action in a certain sense. So, the activism of the image should be understood not necessarily in the sense of openly fighting against someone, but also as analyzing oneself and others at a certain level. Thinking or inner, passive protest manifests itself on a larger scale. The most common aspect of this concept in our prose is precisely that it is an artistic image of ordinary people - hardworking peasants, workers and intellectuals. However, there is the fact that every ordinary person cannot be taken as a thinking, self-aware hero. A thinking person is, of course, a hero who carries the spiritual and moral attributes of understanding and is capable of internal recognition. Internal monologue becomes a convenient artistic tool for the description of the "thinking hero". The inner monologue has a dialogic character and reflects a moral conflict among its important features. It is not clear what position the chosen hero will take in the work. Because it is impossible to talk about the "negative" or "positive" character of the heroes of this era. Man was revealed in this literature with all his naturalness and complexity: "Strange, unsuccessful, contrasting, complicated people with a complicated fate, unlucky people in life, unironed, unpolished, rough thinkers, temperaments and characters began to flow into the prose. In the search for truth and justice in the household and spirituality, sometimes their conclusions seem strange, they do not fit into the dogma and understanding of the ruling, standard "Soviet man"" (3. p. 127). As the critic noted, this inconsistency was, of course, not accidental, writers simply reflect reality, life as it is. In life, this inconsistency manifested itself objectively.

M.Ibrahimov, one of the Azerbaijani researchers, explains the disappearance of the previous positive-negative polarization in the prose of spiritual quests as follows: "Modern prose, which moves away from extreme positivity and extreme negativity and describes a person in a comprehensive plan, naturally feeds on the ambiguity of folklore." (2.p.13) Of course, when we look at the examples of folklore, in addition to witnessing that some of the heroes are attributed to a purely "negative" or "positive" character, we also see that there is a positive in every negative and never completely one hundred percent negative, nor do we witness the absence of positive. We can see this feature and the typological closeness in the important components of the modern novel, such as theme, idea-content, and hero, even in the artistic form and style of the novel, and we can show I. Efendiyev's novel "The Tale of the Yellow Shirt" as an example. For example, if we consider the analysis of the copies of Valeh, the main character of I. Efendiyev's novel "The Tale of the Yellow-shirted Valeh", and Gulbala, which are given as negative copies, in K. Talibzade's article, we can conclude that none of these two copies are either completely negative or completely positive. Because the negativity lawyer in Valeh undresses on the road and looks down on the young people in Gulbalagil's neighborhood, it is a sign that his character is not ideal and that something is not complete in life. If he had been given a promise like "aldi-Gulbala", he would have noted this negativity of Valeh, familiarized him closely with the laws of the neighborhood where he lived, and would have proved that he did not do anything wrong. He would try to convey with fascination that he lives in a separate environment and that everyone acts according to the rules of his environment.

Keywords: criticism, prose of the 70s, theme, description

DOSTOYEVSKİ YARADICILIĞINDA İNSANIN MƏNƏVİ ÖZÜNÜDƏRK PROSESİ

AYNUR ZAHİR QIZI BƏDƏLOVA

Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi

XÜLASƏ

Rus ədəbiyyatın dahisi Dostoyevskinin şəxsiyyət anlayışının orijinallığı onun əsərlərinin qəhrəmanlarının mənəvi yönümlü tipologiya çərçivəsində psixoloji portretlərinin nümunəsidir. Mənəvi cəhətdən zəngin, daxili ziddiyyətli və ya mənəvi kasıb insanlar mənəvi zəngin daxili vahid modelinə uyğun olaraq şəxsi varlığın dolğunluğunu özündə ehtiva edir. Dostoyevskinin obrazları mənəvi dəyərlərini açıq şəkildə ortaya qoyur. Bəlkə də həyatın mənəvi kontekstinin ən parlaq təzahürü XIX əsr rus ədəbiyyatında ifadə edildi. Bu dövrdə yazıb yaradan bir çox yazıçıların adını çəkmək olar. Bununla belə Dostoyevskinin tükənməzliyi və dərinliyi misilsiz olaraq qalır. Məqalədə Dostoyevskinin insan konteksti, insanın mənəvi aləm reallıqları öz əksini tapmışdır.

Açar sözlər: yazıçı, şəxsiyyət, mənəvi aləm, idrak, prinsip, ziddiyyət

ABSTRACT

The originality of the personality concept of Dostoevsky, the genius of Russian literature, is an example of the psychological portraits of the heroes of his works within the framework of morally oriented typology. Spiritually rich, internally conflicted, or spiritually poor people embody the fullness of their personal being according to the model of the spiritually rich inner unity. Dostoevsky's images clearly reveal their moral values. Perhaps the most vivid manifestation of the spiritual context of life was expressed in the Russian literature of the 19th century. Many writers who wrote and created in this period can be named. However, Dostoyevsky's inexhaustibility and depth remain unparalleled. The human context of Dostoevsky, the realities of the spiritual world of man are reflected in the article.

Key words: writer, personality, spiritual world, cognition, principle, contradiction

GİRİŞ

XIX əsr rus klassik nəsrinin zirvəsidir. Bu dövrdə Tolstoy, Dostoyevski, Turgenev və d. tərəfindən yazılmış romanlar rus ədəbiyyatının dünya ədəbiyyatında tanınması və mühüm yer tutmasına imkan yaratdı. Bu dövrdə yazılan əsərlərin hər biri uzun, gərgin, müstəqil işin nəticəsidir. XIX əsr rus ədəbiyyatı tarixə qızıl dövr kimi daxil olmuşdur. Bu dövrün əsas xüsusiyyəti rus ədəbiyyatında bir neçə istiqamətin dəyişməsi idi ki, buraya klassizm, romantizm, realizm kimi istiqamətləri misal göstərmək olar. Lakin bəzi sənətkarların əsərlərində realizm aparıcı bədii istiqamətə çevrilmişdi. "Cinayət və cəza" əsəri F. Dostoyevskinin ən mürəkkəb və mükəmməl əsərlərindəndir. Dostoyevskinin bu romanı həm rus ədəbiyyatında, həm də dünya ədəbiyyatında bənzəri olmayan çoxşaxəli romandır. Müəllif əsərdə bir çox problemləri həll etməyə, müxtəlif personajları, onların hərəkətlərini xarakterik mühitdə göstərməyə çalışıb. "Cinayət və Cəza" romanı Dostoyevskinin bəşəriyyətin gələcəyi ilə bağlı qayğısını əks etdirirdi. Pulun gücünün artmasından, əxlaqın tənəzzülündən, cinayətlərin çoxluğundan hiss etdiyi narahatlıqları özündə əks etdirir. İctimai və şəxsi, əxlaq və əxlaqsızlıq problemləri "Cinayət və cəza" romanının dərin psixoloji romana çevrilməsinə səbəb oldu.

Vladimir Nabokov Dostoyuevski haqqında mülahizələrində bu roman haqqında qeyd edir:" Cinayət və cəza"da Raskolnikov naməlum səbəblərdən sələmçi qarını və onun bacısını öldürür. Ədalət amansız müstəntiq obrazında yavaş-yavaş ona yaxınlaşır və sonda elədiyi işi hər kəsin qarşısında etiraf etməyə məcbur edir, sonra isə nəcib fahişənin sevgisi onu mənəvi yüksəlişə çatdırır. " [3.] Burada obrazların real həyatının mənzərəsi onların mənəvi iztirablarının səbəbi olan mühit, insanların bir-birinə olan münasibəti, ictimai reallıqlardır. Roskolnikovun mənəvi əzabı həyatda yaşadığın hər anın onun üçün vahiməli, qorxunc, narahatlıqlarla dolu olması onun günahkar olması ilə bağlı idisə biz bu cinayətin baş verməsində əslində mühiti, cəmiyyəti daha çox günahlandırmalıyıq. Çünki insanı formalaşdıran, yetişdirən bu mühitdir, həmin mühitin qaydalarıdır. İnsanın mənəvi dərki prosesi mürəkkəb bir prosesdir. İnsanın hər hərəkəti və davranışı mühitdəki vəziyyət, insanın cəmiyyətdəki mövqeyinə əsasən qiymətləndirilərsə Roskolnikovu da bu həddə çatıran səbəblər var. Onun bu cinayəti törədərkən keçirdiyi psixoloju durum xüsusilə xarakterin özü tərəfindən müxtəlif vasitələrlə onun özünə bəraət qazandırılmasıdır ki, oxucu onun düşüncələri ilə hətta ortada cinayətin baş vermədiyinə belə inana bilər. Dostoyevski ilk dəfə olaraq personajın vicdan əzabını, psixoloji böhranını bütün həqiqətləri ilə bizə çatdırdı. Oxucu bir şəxsin mənəvi cəhətdən məhv olmasını, mənəvi ölümünü gördü. Dostoyevski cismani ölümlə mənəvi ölüm arasındakı təzadı bizə çatdırdı. Beləliklə, Rodionun ehtiyaclar içində olan həyatı qurtulmaq əvəzinə mənəvi böhran içində getdikcə lap uçurama yuvarlandı. Həmin böhrandan da o, ancaq özü çıxa bildi. F.M. Dostoyevski insan elminin zirvəsindədir. Dostoyevski şəxsiyyətin yeni, mənəvi ölçüsünü gördü və bu, dərhal onun nəzərdən keçirilməsinə tamamilə fərqli bir perspektiv verdi. O, bütün dünyada təkbaşına insan varlığının ən aşağı düşüşlərindən tutmuş ən böyük yüksəlişlərə qədər dolğunluğunu göstərməyi bacardı. Dostoyevski rus ədəbiyyatının həyatın mənəvi kontekstini açmaq və rus xalqının dünyagörüşünü yenidən formalaşdrmaq ənənələrinin bilavasitə davamçısı kimi rus ədəbiyyatının qızıl dövrünə qədəm qoydu. F.M. Dostoyevski incəliklə ruhun mürəkkəb hərəkətlərini tutmağa və təsvir etməyə, bədii yaradıcılıqda əks etdirməyə nail olmuşdur. Dostoyevskinin yaradıcılığının insan düşüncəsinə təsiri çox böyükdür. Dostoyevskinin fikrincə, hər bir insanın həyatı mənəvi qanunlara tabedir və bu mövqelərdən nəzərdən keçirilə bilər. Şəxsiyyət daxili mübarizəyə tabe olan ziddiyyətli irrasional varlıq kimi başa düşülür. Dostoyevskinin qəhrəmanları ən dərin gündəlik və mənəvi çöküşlər, böhranlar və iztirablar içindədir. Dostoyevskinin obrazlarının daxili aləmi çətin, ekstremal həyatda "parlayır", yazıçı xeyirlə şər arasındakı ağrılı mübarizəni göstərir, mənəvi seçimə sövq edir. İnsanlara məhəbbət şəxsiyyətin yüksək səviyyədə inkişafının əlaməti kimi başa düşülür. Əgər insanın ürəyi hamıya və hər şeyə məhəbbətlə doludursa, bu, ona dünya ilə harmoniya hiss etməyə imkan verir. Dostoyevskinin şəxsiyyət anlayışının orijinallığı onun əsərlərinin qəhrəmanlarının mənəvi yönümlü tipologiya çərçivəsində psixoloji portretlərinin nümunəsidir. Mənəvi cəhətdən zəngin, daxili ziddiyyətli və ya mənəvi kasıb insanlar mənəvi zəngin daxili vahid modelinə uyğun olaraq şəxsi varlığın dolğunluğunu özündə ehtiva edir. Bədii ədəbiyyat insan haqqında tükənməz bilik mənbəyidir. Bədii ədəbiyyat oxumaq mənalı ola bilər və olmalıdır, özünü tanıma təcrübəsini zənginləşdirir, həyatda öz yerimizi tapmağa kömək edir. Dostoyevskinin özəlliyi ilk növbədə onun rus şəxsiyyətinin realist mənzərəsini verməsi, dünyagörüşünü bədii vasitələrlə yenidən yaratması ilə bağlıdır. Onun daxili dünyası müxtəlifdir, lakin dünyagörüşünün zahiri ziddiyyətli təbiətinə baxmayaraq, harmoniya ehtiyacı, ziddiyyətlərin daha yüksək səviyyəli bütövlüyünə inteqrasiyası, daha çox mənəvi cəhətdən dərk edilməsi əlçatandır. Dostoyevskinin obrazları mənəvi dəyərlərini açıq şəkildə ortaya qoyur. Bəlkə də həyatın mənəvi kontekstinin ən parlaq təzahürü XIX əsr rus ədəbiyyatında ifadə edildi. Bu dövrdə yazıb yaradan bir çox yazıçıların adını çəkmək olar, bununla belə, Dostoyevskinin tükənməzliyi və dərinliyi misilsiz olaraq qalır.

Yaradıcılıq yaradıcının şəxsiyyətindən yüksək ola bilməz. Dostoyevskinin personajları onun daxili dünyasının müxtəlif cəhətlərini açır. Yazıçının əsərlərinin qəhrəmanlarının şəxsiyyət tiplərini təsvir etmək üçün çoxlu cəhdlər edilmişdir. Dostoyevskinin yaradıcılığının mənəvi prinsipinə uyğun olaraq, biz onun personajlarının mənəvi yönümlü tipologiyasını mənəvi cəhətdən zəngin, ruhən ziddiyyətli kimi qiymətləndiririk. Bu tipologiya üzrə həyatın müxtəlif aspektləri bir insan üçün əhəmiyyətli ola biləcəyi üçün hər bir növün bir çox xüsusiyyətləri var. Beləliklə, insanın həyat yolunun mənəvi mənasının yenidən qurulmuş konsepsiyasının əsas müddəalarına uyğun olaraq, F.M. Dostoyevski bizim tərəfimizdən bir çox mövqelərə görə xarakterizə oluna bilər. Ümumiləşdirsək insanın mənəvi aləminin ən dərin, müxtəlif mənalarda tədqiqatçısı, mənəvi aləm kontekstini reallıq üzərindən birləşdirib araşdıran böyük mütəffəkirdir.

ƏDƏBİYYAT

1. https://edebiyyat.az/proza/164-sveyq-dostoyevski-ve-onun-yaradiciligi-haqqinda.html
2. https://www.kitabyurdu.org/kitab/dunya-edebiyyati/1699-fmdostoyevski-cinayet-ve-ceza-eseri-ile-tanisliq-ve-mezmunu.html
3. https://kayzen.az/blog/edebiyyat/23200/vladimir-nabokov-dostoyevski-haqq%C4%B1nda.html

SINGING OF THE COLORFUL THEME, REALITY AND VITALITY ISSUE IN SAMAD VURGU'S POEM "I AM NOT IN A HURRY"

SƏMƏD VURĞUNUN “MƏN TƏLƏSMİRƏM” ŞEİRİNDƏ MÖVZU RƏNGARƏNGLİYİ, REALLIQ VƏ HƏYATİLİK MƏSƏLƏSİNİN TƏRƏNNÜMÜ

BALAKİŞİYEVA SVETLANA ARİF QIZI

Azərbaycan, Mingəçevir Dövlət Universiteti, Təhsil fakültəsi

ORCİD № 0000-0003-4886-8856

XX əsrin Azərbaycan ədəbiyyatının tanınmış şairlərindən olan Səməd Vurğun (1906-1956) öz yaradıcılığında insanın arzu-istəklərini, psixoloji reallığı, həyatilik məsələlərini böyük ustalıqla əks etdirmişdir. Şairin əsərləri dilinin axıcılığı və mövzu rəngarəngliyinə görə fərqlənir. Çoxəsrlik Azərbaycan ədəbiyyatında ədəbi məktəb yaratmaq şərəfi bir neçə böyük və qüdrətli sənətkarın adı ilə bağlıdır. Bu mənada Azərbaycan ədəbiyyatı tarixinin görkəmli simalarından biri olan Səməd Vurğun XX əsrdə Azərbaycanda ədəbi məktəb yaratmış qüdrətli sənətkar kimi qəbul olunur. Bu böyük söz ustadı Azərbaycan poeziyasını yeni mövzular, parlaq və bənzərsiz obrazlarla, milli və bəşəri ideyalarla zənginləşdirmişdir. Xalq şairi S.Vurğun ədəbiyyatda Azərbaycanın möhtəşəm obrazını yaratmışdır. S.Vurğunun dərin məzmunlu əsərlərinin timsalında vətənpərvərlik – azərbaycançılıq ideyaları milli ədəbiyyatın baş mövzusuna, əsas ideyasına çevrilmişdir. Eyni zamanda o, XX əsr Azərbaycan poeziyasında heca vəznli şeiri yüksək zirvəyə qaldırmış, şeirimizi poetik forma baxımından daha da zənginləşdirmişdir [1, s.4]. Ədəbi sənətkarın ömrünün son illərində yazdığı “Mən tələsmirəm” şeirində xəlqilik, həyatilik, reallıq - bir sözlə mövzu rəngarəngliyi diqqəti cəlb edir. Şeirin əsas mövzusunda həyata bağlılıq, yaşamaq, yaşatmaq istəyi, arzulamaq kimi nəcib hisslərin tərənnümünə yer verilmişdir. Şairin ömrünün sonlarında bu şeiri yazması heç də təsadüfi deyil. O sanki yaşının artdığını poetik dillə ağ vərəqlərə, misralara tökərək insanlara çağırış edir. Həyatla ölüm arasındakı məsafənin qısalığı şairi kədərləndirmiş, o, nisgilli hisslərini məhz bu şeirdə pafosla qələmə almışdır. Şairin bu qəbildən olan əsərinə “Şair, nə tez qocaldın sən”adlı şeirini də nümunə göstərmək olar. Hər iki şeirdə mövzu, məzmun oxşarlığı nəzərə çarpır. Səməd Vurğun xalqımızın dünya mədəniyyətinə bəxş etdiyi görkəmli şəxsiyyətlərdən biridir. O, mədəniyyət tariximizə Azərbaycan ədəbiyyatının klassiki, böyük şair və dramaturq, nəzəriyyəçi və ədəbi prosesin təşkilatçısı kimi daxil olmuşdur. Əlli illik ömrünün otuz ilini ədəbi yaradıcılığa həsr edən şair yüksək vətəndaşlıq poeziyasının əbədi yaşamaq hüququ qazanmış nümunələrini yaratmışdır [3, s.3]. “Mən tələsmirəm” şeirində kədər, qorxu, həyəcan, təşviş hissləri ilk planda dursa da, məna dərinliyində belə olmadığı diqqətə alınır. Şair şeirində “mən tələsmirəm” deməklə həyat eşqin qəlbinin coşub çağladığını, həyatı dərk etdiyini, çox şeyi görüb-götürdüyünü, bu dünyada saçını ağartdığını qələmə almağı məharətlə bacarmışdır. İlham pərisinin şairlə olması bu fikirləri daha obrazlı, emosional çalarlarla yazmağa kömək etmişdir. Bu şeiri oxuyanda düşünürsən ki, həyat, həqiqətən, onu sevənlərin, ondan ilhamlanan şəxslərindir. Dahi şair bu cəhətdən özünü şanslı hesab edir və həyata adi nəzərlərlə baxmırdı.

O, gördüklərindən sevinir, xoşbəxt olurdu.

Dostlar, badələri qaldırın içək!

Gecə ulduzludur, hava da sərin.

Demirəm məst olub dünyadan köçək.

Deyirəm mehriban düşüncələrin

İsti qucağında qızınaq bir az [2, s.224].

Şair misralarında gecənin uzanmasını, səhərin gecikməsini, məclisdəkilərin yuxuya getməməsini qeyd edərək hələ deyəcəklərinin çox olduğunu və danışmaqdan doymadığını dilə gətirir. Mətnaltı olaraq bu fikirlərində bir növ insanlara səslənən şair sözünün, fikirlərinin tükənməz olduğunu və nə qədər yazsa da, pozsa da, söz-söhbətinin bitməyəcəyini qeyd edir.

Qoy uzansın gecə, geciksin səhər,

Yuxuya getməsin məclisdəkilər.

Mənim söhbətimdən yorulmaq olmaz.

Hələ yer üstündə, insan yanında

Deyib danışmaqdan doymamışam mən... [2, s.224]

Şair həyatın insan üçün bütün yaşlarda şirin, mənalı, gözəl olduğunu vurğulayır, "təki ürəkdə həyat eşqi, arzuların bitib tükənməzliyi olsun" ideyasını irəli sürür. Ədəbi sənətkar sevgilisinə müraciət edərək bütün aləmi qol-qola gəzmək istədiyini, qorxmamağı, birlikdə heç yana tələsməməyi vurğulayır. Qeyd olunan fikirlərə əsasən S.Vurğunu "eşq şairi" də adlandırmaq olar. Bu misralarda həmçinin biz şairi nikbin biri olaraq tanıyırıq. O, şadlıq və qəmin ona heç nə edə bilməyəcəyini, sellərin, suların, şimşəyin belə onu yoldan döndərməyəcəyini mübaliğə və pafosla tərənnüm etmişdir. Bu fikri aşağıdakı kimi tərənnüm edir:

Sevgilim, qolunu boynuma dola!

Demə ki, yorğunam, ya qocalmışam.

Mən hələ dünyadan nə zövq almışam?

Dur, bütün aləmi gəzək qol-qola!

Yenə də fikrimin səyyar yelkəni

Dənizdən-dənizə atsa da, məni,

Qorxma! Ürəkdə de: "Uğurlar ola!"

Dur, bütün aləmi gəzək qol-qola.

Sellərdən, sulardan yeyin axsam da,

Şimşəklə yanaşı göydə çaxsam da,

Nə şadlıq səyirtsin atını, nə qəm,

Heç yana, heç yerə mən tələsmirəm! [2, s.224]

S.Vurğun milli ədəbiyyatda "təbiət şairi" olaraq da adlandırılır, tanınır. Onun həyatsevərliyi təbiətlə harmoniyası yaradıcılığında özünü daha qabarıq şəkildə göstərir. Şair hər zaman Azərbaycan təbiətini vəsf etməyə səy göztərmiş, buna fəxarətlə nail olmuşdur. "Mən tələsmirəm" şeirində də təbiətə vurğunluq, təbiət gözəllikləri ön planda verilmişdir.

Ədəbi sənətkar ovçu dostuna müraciət edərək onun da tələsməməsinə, təbiətdən, bu gözəllikdən zövq almasına çağırış edir. Ana təbiətə vurğunluq, həyatı sevmək, təbiətin ecazkar rəngarəngliyi şair üçün ötəri hiss deyil, şairin qəlbində vətənin hər otuna, çiçəyinə, təbiətinə uşaq səmimiyyəti ilə sevgi vardır.

Sən də, ovçu dostum, tələsmə sən də,

Bu qəlbi dağları qoy asta aşaq.

O çay yanındakı yaşıl çəməndə

Asta addımlayıb ağır dolaşaq.

Hər gülə, çiçəyə salam verməsəm,

Xoş üz göstərməsəm, xoş üz görməsəm,

Nanələr, reyhanlar inciyər məndən... [4]

Yaşı neçə olursa, olsun şeirin ədəbi qəhrəmanı çayın yavaş axmasını, buludun tez keçməməsini, hər zərrəyə, zirvəyə doyunca baxmağı özünə arzu edir. Şeirin motivindən də aydın olduğu kimi ədəbi qəhrəman elə şairin özüdür. Özünün qismində bütün insanlara bu gözəl dilək ləri arzu edir. Hər kəsin qəlbinin səsinə qulaq verməsini, ötərgi səsdən uzaq olmağı, bir anlıq yanan həvəsdən kənarda qalmağı diqqətə çatdırır.

Bulud tez keçməsin başımın üstdən,

Çay da yavaş axsın, sular boyunca.

Baxım hər zərrəyə, baxım doyunca...

Ürək tərpənməyir ötərgi səsdən,

Nə çıxar bir anlıq yanan həvəsdən? [2, s.225]

Şeirin finalı olduqca maraqlı bitir. Şair özünü ayağı sarıqlı bir quşa bənzətməklə kədərli, düşüncəli anlarında həmişə ona yoldaş olmuş qələminə üz tutaraq onun da tələsməməsini, zamanın uzanaraq hər şeyi əhatə etməsini, təsvir və tərənnüm dairəsini genişləndirdiyini yüksək ustalıq və məharətlə nəzərə çarpdırır. Bu misralar şairin-ədəbi qəhrəmanın həyatı doya-doya yaşamaq istəyinin poetik ifadəsidir. Necə vəziyyət yaranır yaransın ədəbi qəhrəman ağırlaşmadığını, yaşlanmadığını qeyd edərək şeirin mövzu rəngarəngliyini poetik dillə ifadə etmişdir.

Elə zənn etmə ki, ağırlaşmışam,

Ayağı sarıqlı şikəst bir quşam...

Qoy dünya böyüsün, zaman uzansın,

Bir günün içində aylarla yansın

Al günəş üzündən nur yağa-yağa...

Ömrün kitabını tamamlamağa

Çox da can atmasın əlimdə qələm,

Mən tələsmirəm!

Mən tələsmirəm! [2, s.225]

Yekun olaraq qeyd etməliyik ki, ədəbi sənətkar hələ sağlığında ikən ölməz əsərləri ilə reallığı, həyatiliyi, vətənpərvərliyi yüksək səviyyədə tərənnüm etmişdir.

Şeirdə şairin uzun müddət yaşamaq istəyi fikri fiziki yox, mənəvi, psixoloji anlamda dərk edilməlidir. Ustad şair bütün bunları vurğulayarkən taledən, ömrünün müxtəlif vaxtlarında gördüklərindən, yaşadıqlarından yazmaq, ömür kitabını yeni əsərlərlə, hadisələrlə rəngarəng şəkildə bəzəmək istəyirdi. Hər misranın təhlilinə, mətnaltı mesajlarına diqqət yetirsək, görərik ki, Səməd Vurğunun "Mən tələsmirəm" şeirində mövzu rəngarəngliyi, reallıq və həyatilik məsələsinin tərənnümü böyük ustalıqla, pafosla, ürəkdən gələn hisslərlə qələmə alınmışdır. Bu fikirlər, hisslər, arzular keçib gedən deyil, bitəcək deyil. Dahi şairimiz bir çox şeirlərində olduğu kimi bu şeirində də qələminə dilə gətirərək, söz sandığını açaraq fikrini çox sadə, anlaşıqlı, xəlqilik prinsipinə uyğun ifadə etmişdir. Şeirin məna və məzmun harmoniyası bu baxımdan bir-birini tamamlayır. "Mən tələsmirəm" şeiri hər yaş qrupundan olan şəxs üçün, oxucu kütləsi üçün maraqlı mesajlar verən bir poetik əsərdir və oxuduqca uzun müddət yaddaşlarda həkk olacaq misralarla zəngindir. Səməd Vurğun şeiri həyatın və cəmiyyətin ən incə düşüncələrini və uca fikirlərini əks etdirən böyük sənət nümunəsidir. O, Azərbaycan şeirində xəlqilik və romantika ilə böyük ideoloji mətləbləri birlikdə ədəbiyyatda canlandırmağın mümkünlüyünü yüksək səviyyədə nümayiş etdirmişdir. Böyük istedad, qanadlı ilham, dərin ictimai dünyagörüş, vətənpərvərlik və müasirlik Səməd Vurğun şeirinin ilham mənbələridir [1, s.27]. Nə qədər ki, Səməd Vurğun poeziyasının sevənləri, oxucuları var, onun ölməz əsərləri daim ağıllarda, qəlblərdə yaşayacaq, şairin qələminin ölməz əsərləri yaddaşlara həkk ediləcək.

Açar sözlər: təbiət, vətən, şair, həyat, gözəllik, ədəbiyyat, hiss.

İstifadə olunmuş ədəbiyyat:

1.Həbibbəyli İ. Akademik Səməd Vurğun Vəkilov. Bakı, "Elm", 2015.

2.Səməd Vurğun. Seçilmiş əsərləri. Beş cilddə, II cild, Bakı, "Şərq-Qərb", 2005, 248 səh.

3.Vəliyeva M., Tahirov K., Səfərəliyeva G., Səməd Vurğun: biblioqrafiya. M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Bakı, 2016, 584 səh.

4. "Mən tələsmirəm" şeirinin linki:

https://kayzen.az/blog/seirler_edebiyyat/17076/m%C9%99n-t%C9%99l%C9%99smir%C9%99m.html

ABSTRACT

Samad Vurgun (1906-1956), one of the well-known poets of Azerbaijani literature of the 20th century, skillfully reflected human desires, psychological reality, and vital issues in his works. The poet's works are distinguished by the fluency of his language and the variety of themes. In the poem "I am not in a hurry" written by the literary artist in the last years of his life, humanity, vitality, reality - in a word, the diversity of the subject attracts attention. The main theme of the poem is the glorification of noble feelings such as attachment to life, the desire to live, to live, and to wish. It is no coincidence that the poet wrote this poem at the end of his life. He calls out to people by pouring out his age on white pages and verses with poetic language. The shortness of the distance between life and death saddened the poet, he penned his relative feelings with pathos in this poem. An example of such a work of the poet is the poem "Poet, how old you are". Similarity of theme and content is noticeable in both poems. In the poem "I'm not in a hurry", it should be noted that although the feelings of sadness, fear, excitement and anxiety are in the foreground, they are not so deep in meaning. By saying "I'm not in a hurry" in his poem, the poet skillfully managed to write that the heart of life is full of love, that he understands life, that he has seen and experienced many things, and that his hair has turned white in this world.

The presence of the muse with the poet helped to write these ideas with more figurative and emotional tones. When you read this poem, you think that life really belongs to those who love it, those who are inspired by it. The genius poet considered himself lucky in this respect and did not look at life with ordinary eyes. He was happy with what he saw.

Friends, let's drink!

The night is starry and the air is cool.

I'm not saying to get drunk and leave the world.

I say your kind thoughts

Warm up a little in your warm embrace.

Let the night be late, let the morning be late,

Do not go to sleep, those in the assembly.

You can't get tired of my talk.

Still on the ground, next to people

I'm not tired of talking...

The poet emphasizes that life is sweet, meaningful and beautiful for a person at all ages, and puts forward the idea that "only in the heart should there be love of life, endless dreams". He glorifies this idea in his verses as follows:

What have I yet enjoyed in the world?

Stop, let's travel the whole world arm in arm!

S. Vurgun is also known as "nature poet" in national literature. His love of life and harmony with nature manifests itself more prominently in his work. The poet has always tried to praise the nature of Azerbaijan, and he achieved it with pride. In the poem "I'm in no hurry" emphasis on nature and natural beauty are given in the foreground. The literary artist appeals to his hunting friend not to hurry and to enjoy nature and this beauty. Emphasis on mother nature, love of life, the wonderful variety of nature is not a sentiment for the poet, the poet has love for every herb, flower, and nature of the homeland with childlike sincerity.

You too, my hunter friend, don't hurry either,

Let's let the mountains of this heart fall down.

In the green meadow by the river

Let's walk slowly.

If I don't say hello to every rose and flower,

If I don't show a good face, if I don't see a good face,

Mints and basils are annoying to me...

Keywords: nature, motherland, poet, life, beauty, literature, feeling.

Literature used:

1.Habibbayli I. Academician Samad Vurgun Vakilov. Baku, "Elm", 2015.

2. Samad Vurgun. Selected works. In five volumes, volume II, Baku, "East-West", 2005, 248 pages.

3. Valiyeva M., Tahirov K., Safaraliyeva G., Samad Vurgun: bibliography. Azerbaijan National Library named after M.F. Akhundov, Baku, 2016, 584 pages.

4. Link to the poem "I'm not in a hurry": https://kayzen.az/blog/seirler_edebiyyat/17076/m%C9%99n-t%C9%99l%C9%99smir%C9%99m.html

ÖZET

20. yüzyıl Azerbaycan edebiyatının tanınmış şairlerinden Samad Vurgun (1906-1956), insani arzuları, psikolojik gerçekliği, yaşamsal konuları eserlerinde ustalıkla yansıtmıştır. Şairin eserleri dilinin akıcılığı ve konu çeşitliliği ile öne çıkmaktadır. Edebiyatçının hayatının son yıllarında yazdığı “Acelem yok” şiirinde insanlık, canlılık, gerçeklik – kısacası konunun çeşitliliği dikkat çekmektedir. Şiirin ana teması hayata bağlılık, yaşama arzusu, yaşama isteği, dileme gibi asil duyguların yüceltilmesidir. Şairin bu şiiri ömrünün sonlarında yazması tesadüf değildir. Çağını beyaz sayfalara, mısralara şiirsel bir dille dökerek insanlara sesleniyor. Yaşamla ölüm arasındaki mesafenin kısalığı şairi üzmüş, bu şiirinde göreceli duygularını acıklı bir şekilde kaleme almıştır. Şairin böyle bir eserine örnek olarak "Şair, kaç yaşındasın" şiiri verilebilir. Her iki şiirde de konu ve içerik benzerliği göze çarpmaktadır.

“Acelem yok” şiirinde üzüntü, korku, heyecan ve kaygı duyguları ön planda olsa da anlam bakımından bu kadar derin olmadıklarını da belirtmek gerekir. Şair, şiirinde "Acelem yok" diyerek, hayatın kalbinin aşkla dolu olduğunu, hayatı anladığını, pek çok şey gördüğünü, yaşadığını, saçlarının döküldüğünü ustalıkla yazmayı başarmıştır. bu dünyada beyaza döndü. Şairin yanında ilham perisinin bulunması bu fikirlerin daha mecazi ve duygusal tonlarla yazılmasına yardımcı olmuştur. Bu şiiri okuduğunuzda hayatın aslında onu sevenlere, ondan ilham alanlara ait olduğunu düşünüyorsunuz. Dahi şair bu açıdan kendini şanslı saymış ve hayata sıradan gözlerle bakmamıştı. Gördüklerinden memnundu.

Arkadaşlar, hadi içelim!

Gece yıldızlı ve hava serin.

Sarhoş olup dünyayı terk edin demiyorum.

senin güzel düşüncelerini söylüyorum

Sıcak kucağında biraz ısın.

Gece geç olsun, sabah geç olsun,

Uyumayın, mecliste bulunanlar.

Konuşmamdan bıkamazsın.

Hala yerde, insanların yanında

Konuşmaktan yorulmuyorum...

Şair, hayatın her yaşta insan için tatlı, anlamlı ve güzel olduğunu vurgulayarak, "ancak kalpte yaşama sevgisi, sonsuz hayaller olmalıdır" fikrini ortaya koyar. Bu düşüncesini ayetlerinde şöyle yüceltmektedir:

Dünyada şimdiye kadar nelerden keyif aldım?

Durun, bütün dünyayı kol kola dolaşalım!

S. Vurgun, milli edebiyatta "doğa şairi" olarak da anılır. Yaşama sevgisi ve doğayla uyumu eserlerinde daha da belirginleşiyor. Şair her zaman Azerbaycan'ın tabiatını övmeye çalışmış ve bunu da gururla başarmıştır. "Acelem yok" şiirinde doğaya ve doğal güzelliklere vurgu ön planda tutulmuştur. Edebiyatçı, avcı arkadaşına acele etmemesini, doğanın ve bu güzelliğin tadını çıkarmasını rica eder. Tabiat anaya, yaşama sevgisine, tabiatın muhteşem çeşitliliğine vurgu şaire göre bir duygu değildir; şair memleketin her bitkisine, çiçeğine, tabiatına çocuksu bir içtenlikle sevgi duyar.

Sen de avcı dostum, acele etme,

Bırakalım bu yüreğin dağları yıkılsın.

Nehrin yanındaki yeşil çayırda

Yavaş yavaş yürüyelim.

Her güle, her çiçeğe merhaba diyemezsem,

Eğer iyi bir yüz göstermezsem, iyi bir yüz göremezsem,

Nane ve fesleğen beni rahatsız ediyor...

Anahtar kelimeler: tabiat, vatan, şair, hayat, güzellik, edebiyat, duygu.

Kullanılan literatür:

1. Habibbeyli İ. Akademisyen Samad Vurgun Vakilov. Bakü, "Karaağaç", 2015.

2. Samad Vurgun. Seçilmiş işler. Beş cilt, cilt II, Bakü, "Doğu-Batı", 2005, 248 sayfa.

3. Valiyeva M., Tahirov K., Safaraliyeva G., Samad Vurgun: kaynakça. Azerbaycan Milli Kütüphanesi M.F. Ahundov, Bakü, 2016, 584 sayfa.

4. "Acelem yok" şiirinin bağlantısı:

https://kayzen.az/blog/seirler_edebiyyat/17076/m%C9%99n-t%C9%99l%C9%99smir%C9%99m.html

PROSE AND DRAMATURGY OF NAMIG KAMAL
NAMİQ KAMALIN NƏSR VƏ DRAMATURGİYASI

Prof. Dr. ELMAN QULİYEV

Azərbaycan, Bakı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Türkoloji mərkəzin Türk ədəbiyyatı bölməsinin müdiri
Orcid: 0000-0001-5413-9479

ÖZET

Namiq Kamal yaradıcılığında dram əsərlərinin xüsusi yeri vardır. Ədib ədəbi janr kimi sənətdə dram əsərlərinin yerini və təsir dairəsini yüksək qiymətləndirmişdir. Hələ Parisdə olarkən Namiq Kamal atasınayazdığı məktubların birində bu barədə fikirlərini belə ifadə edirdi: “Bir millətin gözəl söyləyiş qüdrəti ədəbiyyatında, ədəbiyyatın da ən canlı ifadəsi dram əsərlərində bəlli olur.’’Namiq Kamal Tənzimat ədəbiyyatının tələblərinə uyğun olaraq yaradıcılığında roman janrına da yer vermişdir.Cəmi iki roman “İntibah”(1876) və “Cəzmi” (1880) yazmasına baxmayaraq, onun romanları türkədəbiyyatında özündən əvvəlki və özündən sonrakı romanlara nisbətənorijinallığı ilə seçilir.

Anahtar kelimeler: N.Kamal, nəsr, dram, roman, milli

ABSTRACT

Drama works have a special place in Namig Kamal's creativity. Adib highly appreciated the place and influence of drama works in art as a literary genre. While he was still in Paris, Namig Kemal expressed his thoughts about this in one of the letters he wrote to his father: "The power of beautiful speech of a nation is evident in literature, and the most vivid expression of literature is in drama works." Despite the fact that he wrote only two novels, "Renaissance" (1876) and "Cazmi" (1880), his novels are distinguished by their originality compared to the novels before and after him in Turkish literature.

Key words: N. Kamal, prose, drama, novel, national

GİRİŞ

Namiq Kamal Türk ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, qələmini həm nəzm, həm nəsr, həm də dramaturgiya sahəsində sınamış və möhtəşəm sənət nümunələri ərsəyə gətirmişdir. Namiq Kamal Tənzimat ədəbiyyatının tələblərinə uyğun olaraq ya-radıcılığında roman janrına da yer vermişdir. Cəmi iki roman “İntibah”(1876) və “Cəzmi” (1880) yazmasına baxmayaraq, onun romanları türkədəbiyyatında özündən əvvəlki və özündən sonrakı romanlara nisbətənorijinallığı ilə seçilir. Məsələn, prof.dr.Mehmet Kaplan yazır ki, “Na- miq Kamalın türk romanına gətirdiyi ən mühüm ünsürlərdən biri “İnti- bah”da çeşidli örnəkləri olan ruh təhlillərinin verilməsindədir”. “İntibah” Namiq Kamalın ilk romanıdır. Əsəri müəllif Maqosda olarkən yazmışdır. Əsərin mövzusu ailə-məişət və sosial problemlər zə-minindədir. Müəllif ilk olaraq əsəri “Son peşmanlıq” adı ilə qələmə alsa da, sonralar əsər “İntibah” şəklində çap olunmuşdur. Əsərin əsas qəhrə-manı Əli bəydir. Hadisələr onun ətrafında cərəyan edir. Atası öldükdənsonra Əli bəy anası ilə tək qalır. Əli bəy darıxır. Onu darıxmamaq üçünişə göndərsələr də, bu iş onun mənəvi sarsıntılarına son qoymur.

Təsa-düfən o, Mahpeykər adlı düşgün, pozğun bir qadınla tanış olur. HiyləgərMahpeykər ilk andan onu öz toruna sala bilir. Əli bəy düçar olduğu mənə-vi sarsıntılara sanki son qoyulduğunu zənn edir və bu qadınla evlənir. La-kin dostlarının köməyi ilə bu qadının kimliyini bildikdən sonra Əli ana-sının yanına gəlir. Mahpeykərin hiyləsi nəticəsində uzun müddət anasınıunudan və onun yanına gəlməyən Əli bəyin bu gəlişi ana üçün çoxdan gözlədiyi planı həyata keçirməyə şərait yaradır. Ana oğlunu Mahpeykər- dən uzaqlaşdırmaqda yeganə yol kimi onu bir başqası ilə evləndirməkdəgörür. O, Dilaşup adlı bir cariyə ilə oğlunu evləndirir. İntiqam hissi iləyaşayan Mahpeykər Dilaşupun namussuz, əxlaqsız olduğu barədə iftira- lar uydurur. Gənc Əli bəy bunlara inandığı üçün Dilaşupdan uzaqlaşır.Dilaşupu bir şəxsə satırlar. Qəlbi intiqam almaqdan ötrü od püskürən Mahpeykər Dilaşupu həmin şəxsdən satın alır və ona olmazın işgəncələrverir. Lakin mətin və məsum qız bunlara dözür. Mahpeykər isə bununlakifayətlənməyib Əli bəyi öldürtmək qərarına gəlir. Bunu eşidən Dilaşup

YÖNTEM

Əli bəyin nahaq ittihamlarının qurbanı olsa da, ona olan daxili sevgi vərəğbəti sayəsində ərini – Əli bəyi xilas etmək istəyir. Mahpeykərin qur-duğu plana görə Əli bəy gecə evə gedərkən öldürülməli idi. Lakin Əli bəy hadisədən xəbər tutduğu üçün buradan qaçır və onun qaçdığı zamanyerə atdığı paltoya bürünən Dilaşup xüsusi tutulmuş qatil tərəfindən Əlibəy sanıldığı üçün öldürülür. Hadisə yerinə qayıdan Əli bəy Dilaşupu ölüm ayağında qolları arasına alaraq, etdiyi səhvləri anlayır, lakin hər şeyin gec olduğunu da başa düşür. Qəzəblənmiş Əli bəy Mahpeykəri öl-dürür. Həbsxanaya düşən Əli bəy 6 ay sonra məhbəsdə vəfat edir. Real hadisələri əks etdirən roman yüksək təsirə malikdir. Müəllif Əli bəyin timsalında öz həyatını düzgün qura bilməyən, etdiyi səhvlərigec də olsa başa düşdükdən sonra, yeni həyata qayıdarkən məhv olan gənclərin faciəsini vermişdir. Eyni zamanda müəllif cəmiyyətdə özünügöstərən sosial qeyri-bərabərlik, etik-əxlaqi qüsurlar və s. məsələlərə dəöz münasibətini bildirmişdir. “Cəzmi” tarixi roman kimi qələmə alınmışdır. Müəllif əsəri iki cild-də yazmağı planlaşdırsa da, yalnız birinci cildi yaza bilmişdir. Romanınmövzusu İran-Türk müharibəsindən götürülmüşdür. Əsərin əvvəlində II Sultan Səlim zamanında İranla gedən müharibədən söhbət açılır. Bumüharibədə igidlik göstərən Cəzmi komandan Osman Paşanın rəğbətiniqazanır. Döyüşdə Adil Gəray və onun qardaşı Qazi Gəray düşmənə əsirdüşür. İran şahının arvadı Şəhriyar Adil Gəraya aşiq olur. Eyni zamandaşahın bacısı Pəri xanım da Adil Gəraya öz eşqini bildirir. Pəri xanımınhəm gözəl, həm də sünnü məzhəbə mənsub olması Adil Gərayın ona olan məhəbbətini daha da artırır. Bunu bilən Şəhriyar vəzir Süleymanlahəm Adil Gərayı, həm də Pəri xanımı öldürməyi planlaşdırır. Adil Gə-ray kömək məqsədilə Cəzminin İrana gəlməsini arzulayır. Cəzmi bir dərviş libasında İrana gəlir.Cəzmi onları xilas edərkən yaralanır, Adil Gəray və Pəri xanım qəhrəmancasına ölür. Cəzmi bu döyüşdə yaralansada, onları dəfn edir və Türkiyəyə qayıdır.

BULGULAR

Müəllif əsərdə məsələlərə qəhrəmanlıq, igidlik və s. Prizmasından yanaşaraq qarşıya qoyduğu problemləri həll etmiş, vətən sevgisinin, yurd sevgisinin hər şeydən üstün olduğunu önə çəkmişdir. Namiq Ka- mal bu əsərdə özünün “dünyaya gəliş hünər deyildir” məşhur fikrini xatırladaraq, əsl hünərin isə dünyaya gəlib ad qazanmaq, şücaət göstər- mək olduğunu təsdiqləmişdir. Namiq Kamal yaradıcılığında dram əsərlərinin xüsusi yeri vardır. Ədib ədəbi janr kimi sənətdə dram əsərlərinin yerini və təsir dairəsini yüksək qiymətləndirmişdir. Hələ Parisdə olarkən Namiq Kamal atasınayazdığı məktubların birində bu barədə fikirlərini belə ifadə edirdi: “Birmillətin gözəl söyləyiş qüdrəti ədəbiyyatında, ədəbiyyatın da ən canlı ifadəsi dram əsərlərində bəlli olur.’’ “Vətən, yaxud Silistrə” (1873), “Gülnihal” (1873), “Zavallı cocuq”(1873), “Akif bəy” (1874), “Cəlaləddin Xarəzmşah” (1885), “Qara bəla” (1885) kimi dram əsərləri Namiq Kamalın dramaturgiya ilə cid- di məşğul olduğunu göstərir.

Dramaturq bu əsərlərdə tarixi hadisələrə, millət və vətən sevgisi problemlərinə yer ayırmış, ilk növbədə milli təfəkkür prizmasından hadisələri dəyərləndirmişdir. "Vətən, yaxud Si-listrə" müəllifin ilk dram əsəridir. Əsl adı "Vətən" olsa da senzura tərə-findən icazə verilmədiyinə görə əsərin adı dəyişdirilmiş və "Silistrə" adı ilə yayımlanmışdır. Lakin sonralar "Vətən, yaxud Silistrə" şəklindəçap olunmuşdur. Pyes 4 pərdədən ibarətdir. Əsərin mövzusu 1828 və 1853-cü illər türk-rus müharibələrində baş vermiş hadisələrdən götürül- müşdür. Lakin pyesin əsas mövzusunu 1853-cü il Krım uğrunda ruslar-la türklər arasında gedən müharibə təşkil edir. Silistrə bugünkü Bolqa-rıstanda Dobruca bölgəsində yerləşir. 1388-ci ildə türklər tərəfindən fəth edilmiş bu ərazilər 1853-cü ildə rus ordusunun hücumuna məruz qalmışdır. Namiq Kamal bu əsərlə bağlı belə yazır: "Mənim yapdığım şey Rumelində cənnətməkan Sultan Mahmud xan zamanındakı Şumnumühasirəsində söylənən bir hekayəni Krım savaşı zamanında baş ver- miş Silistrə müharibəsinə nəql etməkdir. Bunu yazmaqda məqsəd mil-lətdəki vətəni hissləri təsvir etməkdir". Tarixdən məlumdur ki, 1853- cü il türk-rus müharibəsinin ən qanlı döyüşlərindən biri Silistrə qalası uğrunda getmişdir. Türklər Musa Hulusu Paşanın komandanlığı altında Silistrə qalasını 6 minlik qoşun ilə 41 gün müdafiə etmiş, döyüşlərdə 3min şəhid vermişlər. Ruslar isə Silistrə qalasının müdafiəsində 12 ge- neral, 15 min əsgər itirmişlər. Bu döyüşdə həmçinin rus ordusunun 20 min əsgəri yaralanmış, çoxlu cəbhəxanası məhv edilmişdir. Türk qəh rəmanlıq salnaməsində yeri olan Silistrə döyüşündə igidlik göstərən, vətən naminə canını oda atan türk oğul və qızlarının mədh edilməsi Namiq Kamalın "Vətən, yaxud Silistrə" əsərində ən yüksək formada bədii əksini tapmışdır. "Vətən, yaxud Silistrə" pyesinin əsas qəhrəmanlarından biri İslam bəydir. Əsərdəki obrazların bir çoxu tarixdə yaşamış şəxsiyyətlərdir. Məsələn, tarixi şəxsiyyət olan Mustafa bəy əsərdə Abdulla çavuş kimi təqdim olunur. Və yaxud Silistrə döyüşünə 120 könüllü ilə birlikdə gələn İslam bəyin qəhrəmanlığı da tarixi gerçəklik zəminində əks et- dirilmişdir. O cümlədən, Namiq Kamal Qarsda olarkən nişanlısının ardınca müharibəyə gəlmiş və şəhid olmuş bir qızın cənazəsini gör- müş, həmin qızın obrazını Zəkiyənin timsalında canlandırmışdır. Bəlkəbuna görədir ki, müəllif əsərdə türkün qəhrəmanlıq və şücaətini tək-cə bir obrazla - İslam bəylə bağlamır. Əsərdəki Sidqi bəy və Zəkiyə xanım obrazlarını da dramaturq İslam bəyin timsalında ortaya atdığı ideyaların daşıyıcıları kimi təqdim edir. Əsərin maraqlı bir məzmunuvardır. Vətənin ağır günündə İslam bəy döyüşə gedir və onu sevən şəx-sin arxasınca gəlməsini arzu edir: "Qardaşlar!.. Mən savaşa gedirəm. İstəyənlər yanıma gəlsin. Qurşundan, güllədən qorxmuram, qorxanlar qarılarının yanında otursun. Mümkün olsa, bütün vətən qardaşlarıma bu zəif vücudumu sipər edəcəyəm, köksüm parça-parça olmadıqca bir daşına kimsənin əli toxunmayacaq. Biz vətəni qoruyacağıq... Allah da bizi qoruyacaq...". İslam bəy Silistrə uğrunda gedən ölüm-dirim döyüş-lərinin iştirakçısı olur və düşmənə qan uddurur. Qəhrəmanlıq sorağı ilkgünlərdən bütün döyüş bölgələrinə yayılır. İslam bəy döyüşə getdik- dən sonra Zəkiyə də qiyafəsini dəyişərək kişi libasında Silistrəyə gedir.Döyüşlərdə Silistrənin qala komandiri həlak olur. Onu Sidqi bəy əvəz edir. Sidqi bəy bundan əvvəl müharibədə ölümə məhkum edilmiş bir dostunu öldürməkdən imtina etdiyi üçün vəzifədən çıxarılmış, rütbəsi aşağı endirilmişdir. Buna görə o, ailəsinin yanına getməyi özünə təhqirsaymış, itkin düşməsi haqda yalan xəbəri yayaraq başqa bir adla sıraviəsgər kimi yenidən müharibədə iştirak etmək üçün Silistrəyə gəlmişdir.Bu böhranlı anda o, arvadı və oğlunun ölümü, qızının isə itkin düşməsibarəsində məlumat alır. Məlumat onu xeyli kədərləndirir. Lakin bu xəbərlər onu kədərləndirsə də, döyüş əzmini zəiflətmir, əksinə, düşmənə olan nifrətini daha da artırır. Növbəti əməliyyat zamanı düşmən cəbhəxanasını partlatmağa ge- dən İslam bəy, Abdulla çavuş, Zəkiyə, Sidqi bəy xüsusi qəhrəmanlıq göstərirlər. Əməliyyatdan sonra Zəkiyənin qolları arasında özünə gələnyaralı İslam bəy Zəkiyəni tanıyır, o cümlədən Sidqi bəy də Zəkiyənin onun qızı olduğunu öyrənir. Bu sonluqla müəllif əsərdə səadətini tapan şəxslərdən çox, düşmənə zərbə vurub zəfərlər qazananların obrazını canlandırır. Namiq Kamal beş pərdəli "Gülnihal" dramını 1873-cü ildə Maqosdayazmışdır.

Zülm və istibdad əleyhinə yazılmış bu əsərin əsl adı könül- dəki sirr mənasını verən "Razi-dil" olmuşdur. Əsərdə müəyyən obrazlar silsiləsində müəllif iki müxtəlif qütbün-zülmün və istibdadın, azadlıq vəxeyirxahlığın konturlarını müəyyənləşdirir. Qaplan paşa zülmün, Mux-tar bəy isə azadlıq və xeyirxahlığın rəmzi kimi çıxış edir. Zülmkarlığı ilə ad çıxarmış Qaplan paşa insanların bütün haqlarını tapdamış, işıqlı düşüncə adamlarına hər cür zülm etməkdən çəkinməmişdir. İş o yerə çatır ki, o, əmisi oğlu Muxtar bəyin sevgilisini əlindən almağa çalışır və bu iyrənc niyyətini həyata keçirmək üçün onu zindana salmağı əmr edir. Muxtarın sevgilisi İsmət bunlara etiraz etsə də bunun nəticəsi ol- mur. Lakin Gülnihalın köməyi hər şeyi dəyişə bilir. O, əvvəlcə öz ağıllıməsləhətləri ilə Muxtar bəyi zindandan azad etdirir. Muxtar bəy vilayət mərkəzinə gedir. Qaplanın hərəkətləri barədə məlumat verir. Quberna-tor Qaplanın edamı barədə fərman verir. Lakin hələlik bunlardan, dahadoğrusu, Muxtar zindandan qaçması və qubernatorla görüşməsindən xəbəri olmayan Qaplan öz işindədir. Bu vaxt onun qeyri-insani hərəkət-lərinə etiraz edən Gülnihal Qaplan tərəfindən xəncərlə öldürülür. Ha- disə yerinə Muxtar bəy gəlir. O, qəzaya hakim seçilir. Qaplan öldürülür.Əsər belə bir sonluqla tamamlanır. Müəllif xalq hakimiyyəti tərəfdarı kimi çıxış edir, xalqın istiqlal, xoşbəxtlik arzularının həyata keçməsi- ni tərənnüm edir. Bu məqsədlə də xalq tərəfindən sevilən və seçilən Muxtar bəyin hakimiyyəti illərində insanların həyatının yaxşılaşmasını,ədalətli idarəçiliyi ön planda təqdim edır. Faciə kimi qələmə alınan 3 pərdəli "Zavallı cocuq" əsəri ailəməişət mövzusundadır. Buna baxmayaraq, müəllif bu fonda sosialməsələlərə toxunur, cəmiyyətdə baş verən ictimai ədalətsizliyi, pulun oynadığı eybəcər rolu və s. əsas tənqid obyektinə çevirir. Namiq Ka- mal "Zavallı cocuq" əsərində 14 yaşlı zavallı Şəfiqənin görmədiyi, sevmədiyi bir kişiyə ərə verilməsini təsvir edir və onun faciəsini də həmin hadisə ilə bağlayır. Müəllif əsərdə bir-birinə əks xətlərdə da- yanan obrazların timsalında təsvir etdiyi əhvalat və hadisələrin ma- hiyyətini tam açıqlaya bilir. Şəfıqəni sevən gənc oğlan Ata onunla bağladığı əhd-peymana sa- diq qalaraq tibb məktəbini bitirdikdən sonra ailə qurmaq ümidi ilə geriqayıdır. Lakin görür ki, Şəfıqə borc əvəzi olaraq atasının borclarını ödəyən varlı bir şəxsə ərə verilib. Şəfiqənin başqasına ərə verildik- dən sonra onun vərəmlədiyinə, ölüm yatağında olduğuna dözməyən Ata zəhər içərək ölür. Bu hadisədən sonra Şəfıqə də dünyasını dəyişir. İki gəncin saf məhəbbət faciəsini göstərməklə dramaturq cəmiyyətdə hökm sürən qeyri-əxlaqi normalara, pul hökmranlığına etiraz edir.

SONUÇ

Namiq Kamalın "Akif bəy" faciəsi də bir növ ailə-məişət möv- zusunda yazılmışdır. Lakin müəllif burada "Zavallı cocuq''dan fərqli olaraq əxlaqsız bir qadının həm cəmiyyətdə, həm də ailədə oynadığı pozucu rolunun təsvirini ön plana çəkmişdir. Əsərin qəhrəmanı Akif bəy dəniz süvarisidir. Vətənini və xalqını canından da artıq sevən bu gənc böyük arzularla yaşayır. O, Dilruba adlı bir qızla ailə qurur. İlk baxışdan gözəl və ismətli görünən bu qadın, əslində pozğun həyat yaşa-yan, namus və ismətdən uzaq olan bir gəncdir. Rus donanması ilə türk donanmasının dəniz savaşları zamanı Akif bəyin gəmisi partladılır və o, təsadüfən bir gəmi taxtası üzərində sahilə çıxaraq xilas olur. Lakin onu hamı ölmüş bilir. Dilruba onun şəhid olduğunu sübut edən bir saxtasənəd düzəldərək Əsəd adlı bir başqasına ərə gedir. Akif bəy yaşadığı yerə gəlir. Bütün əhvalatları təfsilatı ilə öyrənir və Dilruba ilə Əsədin yaşadığı evə gedərək Dilrubanı öldürmək istəyir. Güllə Dilrubanın qar-şısına keçən Əsədə dəyir. Əsəd ölüm ayağında Akifi xəncərlə vurur. Hadisə yerinə gələn Akif bəyin atası Dilrubanı öldürür. Əsərin məzmunu ilə tanışlıq faciədə hadisələr daxilində qəhrəmanlıqruhunun, vətən sevgisinin böyüklüyünü bir daha nümayiş etdirir. Namiq Kamalın tarixi mövzuda qələmə aldığı "Cəlaləddin Xarəz- mşah" dramı Xarəzmşahlar dövlətinin hökmdarı Cəlaləddinin həyatı vəsiyasi fəaliyyətindən bəhs edir. Sırf vətənpərvərlik, qəhrəmanlıq ruhun-da yazılan bu əsərdə Cəlaləddin Xarəzmşahın monqol istilası dövründədüşmənə qarşı mübarizəsi əsərin ana xəttini təşkil edir.

Namiq Kamalın "Qara bəla" adlı son pyesi uzaq Hindistanda Ba- birlər sarayında baş verən əhvalatlardan bəhs edir. Hökmdar qızı Banu nişanlısı Xosrovla gələcək səadətləri barədə düşünür. Lakin qara bir zəncinin Banunun namusuna toxunması qızın zəhər içib özünü öldürməsi ilə nəticələnir. Bunu eşidən Xosrov əvvəl zəncini, sonra isə özünüöldürür. Ümumiyyətlə, bu əsəri türk ədəbiyyatşünasları N.Kamalın ən zəif əsəri hesab edir və bunun səbəbini isə əsəri yazarkən "N.Kamalın Maqosda zindan böhranları içərisində maddi və mənəvi baxımdan zəif düşdüyü vaxta" təsadüf etməsi ilə əlaqələndirirlər. Namiq Kamal türk ədəbiyyatı tarixində təkcə qüdrətli şair, nasir vədramaturq kimi yox, həm də böyük tədqiqatçı-alim kimi tanınmışdır. Onun tarixi mövzuda yazdığı "Böyük İslam tarixi", "Silistrə müharibə-si", "Osmanlı tarixi", "Əfkari-pərişan" və s. əsərləri istər türk, istərsə də İslam tarixinin tədqiqi və öyrənilməsi sahəsində əvəzsiz mənbədir.

KAYNAKLAR

1. Namiq Kamal. Vətən, yaxud Silistrə. İstanbul, 1969.
2. Namiq Kamal. Zavallı cocuq. İstanbul, 1940.
3. Namiq Kamal. Əsərləri, 3 cilddə. İstanbul, 1957.
4. Namiq Kamal. Həyatı və şeirləri. İstanbul, 1995.
5. Namiq Kamal. Doğumunun yüz əllinci ilində, Ankara, 1993.
6. Namiq Kamal. İntibah, İstanbul, 1996.

PROBLEMS OF TURKISH LITERATURE IN TEXTBOOK "GULZAR" (1912) BY A. SHAIG
ABDULLA SHAIG'IN "GÜLZAR" (1912) DERS KITAPINDA TÜRK EDEBIYATININ SORUNLARI

GÜNEL YUNUSOVA

Dr., Azerbaycan Milli İlimler Akademisi`ne bağlı

Z.Bünyadov adına Şarkiyat Enstitüsü`nün dissertantı

Orcid İD 0000 0002 2375 2829

Özet

Abdulla Shaig'in "Gülzar" (1912) adlı eseri 20. yüzyılın başlarında okul ders kitaplarımızda önemli bir yer tutar. Bu ders kitapındaki materyallerin önemli bir kısmını türk edebiyatından örnekler oluşturmaktadır. Bu örnekler makalede ele alınmıştır. Sovyet döneminde siyasi otoriteler nezdinde Türkiye'ye yönelik kötü tutum nedeniyle bu örneklerin analizinin ve tanıtımının ihmal edildiği gösterilmektedir. Ancak o dönemde okuyan gençlerimizin büyük bir kısmı bu tür çalışmalarla zenginleşti. Makalede söz konusu ders kitapında yer alan türk edebiyatı örneklerinin kapsamı belirlenmekte, ideolojik ve sanatsal özellikleri tartışılmaktadır. Bu eserlerin genç neslin eğitimindeki rolüne de dikkat ediliyor. Makalede ayrıca söz konusu ders kitapında yer alan Osmanlı yazar ve şairlerinin eserlerinin Azerbaycan edebiyatına etkisine de değinilmektedir.

Makalede hakkında konuşulan sanatçıların "yetişkinler için" yazdıkları eserlerden farklı olarak çocuk şiirlerinin dilinin oldukça sade, yerel dile yakın, arapça-farsça kelime ve sıfatlardan uzak olduğu gösterilmektedir. Bu eserler içerik ve fikir, ruh, eğitim-ahlaki, sanatsal-estetik değerler açısından üst düzey ve dikkat çekicidir.

Anahtar kelimeler: A. Shaik, "Gülzar", 20. yüzyılın başı, ders kitabı, Türk edebiyatı

Abstract

Abdulla Shaig's work "Gulzar" (1912) occupies an important place in our school textbooks at the beginning of the 20th century. An important part of the materials in this textbook is made up of examples from Turkish literature. These examples are discussed in the article. It is shown that the analysis and promotion of these examples were neglected due to the bad attitude towards Turkey by the political authorities during the Soviet period. However, a large part of our young people studying at that time became rich with such works. In the article, the scope of examples of Turkish literature included in the textbook is determined, ideological and artistic features are discussed. Attention is paid to the role of these works in the education of the younger generation. The article also mentions the impact of the works of Ottoman writers and poets on Azerbaijani literature, which are included in the textbook. It is shown that the language of children's poems is quite simple, close to the local language, far from Arabic-Persian words and adjectives, unlike the works written "for adults" by the artists discussed in the article. These works are high-level and remarkable in terms of content and thought, spirit, educational-moral, artistic-aesthetic values.

Keywords: A. Shaik, "Gulzar", the beginning of the 20th century, textbook, Turkish literature.

Giriş:

20. yüzyılın başlarında okul ders kitaplarımızda Osmanlı yazar ve şairlerine daha fazla yer verilmiştir. O dönem ders kitablarımızda Türk sanatçıların yüzlerce eseri ve onlara ait bilgiler bulunmaktadır. 20. yüzyılın başlarında bu eserler, okul masası arkasında oturan bütün bir milli aydın neslinin eğitiminde, fikirlerinin rönesansında, sanat-estetik zevklerinin, vatan, millet ve devletçilik, sanat sevgisinin oluşmasında eşsiz bir rol oynamıştır.

Amaç: Osmanlı edebiyatı örneklerinin bağımsız okuma kitaplarında çevrilmesi, yayımlanması ve tanıtılması sorununu incelemek.

Kullanılan yöntem: Araştırma sürecinde kullanılan yöntemlerden biri de tarihsellik ilkesidir. Eserlerin analizi ve bir takım bilimsel ve teorik fikirlerin açıklanması sırasında tümdengelim ve tümevarım yöntemlerinden de yararlandık.

Ana metnin ifadesi: Abdulla Şaig'in 1912'de yayınlanan "Gülzar" ders kitabı nispeten lise öğrencilerine yönelik bir ders kitabıydı. Ders kitabı şu notla basıldı: "Bu, üçüncü belgeden sonra okullarda okunacak bir okuma kitabıdır." Kitapta bilimsel, gazetecilik, pedagojik materyallerin yanı sıra çok sayıda sanatsal örnekler de yer aldı. Bunlar farklı halkların sanatsal fikir hazinesine ait eserlerdi. Bu eserlerin bir kısmı Türk sanatçılarının yaratıcılık örnekleriydi. Bu sanatçılar arasında Muallim Naci, Mahmud Ekrem Recaizade, Tevfik Fikret, Ziya Paşa, İsmayıl Safan, Hüsam Bey, Ahmed Rasim, Ahmed Hikmet ve başka isimleri sayabiliriz. Diğer anadili ders kitaplarında olduğu gibi Gülzar'da da Muallim Naci'nin hayatı ve çalışmalarına özel önem verilmiştir. Bu bir yandan onun meşhur yeteneğiyle ilgiliyken, diğer yandan Naci'nin bir eğitimci-sanatçı olarak "çocuklar için" birçok eser yazması ve şiirlerinin özel bir değere sahip olmasıyla ilgiliydi. Aynı zamanda genç okuyucular için uygun manevi gıda ve okuma materyalleri idi. Ders kitabında şair hakkında küçük bir makalenin yanı sıra "Avcı", "Firlangic" (Bu şiir diğer bazı ders kitaplarında "Kırlangıç" adıyla yer almaktadır), "Talatüm", "Bahar", "Bir dağ başı" şiirleri yer almaktadır. Bunların çoğu çocuk şiirlerinden örneklerdir. Tematik olarak çoğu doğa ve onun güzellikleri, hayvanlar alemi ve ona duyulan sevgi ile ilgilidir. Şair, okuyucularına doğaya ve hayvanlar alemine karşı sempati uyandırır, onun güzelliğini anlatmaya çalışır. "Talatum" şiiri konu ve üslup bakımından farklı bir yöne sahiptir. Hayat, onun zorlukları, belirsiz yolculukları, insanın yaşam ve mutluluk mücadelesinde bu zorlukları aşma kararlılığı şiirin ana fikir-estetik kayasını oluşturur. Ayrıca sanatçı bu konuyu yaşam olaylarıyla karşılaştırarak okuyucuya daha basit ve inandırıcı bir şekilde sunmak istemektedir. Böylece mesnevi tarzında yazılan şiirde öncelikle denizin çalkantısından, dalgaların nasıl şişip yükselip tekrar geri döndüğünden söz edilir. Daha sonra bu doğa olayı, sosyal çevrenin, insan yaşamının kabarıp gerileyen olaylarıyla karşılaştırılır. İnsanın yaşamı boyunca çeşitli zorluklarla, iniş çıkışlarla, çalkantılarla da karşılaştığı gösterilmektedir. Bu çalkantılardan ve zorluklardan korkmamalı, hayat gemisinin savaşçısı olmalı, gayret ve kararlılıkla hareket etmelidir:

Şiddetle atlayıp öldürün,

Devam edin de sınava girin.

Seyr'de mi oluyor her kolay?

İnsan ölümden korkar mı?

Rahət durulurmu böylə canla?

Çarpışmalıyım bütün cahanla! [2, 246]

Bahsettiğimiz ders kitabında Mahmud Ekrem Recaizade'nin şiirlerinden altı örneğ vardır.

Bunlar "Tasvir", "Bu da aynı şiirdir", "Yad et", "Makber", "Hale-sahar" ve "Dört buçuk yaşında Fahirem" şiirleridir. Şairin yaratıcı yönteminin romantik ruhu, hüznü ve hayalperestliği onlara hakimdir. "Makber" isminden de anlaşılabileceği gibi mezar şiirinin bir örneğidir. Sanatçı, dört yaşında ölen kızının ölümü üzerine "Faxirem dört buçuk yaşında senin" adlı ayeti ilə başlayan şiiri yazdı. Şiir hüzünlü bir mersiyeyi anımsatıyor. "Hale-sabah" şiirinde sabahın açılışı, ışığın karanlıktan kopması, evrende yarattığı güzellikler, şafağın ve ışığın ilahi hikmeti son derece mecazi ve şiirsel bir dille anlatılmaktadır. Hakikatin yarattığı güzelliğe hayranlık duyulmaktadır:

Nedir bu feyzi-mükemmel, nedir bu hale-sabah?

Nedir hakikati-ulviyye, nedir meale-sabah?

Neden bulur bu kadar rövneqi-zelale-sabah?

Ben olmuşum ezeli aşiqi-camale-sabah,

Senin de mi dilin aşüfteyi-vüsal sabah?

Nedir buhüzni-qaribanın , eyhilale-sabah. [2,257]

Şiirin anlam ve içerik bakımından yüksek bir sanata sahip olduğu doğrudur. Ama ne yazık ki, sanatsal dil açısından genç okuyucuların hazmetmekte zorlandıklarını da belirtmemiz gerekiyor. Tevfik Fikret'in yaratıcılığı "Gülzar"da altı şiirle temsil edilmiştir: "Hasta çocuk", "Ramazan sadakası", "Sarhoşun önünde", "Balıkçılar", "Sarhoş", "Sabah ezanı". T.Fikret'in türk edebiyatında sadece "büyüklere" değil, özellikle "çocuklara" yönelik değerli eserler ortaya koyan bir sanatçı olarak tanındığını da ekleyelim. Aynı zamanda çocuk edebiyatının da önemli bir temsilcisidir. Çocuklarının şiirlerini çoğunlukla hayatının son yıllarında yazdı. Bu şiirler "Şarmin" kitabında toplanmıştır. Şarmin, kitapta şiirin ithaf edildiği küçük bir kızın adıdır. T. Fikret'ın edebi mirasının tanınmış araştırmacılarından Kenan Akyüz, sanatçının çocuk şiirlerinin çoğunu Sati Bey'in isteği üzerine kaleme aldığını yazıyor. Sati Bey, şairden açtığı özel okulun öğrencileri için şiir yazmasını istedi. T. Fikret de çocuklar için birçok şiir yazmış ve bunları "Şermin" kitabında toplamıştır. Kanan Akyüz, görüşünü şöyle sürdürüyor: "Şermin"deki parçalar, tüm özellikleriyle çocuk ruhunu yakından kavrayan ve ve çocukla cocuk olan bir yapıya sahipdir. Şair bu eserlerdeki mısralarda şefkat, yardımlaşma ve fedakarlık duygularını, yurt, aile, doğa sevgisi, okuma, tasarruf ve davranış kurallarını güzel bir şekilde dile getirmiştir."[3, 296] Sanatçının "yetişkinler için" yazdığı eserlerin aksine çocuk şiirlerinin dili oldukça sade, yerel dile yakın, arapça-farsça kelime ve ifadelerden uzaktır. İçeriği ve fikri, verdiği ruh, eğitici-ahlaki, sanatsal-estetik değerleri de aynı düzeyde ve dikkat çekici. Şairin türk edebiyatındaki yeniliklerinden bahseden İsmayıl Hikmet, çocuq eserlerine dikkat çekiyor: "Fikret, şiir vadisinde pek çok yenilik ve sadelik yaratmıştır. Tamamen sade, açık ama lirik bir dilin en canlı örneklerini verdi... Hayatının son günlerinde hasta yatağında çocuklar için yazdığı "Şermin" adlı eseri samimi, yumuşak, temiz bir dilde yazılmış şiirlerle doludur".[1, 119] A. Shaik ders kitabını hazırlarken T. Fikret'in yaratıcılığından seçtiği örneklerin konularına dikkat etmiştir. Böylece "Hasta Çocuk"ta yetimlerin trajik kaderi, "Ramazan Sadakaları"nda şefkat ve insanlık, "Sarhoşun önü"nde düşünme ve bilişsel düzey, "Balıkçılar"da çalışkanlık, "Sabah ezanı"nda ezan vakti insan kalbindeki ilahi duyguyu göstermek, onun tecelli etmesini ana tematik amaç olarak ele almaktadır. A. Şaig, "Gülzar"da Ziya Paşa'nın "Munacat"ına, İsmayıl Safa'nın " Məqbəreyi-madərdə bir növhə yetimhane"sine ve Hüsam Bey'in "İhtiyarlıg"ına yer vermiştir. İ.Safa'nın şiiri sanatçının annesinin mezarı başında söylediği bir şiirdir. Hüsam Bey'in "İhtiyarlıq" adlı şiiri beş türe girer. Eser, hayatını maşaqqat ve zorluklar içinde geçirmiş, hayatın çalkantılı ve dolambaçlı yollarından geçmiş yaşlı bir adamın dilinden anlatılıyor.

Bu ihtiyar insan, yaşam tecrübesine dayanarak insanları kardeşliğe, iyiliğe, insanlığa çağırır, yaşlılığın getirdiği çaresizlikten yakınır. Beşlinin dili nispeten basittir, lirik öğütlerin tonu akıcıdır:

Yaşarken bir zamanlar ben dexi yari-imanimle,

Gezib, qah-qah gülüb oynarken ixvani-qiranimle,

Bu gün dünyayı doldurmaqdayım, ah, inamımla,

Nə müşkülmüş qam, ey ixvani-dinim sali-peride,

Teselli ixtiyar etdim gerek bu hali-perride. [2, 100]

Gülzar'da Osmanlı yazarlarının yazdığı nesir örneklerine de rastlıyoruz. Bu tür eserler arasında Ahmet Hikmet'ın "Bir Damla Kan" ve Ahmet Rasim'in "Rasim'in okula gidişi" adlı hikâyeleri sayılabilir. Ayrıca ders kitabında "Kamus-ül-Ulum"dan alınmış "Türkler" adlı bilimsel-gazetesel bir eser de bulunmaktadır. Burada farklı türk toplumlarının tarihi, gündelik yaşamı, geçim kaynakları hakkında bilimsel bilgiler verilmektedir. A. Hikmet'in "Bir Damla Kan" adlı eseri lirik-alegorik bir doğa öyküsüdür. A. Rasim'in "Rasim okula gidiyor" hikayesi okul çocuklarının hayatından alınmış düzyazı bir eserdir. Çalışmanın ana fikri çocukları okula ve eğitime teşvik etmektir.

Sonuç

Elbette bu tür çalışmaların, yetişen neslin milli ruhuna ve vatanseverliğine, zihinlerinde milli ideallerin uyanmasına, etnik hafızanın yeniden canlanmasına, diğer türk toplumlarını tanımasına büyük etkisi olmuştur. Ders kitabı yazarları da ayık bir pedagojik anlayış ve milli taassub duygusuyla okuma örneklerinin seçiminde bu önemli hususları dikkate almışlardır. Genel olarak o dönemdeki ders kitaplarının çoğunda bu değerler dikkate alınıyordu.

Kaynakca

1. Hüseynov Rüstəm. Tofiq Fikrət / R.Hüseynov.- Bakı: Yazıçı,-1981.-184 s.

2. Şaiq Abdulla Talıbzadə. Gülzar / A.T. Şaiq. – Bakı: “Orucov qardaşları” mətbəəsi, – 1912, – 287 s.

3. Akyüz K.Tevfiq Fikret / K.Akyüz. -Ankara.- 1947.-224 s.

4. Banarlı Nihad Sami. Resimli türk edebiyatı tarihi: [2 ciltte] /N.S.Banarlı.- İstanbul: Milli Egitim Basımevi.-c.2.-1998.-1366 s.

TURKISH MYSTICAL POETRY
TÜRK TƏSƏVVÜF ŞEİRİ

Prof. Dr. ELMAN QULİYEV

Azərbaycan, Bakı
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Türkoloji mərkəzin Türk ədəbiyyatı bölməsinin müdiri
Orcid: 0000-0001-5413-9479

ÖZET

Təsəvvüfdə insanın vəhdətdən ayrılıb yerə gəlişi bir mərhələlidir. Onun Haqqa qovuşması isə dörd mərhələdən keçir: Şəriət, təriqət, mə-rifət və həqiqət. Şəriət hökmlərə ibadət, təriqət duyub, düşünüb yol müəy-yənləşdirmək, mərifət Haqqı öz ruhuna hakim etmək, həqiqət isə Haqqa qovuşmaq mərhələləridir. Burada bütün mərhələlər əsas və vacibdir. Birmərhələni keçmədən digər mərhələyə qədəm qoymaq mümkün deyil

Anahtar kelimeler: Təsəvvüf, islam, ədəbiyyat, şeir, türk

SUMMARY

In Sufism, a person's departure from unity and coming to earth is a one-step process. His meeting with the Truth goes through four stages: Shariah, sect, enlightenment and truth. Shari'ah is the stages of worshiping the rulings, understanding the sect, thinking and determining the path, mastering the Truth in one's soul, and meeting the Truth. Here all stages are basic and important. It is impossible to enter another stage without passing one stage

Key words: Sufism, Islam, literature, poetry, Turkish

GİRİŞ

Dini-fəlsəfi, mənəvi-əxlaqi cərəyan olan təsəvvüf Şərq nəzərielmlər sırasında yer almasa da, onun kökündə din və dini elmlər dayanır. Təsəvvüf dinin batini və mənəvi tərəfi ilə məşğul olan islami elmlərlə iç-içədir. Quran isə həmin elmlərin ana qaynağıdır. Bildiyimiz kimi, islami elmlər VIII əsrə qədər bir bütövün tərkibində , VIII əsrdən etibarən müstəqil şəkildə (təfsir, hədis, fiqh, kəlam, əxlaq və s.) inkişaf etməyə başlamışdır . Təsəvvüfü həminelmlərin hər biri ilə birbaşa bağlamaq mümkündür. Bu baxımdan təsəv-vüf qaynağı İslam ideologiyası olan bir dini-fəlsəfi cərəyan və düşüncəsistemi hesab olunur . Nihad Sami Banarlı təsəvvüfü “ bir iman, bir fikir və irfan cərəyanı və bir eşq hadisəsi”[1] hesab edir. Ancaq heç vaxt təsəvvüfə birmənalı münasibət olmamışdır. Bir mülahizəyə görə təsəvvüf nəzəri, başqa mülahizəyə görə əməli (tətbiqi), digər bir mülahizəyəgörə isə İslam mistizmidir. İlk sufi ləqəbiylə tanınan şəxs Cabir bin Həyyan (VIII əsr) və ya Əbu Haşim hesab olunur. Təsəvvüfün qaynağı islami dəyərlər olsa da, Quranda təsəvvüf və sufi kəlmələrinə rast gəlinmir. Bu da özlüyündə təsəvvüfün dinlə bağlı olub-olmaması baxımından fərqli fikirlərin yaranmasına səbəb olmuş- dur. Bəzi din alimləri İslamın təsəvvüflə heç bir əlaqəsinin olmadığını iddia edirlər. Quranda da sufi və təsəvvüf kəlmələrinin işlədilməməsinin səbəbini bununla bağlayırlar. Ancaq nəzərə almaq lazımdır ki, təsəvvüf bir cərəyan olaraq Qurandan sonra formalaşmışdır. Lakin on-lardan fərqli olaraq təsəvvüfün İslamla əlaqəsini təsdiqləyənlər çoxluqtəşkil edir.

Məlumdur ki, İslamda elm yalnız elm deyil, həm də ibadət və iman hadisəsi, eyni zamanda İslam mədəniyyətinin təməl cizgilərin-dən biri kimi qəbul edilir. Təsəvvüfdə də ibadət, iman, mədəniyyət və s. cəhətlərə eyni münasibətin olması dini-fəlsəfi hadisə tipində təsəv- vüfün islami əsaslar daxilində formalaşmasını təsdiqləyir. İslam dini ilə təsəvvüf arasında bağlılığın olmasını təsdiqləyənlər bu cəhəti xüsusi vurğulayırlar. Qeyd etmək lazımdır ki, İslamda mövcud olan Allah sev-gisi, ibadət, təqva, tövbə, zikr, ixlas, səbr, təvəkkül, şükr, zöhd, qənaət və digər cəhətlər təsəvvüfdə yer alır ki, bu da onu Quranla birbaşa bağ-layır. Bundan başqa, Quranın Hədid, Həşr, Nisa, Bəqərə, Maidə, Fəcr, Ali-İmran surələrində yer alan Allah sevgisi, Allahı düşünmək, ilahi bəndəliyə daxil olmanın və ibadətin şərtləri və s. dini-fəlsəfi görüşlər təsəvvüfdəki bu tipli fikirlərin formalaşmasında mühüm rol oynamış- dır. Ədəbiyyat tarixləri və fəlsəfə kitablarında "İslam təsəvvüfü" ifa- dəsinin işlədilməsi də təsəvvüfün İslamdan qaynaqlanmasının təsdiqi baxımdan əhəmiyyətlidir.

YÖNTEM

Sufi və təsəvvüf sözlərinin kökü ilə bağlı müxtəlif mülahizələr mövcuddur. Kuşeyri, Hucviri və digər müəlliflər belə hesab edirlər ki, təsəvvüf və sufi sözlərinin ərəb sözləri ilə heç bir əlaqəsi yoxdurvə bu sözlər ərəb dilindəki kəlmələrdən törəməmişdir. Başqa müəlliflərisə bu sözlərin kökünün ərəb dili ilə bağlı olduğunu əsaslandırmağa çalışmışlar. Həmin fikrin tərəfdarları təsəvvüf kəlməsinin kökünü elmvə ibadətlə məşğul olan ilk 400 nəfər möminə işarə olaraq işlədilən "əshabi-süffə", çöl bitkisinin adı olan "sufanə", təmizlik, paklıq anla- mını verən "safa", "safvet", İslamdan öncə yaşayan və özlərini haqqa və xalqa xidmətdə görən qəbilənin adını bildirən "benuş-sufe", saçları-na və geyimlərinə diqqət etməyən sufilərin uzun saçlarına işarə olaraq ənsə saçı anlamını ifadə edən "sifətül-kafa", yunanca filosof, hikmət mənasında işlənən "sofiya", yun və eyvan mənalarını verən "suf" və s.sözlərlə bağlayırlar. Tədqiqatçıların böyük əksəriyyəti təsəvvüf və sufi kəlmələrinin kökünü "suf" sözü ilə əlaqələndirirlər. Tədqiqatçılar bu zaman "suf" sözünün Peyğəmbərin namazdan sonra məkan olaraq mo-izə etdiyi yerlərdən biri kimi eyvan anlamına deyil, Peygəmbərin, öv- liya və əshabələrin yun parçalardan hazırlanmış geyim mənasına önəmverirlər. Lakin təsəvvüf dini-mənəvi sistem olduğundan ona birməna- lı yanaşmaq düzgün deyildir. Qəzalinin "Səadət yolu"nda, Kuşeyrinin "Risalə"sində, Əttarın "Təzkirətül-övliya"sında, Caminin "Nəfəha-tül-üns"ündə, C.Ruminin "Məsnəvi"sində əks etdirilən sufi görüşlərdətəsəvvüfün 100-ə yaxın mənasını (həm də tərifini) müəyyənləşdirməkmümkündür. Onları müxtəsər olaraq aşağıdakı kimi sıralamaq olar:

1. Təsəvvüf zöhddür (Allah sevgisinə əngəl olanları qəlbdən çıxarıbAllaha yönəlmək)

2. Təsəvvüf gözəl əxlaqdır

3. Təsəvvüf qəlb təmizliyidir

4. Təsəvvüf nəfs ilə mübarizədir

5. Təsəvvüf kitaba (Quran mənasında) sarılmaqdır

6. Təsəvvüf Allaha mütləq mənada təslimçilikdir

7. Təsəvvüf Haqqa vüslətdir(Allaha qovuşmaq)

8. Təsəvvüf İslamın ruh həyatıdır

9. Təsəvvüf batini, iç dünya elmidir (Hökm və əmrlərə həm zahiri,həm də daxili baxımdan itaət və ibadət)

10. Təsəvvüf savfdır (Allahdan başqa hər şeydən üz çevirmək) və s.

BULGULAR

Böyük mütəsəvviflərdən Əbu Məhəmməd Ruveymin (X əsr) "təsəvvüf Allah ilə birlikdə olub, nəfsdən əl çəkməkdir", Əbu HüseynMüzəyyinin (X əsr) "təsəvvüf Haqqa boyun əyməkdir", Əbu Əli Ruz- barinin "təsəvvüf insanın qovulsa belə Rəbbin qapısında diz çöküb gözləməsidir", Qəzalinin "təsəvvüf qəlb və əzaların könüllü ibadəti- dir", "təsəvvüf təmənnasız ibadət və könüllü yoxsulluqdur" və s. fikirlərində təsəvvüfün bir çox mahiyyəti konkret şəkildə əksini tapır. Təsəvvüfdə nəfslə mübarizə əsasdır. Həzrəti Peyğəmbərimiz içi-mizdəki düşmənlə (nəfslə) mübarizə aparmağı böyük cihad hesab et- mişdir. Nəfslə mübarizədə ilahi əxlaq vacib şərtlərdən biri sayılır. Əgər insan "ilahi əxlaqla əxlaqlanmırsa" ondakı maddiyyat hərisliyini məhvetmək mümkün deyil. Təsəvvüf sufinin ruhunda, iç dünyasında mövcud olan bir "sifət"-dir, bu sifət həqiqət baxımından Haqqın, zahir baxımından isə insanın özünündür. Təsəvvüfün mövzusu Allah, varlıq və insanla bağlıdır. Cüneyd əl- Bağdadi qeyd edirdi ki, "təsəvvüf sufiyanə bir həyatın vəsfidir". Bir çox mənəvi məqam və şərtlər-ruh, eşq, sevgi, nifrət, kin, varlıq, nəfs, ibadət və s. kimi duyğular təsəvvüfün mövzu dairəsinə daxildir. Təsəvvüfün qayəsini isə insanı pisliklərdən, pis əxlaqdan uzaqlaş- dırmaq, mənəvi ucalığa yüksəltmək, onu əsl Allah bəndəsi və Peyğəm-bər ümməti səviyyəsinə qaldırmaq, bir sözlə-kamil insan məqamına çatdırmaq təşkil edir. Təsəvvüf vəhdəti-vücud fəlsəfəsinə əsaslanır. Bu fəlsəfədə Yaradanın böyüklüyü və yaradılışın sirləri barədə fikirlər ak- tuallıq təşkil edir. Vəhdəti- vücud fəlsəfəsinə görə varlıq təkdir, tək olan isə Allahdır. Ətrafda görünən digər varlıqlar Allahın dərki, təsdiqi və sübutu üçündür. Onu da qeyd edək ki, təsəvvüfdə bilinəcək tək həqiqətAllahın dərkidir. Ancaq Allahın duyumu və bilinməsi yalnız irfanla bağlıdır. Çünki irfan həm elm, həm də duyğu sistemidir. Buna görə də Allah varlıqda duyan, düşünən və inanan məxluqa ehtiyacı nəzərə alıb insanı yaratmışdır. Allah Davud peyğəmbərin "insanı niyə yaratdın?" sualına "mən gizli bir dəfinə idim, bilinməyi sevdim, bilinmək üçün insanı yaratdım" cavabını vermişdir. Vəhdəti-vücud fəlsəfəsində insanAllahdan qopan ruhdur. Allah tərəfindən göydən yerə endirilmiş ruh keçici zaman üçün bədənlənərək insan cildinə salınmışdır. Onlar əyin-lərində kəfən hər zaman Allaha qovuşmaq arzusu ilə yaşayırlar.

Dünya dostun düşmənidir, Məqsəd o canlar canıdır, Bil ki, bu dünya fanidir, Dünyanı sən tərk et, könül.

Bu dünyada qalmayaq, gəl, Fanidir aldanmayaq,gəl, Bir ikən ayrılmayaq, gəl, Gəl, dosta gedək, gəl, könül.

(Ə.Yəsəvi)

(Y. İmrə)

Təsəvvüfdə insanın vəhdətdən ayrılıb yerə gəlişi bir mərhələlidir. Onun Haqqa qovuşması isə dörd mərhələdən keçir: Şəriət, təriqət, mə-rifət və həqiqət. Şəriət hökmlərə ibadət, təriqət duyub, düşünüb yol müəy-yənləşdirmək, mərifət Haqqı öz ruhuna hakim etmək, həqiqət isə Haqqa qovuşmaq mərhələləridir. Burada bütün mərhələlər əsas və vacibdir. Birmərhələni keçmədən digər mərhələyə qədəm qoymaq mümkün deyil:

Təriqətə şəriətsiz girənlərin, Şeytan gəlib imanını alır imiş...

(Ə. Yəsəvi)

Şəriət, təriqət yoldur varana,Həqiqət meyvəsi ondan içəri.

(Y. İmrə) Təsəvvüfdə insana vəhdətdən qopan, Haqqa doğru gedən bir varlıqkimi münasibət bildirilir. C.Ruminin dediyi kimi:

Mən məndə deyil, Səndə də həm Sən, həm mən, Mən həm məniməm, həm də Sənin,Sən də mənimBir öylə qərib halə bu gün gəldim ki,

Sən mənmisən bilmirəm, mənmi Sənəm.

Təsəvvüfdə təriqət və təkkə vacib şərtlərdən biri kimi yer tutur.

Təriqət təsəvvüfün öyrətmə qurumudur, duyub və düşünüb yolmüəyyənləşdirməkdir. Allaha doğru gedən yolda təriqət mühüm addım-lardan biridir. Mürşüd və mürid amili burada əhəmiyyətli yer tutur:

Təriqətə siyasətli mürşüd gərək,O mürşüdə ikiqatlı mürid gərək,

Hizmət qılıb, bir rizanı bulmaq gərək,Böylə aşiq Haqdan nəsib alır imiş.

(Ə. Yəsəvi)

Təriqətlər daha çox Xorasan, İraq, Türkistan, Anadolu və Balkan ərazilərində yaranmışdır. Mövləvilik, Yəsəvilik, Şəfailik, Heydərilik, Bəktaşilik, Nəqşbəndilik və s. təriqətlər həmin ərazilərdə sufizmin ya- yılmasına xidmət göstərmişdir.

SONUÇ

Təkkə təsəvvüfün sosial qurumudur. Təkkələr daha çox sosial qurumlar olsalar da, onlar ədəbiyyatın inkişafına da töhfələr ver-

mişlər. İlk təsəvvüf ədəbiyyatı nümunələrini təkkələrə yığışan təriqət- çilər meydana gətirmişlər. Şərqdə təkkələr say etibarı ilə mədrəsələrdənçox olmuşdur. Əgər mədrəsələr əsasən klassikanı, klassik elmləri öyrə-dirdisə, təkkələrdə Allaha qovuşmaq yolları öyrədilirdi. Bu səbəbdən mədrəsələrlə təkkələrin bir-birinə münasibəti bir qədər ziddiyyətli ol-muşdur. Qeyd edək ki, təkkələrdə sünni məzhəblər şiələrlə müqayisədə çoxluq təşkil etmişlər. Buna baxmayaraq, onlar qarşılıqlı hörmət şərai-tində fəaliyyət göstərmişlər.

Bir çox hallarda təsəvvüfü mistizmlə eyniləşdirirlər. Lakin bunlar arasında müəyyən fərqlər vardır. Qeyd edək ki, mistika yunan sözüdür, bu söz yunanca “dilsiz olmaq, danışmamaq, dodaqları və gözləri bağla-maq” mənalarını ifadə edir.

Təsəvvüflə mistizmin fərqinə gəldikdə deməliyik ki;

– Mistizmdə ağıl hakim deyil, zövq hakimdir,

– Mistizmdə fani olmaq fəlsəfəsi öndə dayanır,

– Təsəvvüfdə insan ruhu bir yüksəkliyə ucalır, mistizmdə isə ruhi yüksəkliyə ucalmaq yox, keçici həzz vardır,

– Təsəvvüfdə mənəvi yüksəliş üçün fərdi səy əsasdır, mistizmdə isəyox,

– Təsəvvüfdə ruh ayrılıb Haqqa qovuşur, mistizmdə ruh cəsədə ha-kimdir, ondan ayrılmır,

– Təsəvvüfdə insan həm vəcd, həm də elm əhlidir, mistizmdə yal-nız vəcd əhlidir,

– Təsəvvüfdə insan bədəni ərz (ərazi), sümükləri dağ, ilikləri mine-ral mədən, damarları axar su, ünsiyyət və əlaqə duyğusu mədəniyyət, tənəffüsü rüzgarların əsməsi, söz söyləməsi göy gurultusu kimi məna- landırılır. Mistizmdə isə bu şəkildə mənalandırma yoxdur və s.

Təsəvvüf islami əsaslar daxilində formalaşmış, Şərq-müsəlman dini -fəlsəfi, eyni zamanda ədəbi- bədii düşüncəsinin inkişafında əhə- miyyətli rol oynamış cərəyanlardan biridir.

KAYNAKLAR

1. Ahmet Atilla Şentürk,Ahmet Kartal.Eski türk edebiyatı tarihi,Dergah yayınları,2008.

2.Banarlı N.S. Resimli türk edebiyatı tarihi, İstanbul, 1998

3. Yunis Əmrə. Risalətün-nushiyyə.Bakı,2013

4. Yunis Əmrə.Güldəstə .Bakı,1992

5.Mustafa Tatcı.Yunus Emre yorumları,Ekim ,2015

6.Nihad Sami Banarlı.Türk ədəbiyyatı tarixi,2 cilddə, 1-ci cild,İstanbul,1998

7. Quliyev Elman.Türk xalqları ədəbiyyatı,Bakı,2017

MORAL VALUES IN THE REPRESENTATIONS OF ABBAS SAHAT
ABBAS SƏHHƏTİN TƏMSİLLƏRİNDƏ ƏXLAQİ DƏYƏRLƏR

ŞÖHRƏT MƏMMƏDOVA NÜSRƏT QIZI

ADPU Filologiya üzrə fəlsəfə doktoru, dosent

Xülasə

Abbas Səhhət uşaqların və gənclərin sevimli şairlərindəndir. Onun balaca oxucular üçün yazdığı mənalı, şirin şeirlər, tərbiyəvi məzmuna malik mənzum hekayələr, təmsillər Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələrindəndir. Millilik, ümumbəşərilik, yüksək ideyalılıq, müasirlik və bunların uşaq zövqünə, ruhuna uyğun şəkildə, bədii boyalarla verilməsi, həmin nümunələrin çoxunu Azərbaycan şeirinin klassik xəzinəsinə daxil etmiş, şairin özünə isə balalarımızın qəlbində əbədi bir məhəbbət oyatmışdır. Azərbaycan uşaq şeirini ideya-bədii məzmun baxımından zənginləşdirən A.Səhhətin özünəməxsus yazı üslubu, orijinal yaradıcılıq laboratoriyası vardır. O, uşaq aləmini dərindən bilir, uşaq dünyasının incəliklərindən ustalıqla baş çıxarırdı. Şair öz əsərlərində hər sözü, ifadəni yerində, zərgər dəqiqliyi ilə işlətmiş, doğma dilin, şifahi xalq ədəbiyyatının xəzinəsindən bəhrələnərək uşaq ədəbiyyatının klassik nümunələrini yaratmışdır. Dərin ictimai məzmun, yüksək bədii şeiriyyət onun əsərlərininin başlıca keyfiyyətləridir.

Açar sözlər: uşaq, əsər, ideya, mövzu, klassik, üslub, xalq.

Summary

Abbas Sahat is one of the favorite writers kids and young peopple.Meaningful, sweet poems, poetic stories with educational content, and representations that he wrote for young readers are among the most beautiful examples of Azerbaijani childeren literature.Nationality, universality, high idealism,modernity and their presentation in physical form in accordance with childeren taste and spirit , included many of these examples in the classic treasury of Azerbaijani poetry, and awakened neverending love for himself inthe hearts of childeren. A.Sahat , who enriches Azerbaijani childeren's poetry in terms of idea-artistic content,has his own writing style and original creative laboratory.In his works, the poet used every ord and expression in the place,with the precision of a jeweler, benefiting from the treasure of native language and oral folk literture, he created classic examples of childeren's literature.Deep economic contest ,high artistic poetry are the min qualities of his works.

Keywords:child. trace .idea. topic .classic .style . natin

Abbas Səhhət uşaqların və gənclərin sevimli şairlərindəndir. Onun balaca oxucular üçün yazdığı mənalı, şirin şeirlər, tərbiyəvi məzmuna malik mənzum hekayələr, təmsillər Azərbaycan uşaq ədəbiyyatının ən gözəl nümunələrindəndir. Millilik, ümumbəşərilik, yüksək ideyalılıq, müasirlik və bunların uşaq zövqünə, ruhuna uyğun şəkildə, bədii boyalarla verilməsi, həmin nümunələrin çoxunu Azərbaycan şeirinin klassik xəzinəsinə daxil etmiş, şairin özünə isə balalarımızın qəlbində əbədi bir məhəbbət oyatmışdır. Ədibin dərin məzmunlu təmsillərində də uşaqların yaş xüsusiyyətləri bilik və qavrama səviyyəsi nəzərə alınmışdır. Həmin əsərlərdə ifadə olunmuş ideyalar, müdrik fikirlər əksər hallarda şifahi xalq ədəbiyyatından qaynaqlanır.

Şair sərrast ifadələrdən, atmacalardan yerində istifadə edərək kiçik yaşlı oxucularda təsvir olunan hadisə, obyekt haqqında aydın təsəvvür yaratmağa müvəffəq olmuşdur. Ədibin təmsillərində maraqlı süjet bədii sənətkarlıqla üzvi vəhdət təşkil edir. Sənətkar təmsillər vasitəsilə gənc nəsli pis əməllərdən uzaqlaşdırmağa çalışmış, insan təbiətindəki mənfi cəhətləri tənqil etmişdir. Onun «Ayı və arılar», «Sərçə və qırğı», «İki dana», «Qarışqa və milçək», «Gün və külək», «Tülkü və meymun», «Tülkü və qurd», «İki dana», «Ulaq və aslan», «İt və kölgəsi» kimi təmsillərinin hər biri maraqlı mövzuya, ideya-məzmununa malikdir. Bu təmsillərdə lovğalıq, acgözlük, tənbəllik, böyük sözünə qulaq asmamaq, işə başdansovdu yanaşmaq, məsləhətsiz iş görmək, əməlin aqibətini düşünməmək insanın xasiyyətindəki, davranışındakı ciddi nöqsanlar tənqid edilir. Bununla yanaşı, sənətkar öz təmsillərində birlik, xeyirxahlıq, əməksevərlik kimi nəcib əxlaqi keyfiyyətləri təbliğ edir.

«Ayı və Arılar» təmsilində ayı bal arılarının pətəyinə rast gəlib, onu yemək fikrinə düşür. Arılar bu işdən agah olub ayıya hücum çəkirlər. Arıları zəif sayan ayı onların gücünü görüb qaçmağa üz qoyur:

Gördü fənadır işinin axiri,

Qaçdı o saət ayı ordan geri.

Müəllifin oxucuya aşılamaq istədiyi fikir budur ki, acgözlük edib özgə malına öz dikən, qarşısındakını gücsüz sayıb qoluzorluluq edənin aqibəti acınacaqlı olur.

"İki dana" təmsilində insanın xasiyyətindəki tamahkarlıq, başısoyuqluq kimi mənfi cəhətlər tənqid edilir. Çəmənlikdə otlayan iki danadan biri axşamın düşməsini, qaranlığın qovuşmasını görüb geri qayıdır. Lakin ikinci dana havanın qaralmasına məhəl qoymayıb geri dönmək istəmir. "Tələsmə, çox ertədir,"- deyən ikinci dananı birinci dana gözləməyib geri qayıdır. Tək qalan dananı canavarlar parçalayır. Təmsildən belə nəticə çıxır ki, sayıqlığı itirmək, laqeydlik və acgözlük daim insanları pis vəziyyətə salır. Əsərdə bir tərəfdən düşüncəsizlik, başısoyuqluq tənqid edilir, digər tərəfdən canavarın vəhşiliyi, yırtıcılığı haqqında uşaqlara konkret məlumatlar verilir.

«Ayı və Şir» təmsilində ov üstündə bir-biri ilə savaşan, özlərini al qana qərq edən iki yırtıcının acgözlüyü təsvir edilir. Dostluq edən ayı və şir birlikdə dovşan ovlayırlar. Ovun bölüşdürülməsi zamanı «dostlar» arasında ciddi toqquşma yaranır. Dostlar vuruşmalı olur. Döyüş zamanı onların hər ikisi yorulub taqətdən düşür, tərpənməyə belə heyləri qalmır. Bundan istifadə edən tülkü ovu götürüb aradan çıxır:

Əlbir olub bir ayı bir şir ilə,

Ovladılar dovşanı tədbir ilə.

Olmadılar razı onu bölməyə,

Çıxdı axır iş ölüb-öldürməyə.

Çeynədilər, dişlədilər, diddilər.

Bir-birini al qana qərq etdilər.

Tülkü uzaqdan görüb ol haləti,

Bildi ki, yox heç birinin taqəti.

Gəldi, götürdü ovu, etdi fərar,

Həsrət ilə baxdı dalınca bunlar.

Əsərdə acgözlüyün, tamahkarlığın tənqidi ilə yanaşı, tülkünün çevikliyi, hiyləgərliyi, ələ düşən fürsəti fövtə verməməsi təsvir olunur. Bu əsərdə şair uşaqları həyatda birliyə, gözütoxluğa, öz nəfsinə uymamağa, bəd xasiyyətli yoldaşdan uzaq olmağa çağırır.

«Gün və küləк» təmsili də ideya cəhətdən mükəmməl və bitkindir. Əsər günəşlə külək arasında yaranan mübahisədən bəhs edir. Günlərin birində günəş ilə külək "kim güclüdür?" sualına hərəsi özünün daha güclü olması cavabını verir. Lakin hər ikisinə bunu təcrübədə – çobanın üzərində sübut etmək lazım gəlir. Külək coşub nə qədər bərk əsirsə, çoban çuxaya o qədər də bərk bürünür. Külək çox əsir, ancaq çuxanı çıxara bilmir. Növbə günə çatanda o, səmaya qalxır və yeri isindirməyə başlayır. Gün yeri isindirdikcə çoban yaxasını açır, çuxasını tamam çıxarır. Əsər aşağıdakı misralarla bitir:

Güc ilə, zor ilə heç bir iş aşmaz,

İş əlində həlim olan çaşmaz.

Bu əsəri diqqətlə oxuyan uşaq belə bir nəticə çıxarmalıdır ki, hər hansı bir işi zor və güc ilə əldə etmək olmaz. İstədiyinə mülayimliklə nail ola bilərsən.

«Ulaq və Aslan» təmsilini də öyrənmək, ondan əxlaqi-tərbiyəvi nəticə çıxarmaq uşaqlar üçün çox vacibdir. Nərə çəkib kəndə girən aslanı ilk dəfə ulaq və xoruz görür. Onlar qorxularından səs-küy edib hamını duyuq salırlar. Kənd əhli bir-birinə dəyir, itlər hürüşür, insanlar əldə dəyənək evdən çıxır. Aslan qaçmağa başlayır. Bu zaman ulaq elə güman edir ki, aslan onun səsindən qorxub qaçır. Aslanın qaçmasını öz xidməti sayan ulaq cəsarətlənib onu təqib etməyə başlayır. Bir qədər gedəndən sonra aslan geri dönüb, onu təqib eləyən ulağı parçalayır. Öz səhvini son nəfəsdə anlayan ulaq təəssüflə deyir:

- Gücümü mən bilə-bilə nahəq,

Şirə qıldım hücum mən əhməq.

Mən bilirdim bu aslanın hünərin,

Çəkirəm indi səhvimin zərərin.

Təmsildən belə bir əxlaqi-tərbiyəvi nəticə çıxır ki, hərə yalnız öz bacardığı işdən yapışmalı, gücü çatmayan işdən kənar durmalı, özünü düşünmədən təhlükəyə atmamalıdır.

A.Səhhətin **"İt və kölgəsi"** təmsili acgözlüyün, tamahkarlığın acı nəticələrinə həsr olunmuşdur. Ağzına sümük almış it körpüdən keçərkən suda öz əksini görür. Öz əksini başqası sayan acgöz it onun da sümüyünü ələ keçirmək üçün suya tullanır və nəticədə ağzındakı sümüyü də itirir. Bu təmsildən çıxan nəticə "Çox yemək insanı az yeməkdən də qoyar" atalar sözünə uyğun gəlir. Bununla şair uşaqları acgözlük kimi mənfi sifətdən çəkindirmək istəyir.

«Sərçə və Qırğı» təmsili də ibrətamiz bir məsələyə həsr olunmuşdur. Əsərdə qırğının sərçəni qovarkən cütçünün qurduğu tələyə düşməsi təsvir olunur. Qırğı cütçüdən onu buraxmasını xahiş edir:

İstər idim ovlamağa sərçəni

Sən niyə nahaq yerə tutdun məni?

Verməmişəm mən ki xəsarət sənə,

Sən də dəxi vermə əziyyət mənə.

Göründüyü kimi, qırğı günahsız sərçənin canına qıyır, onu məhv etmək istəyir, özü tora düşəndə isə çığır-bağır salır, cütçünü günahlandırmağa çalışır. Cütçü qırğının sözlərini diqqətlə dinlə-yərək ona sərrast və məntiqli cavab verir:

…Bircə mənə qıl bəyan,

Sərçə veribdirmi sənə bir ziyan?

Qəsd eləmişdin nə üçün canına,

Olmuş idin təşnə onun qanına?

Bu suala cavab verməyə qırğı söz tapa bilmir. Çünki əkinçinin onun barəsində dedikləri inkaredilməz bir həqiqətdir. Şair təmsilin sonunda məsələyə ictimai məzmun verərək haqqı, ədaləti tapdalayanlara üz tutaraq deyir:

Xalq ilə hər kəs necə rəftar edər,

Haqq onu ol dərdə giriftar edər.

Yaxşılığa yaxşı cəzalar alar,

Pisliyə həm dürlü səzalar alar.

«Tülkü və Qurd» təmsilində tülkünün çöldə gəzəndə quyuya düşməsindən bəhs olunur. Təsadüfən yolu həmin yerdən düşən qurd quyunun boş, yoxsa dolu olmasını yoxlamaq istəyir. Yuyuda əlini hər yerdən üzmüş tülkü qurdu görəndə onu bu təhlükədən qurtarmağı xahiş edir. Qurd bu dar macalda əmələ yox, sözə güc verir. Tülküyə üz tutub deyir ki, sənin halına çox yanıram, axşam nə edəcəksən, gündüz halın necə olacaq? Tülkü cavabında deyir ki, bu boş sözlərdən nə çıxar? Yaxşısı budur, mənə bir ip gətir, nicat tapım. Əsər aşağıdakı əxlaqi nəticə ilə bitir:

Yoxsa ki, etməz quru söz iktifa,

İş gərək olsun, nə əbəs iddia.

A.Səhhətin **«Güllərin bəhsi» adlı alleqoriyasında** müxtəlif güllərin xüsusiyyətlərindən bəhs edilir. Məlumdur ki, ədəbiyyatımız üçün bu təsvir üsulu yeni deyildir. Hələ mütəfəkkir şairimiz Məhəmməd Füzuli «Söhbətül-Əsmar» («Meyvələrin söhbəti») əsərində bu üsuldan istifadə edərək klassik sənət nümunəsi yaratmışdır. Həmin mövzuya bir qədər fərqli şəkildə XX əsrin əvvəllərində ədəbiyyatımızın korifeylərindən olan Mirzə Ələkbər Sabir də «Ağacların bəhs» əsərində müraciət etmişdi. A.Səhhət bu ənənəvi mövzuda yeni yol seçmiş, güllərin bəhsinin təsviri ilə ilk növbədə uşaqların təbiət, güllər haqqında təsəvvürlərini genişləndirməyə, biliyini artırmağa çalışmışdır. Oxucu əsərdən qızılgülün, ağ zanbaq və şəbbu gülünün xüsusiyyətlərini öyrənir. Hər gülün öz gözəlliyindən, ətrindən, təravətindən söz açması oxucuya bu barədə yeni bilik əldə etmək imkanı verir. A.Səhhət uşaqların düzgün nəticə çıxarması üçün yazdığı hər bir əsəri əxlaqi-tərbiyəvi mülahizələrlə tamamlayır. Ədibin təmsilləri uşaqların təlim-tərbiyəsinə müsbət təsir göstərmək, onları düzgün yola istiqamətləndirmək baxımından indi də çox əhəmiyyətlidir. A.Səhhətin tərcümələri içərisində M.Lermontovun **«Mtsıri»** poeması xüsusi qeyd olunmalıdır. Əsərdə vətənə məhəbbət ideyası öz bədii əksini tapmışdır. Bəlkə də şairi bu əsərin tərcüməsinə sövq edən oradakı vətənpərvərlik motivləri olmuşdur. Məlum olduğu kimi, bu mövzu şairin öz bədii yaradıcılığında da aparıcı yer tutur. Poemada ruslara əsir düşmüş xəstə dağıstanlı oğlandan bəhs edilir. Monastrda onu müalicə edib sağaldırlar. Azadlıq həsrəti ilə yaşayan uşaq sağalandan sonra əsirlikdən qaçır. Lakin onu izləyib tutur, geri qaytarırlar. Əsir uşaq düşmən torpağında firavan yaşamaqdansa, ölməyi üstün tutaraq intihar edir. Əsərdə vətən məhəbbəti ilə yanaşı, azadlıq eşqi, dözümlülük, məğlubedilməzlik, düşmənə nifrət hissi öz əksini tapmışdır. Düş-mən nə qədər güclü olsa da, balaca uşağın vətən eşqinin, azadlıq arzusunun qarşısının ala bilmir, iradəsini əyə bilmir. Vətən, azadlıq uğrunda ölən uşaq əslində bir şəhid kimi ölməzliyə ucalır. A.Səhhət tərcümə etdiyi əsərlərin ideya-məzmununa ciddi diqqət yetirmişdir.

Bu baxımdan İ.Krılovun **«Balıq, Ördək və Xərçəng» təmsilinin tərcüməsi** dediklərimizə nümunə ola bilər. Məlumdur ki, həmin təmsilin əsas ideyası həyatda hər bir işdə əlbir fəaliyyətin, birliyin zəruriliyi fikridir. Yüklü araba tapan balıq, ördək, xərçəng onu yerindən tərpədib apara bilmir. Məlum olur ki, onların hər birinin araba ilə bağlı öz arzusu var:

Ördəyin meyli göyə uçmaq idi,

Balığın qəsdi suya qaçmaq idi,

Gərçi xərçəng də güc etməkdə idi,

Fikri, heyfa, geri getməkdə idi.

Burada kim haqlı, müqəssir kimdir?

Qoy onu bilsin o kim hakimdir.

Əsərin ideyası «Güc birlikdədir», «Tək əldən səs çıxmaz», «Birlik harada, dirilik orada» kimi Azərbaycan atalar sözləri ilə səsləşir. Ədib bu təmsildəki əxlaqi-tərbiyəvi nəticəni uşaqlara daha aydın çatdırmaq üçün sadə dillə tərcümə etməyə çalışmış və buna nail olmuşdur. Şeir uşağın dilinə asanlıqla yatır və yadda qalır.

Azərbaycan uşaq şeirini ideya-bədii məzmun baxımından zənginləşdirən A.Səhhətin özünəməxsus yazı üslubu, orijinal yaradıcılıq laboratoriyası vardır. O, uşaq aləmini dərindən bilir, uşaq dünyasının incəliklərindən ustalıqla baş çıxarırdı. Şair öz əsər-lərində hər sözü, ifadəni yerində, zərgər dəqiqliyi ilə işlətmiş, doğma dilin, şifahi xalq ədəbiyyatının xəzinəsindən bəhrələnərək uşaq ədəbiyyatının klassik nümunələrini yaratmışdır. Dərin ictimai məzmun, yüksək bədii şeiriyyət onun əsərlərininin başlıca keyfiyyətləridir.

Ədəbiyyat

1. **Fərhadov F., Hacıyev A. Azərbaycan uşaq ədəbiyyatı tarixi. Bakı, 1986.**
2. Xəlil Z., Əsgərli F. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 2004.
3. Hacıyev A., Fərhadov F. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1976.
4. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1974.
5. Məmmədov Ə.Azərbaycan uşaq ədəbiyyatı. Bakı, 1977.
6. Mir Cəlal., Hüseynov F. XX əsr Azərbaycan ədəbiyyatı. Bakı, 1982.
7. Namazov Q. Azərbaycan uşaq ədəbiyyatı.Bakı:BDU-nun nəşri, 2007.
8. Orucəliyev İ. Uşaq ədəbiyyatı nümunələrinin təhlili və tədrisi xüsusiyyətləri. Bakı: Müəllim, 2004.
9. Səhhət A., Şaiq A. Seçilmiş əsərləri. Bak: Çaşıoğlu, 2006.
10. **Talıbzadə K. Sesilmiş əsərləri 2 cilddə, 1 cild. («Abbas Səhhət»).- Bakı, 1991.**

THE PROBLEM OF MAN AND NATURE IN ARCHAIC FOLKLORE GENRES
ARXAİK FOLKLOR JANRLARINDA İNSAN VƏ TƏBİƏT PROBLEMİ

QÜDRƏT UMUDOV

ADPU-nun dosenti,

filologiya üzrə fəlsəfə doktoru

Bakı, Azərbaycan

https://orchid.org/0009-0001-2991-2316

UOT: 398.folklor

ÖZƏT

Uca yaradan təbiəti insan üçün yaratmış və onu bütün flora-faunası ilə birlikdə yaşaması, ömür sürməsi üçün, Həyat və ruzi mənbəyi olaraq yaradılmışların ixtiyarına vermişdir. İlk yaradılışdan bəşər övladı ekosistemlə təmasda olmuş, onda baş verən hadisə və proseslərdən bəzən qorxub ona tapınaraq sitayiş etmiş, bəzən də müxtəlif magik vasitə və üsullarla qabaqlayıcı tədbir alıb xilas olmağa təşəbbüs göstərmişdir. İstər çətin vəziyyətlərdə, istərsə də xoşbəxt, xoş ovqat anlarında insan sözsüz, nəğməsiz keçinməmiş, hər iki halda söz və nəğmənin sehrindən faydalanmağa çalışmışdır. Bu o deməkdir ki, mövcud olduğu bütün zamanlar ərzində - min illər boyu folklor bədii sənət olaraq insana yoldaşlıq etmiş, onun ruhani stimuluna çevrilmişdir.

Konfransa təqdim etdiyimiz bu məqalədə biz Azərbaycan türklərinin insan və təbiət münasibətlərini özündə əks etdirən bəzi arxaik folklor janrlarını araşdırma müstəvisinə çıxarmış, mifologiya, mərasim folkloru, əmək nəğmələri və digər qədim folklor örnəklərimizi qısaca təhlil etməyə səy göstərmişik.

Açar sözlər: folklor, arxaik, mif, əmək nəğməsi, inanc.

ABSTRACT

The Supreme Creator created nature for man and gave it to the creatures to live and live with all its flora and fauna, as a source of life and sustenance. Since the first creation, the human race has been in contact with the ecosystem, sometimes fearing the events and processes occurring in it, worshiping it, and sometimes taking preventive measures and using various magical means and methods to save it. Whether in difficult situations or in happy, pleasant moments, people have never lived without words and songs, and in both cases, they have tried to benefit from the magic of words and songs. This means that during all the times of its existence - for thousands of years, folklore has accompanied man as an artistic art and has become his spiritual stimulus. In this article presented to the conference, we have brought some archaic folklore genres of Azerbaijani Turks to the level of research, which reflect human and nature relations, and tried to briefly analyze our mythology, ceremonial folklore, labor songs and other ancient folklore examples.

Key words: folklore, archaic, myth, labor song, belief.

Yaradılış məsələsi daim qədim insanları düşündürmüş, onlar dünyanın necə yaranması ilə bağlı sualın cavabını öz təsəvvürlərində formalaşdırmağa çalışmışlar. Həmin təsəvvürlərdən birinə görə, “əvvəllər Yer və Göy yox imiş, dünya yekə, çox yekə yumru şey imiş.

Sonra Yaradan bu nəhəng yumrunu ikiyə bölür. Üst tərəfi yuxarı qalxıb Göy olur, aşağı tərəf Yer olur. Yer torpaq, su olur. Göy isə hava... Allah Göyü bəzəmək üçün gün, ay və ulduzları onun üzərinə düzür...” Başqa bir Azərbaycan mif mətnində belə deyilir: Lap qabaxlar Allahdan başqa heç kim yox imiş. Yer üzü də başdan ayağa su imiş, Sora Allah suyu lil eləyir. Lili də qurudub torpax eləyir. Torpaxdan bitkiləri cücərdir. Sonra da torpaqdan palçıq qayırıb ondan insanları yaradır. Üfləyib onlara can – ruh verir” [1, s.35]. Ətraf aləmin sirli görünməsi, təbiətdə baş verən hadisələr (səma cisimlərinin hərəkəti, qorxu və fəlakətə səbəb olan fiziki kürəsəl proseslər) qədim dünya insanına təsirini iki cür göstərmişdir: 1) Hər cür qorxulu hadisə və varlıqlara qarşı insan tədbirli olub onu dəf etmək, sovuşdurmaq cəhdi etmişdir ki, bu cəhdlə *magiya* meydana gəlmiş, magik rituallar icra olunmuşdur. 2) İnsan qorxaraq fövqəl gücə baş əymiş, hər hansı fəlakət gətirən, qorxunc hadisə və ya varlığa tapınmış, fetişləşdirərək ona səcdə etmiş, rituallar icra edib, qurbanlar verməklə ondan (qəzəbdən) xilas olmağa çalışmışdır. Əcdadlar təbiətə qarşı bu və ya digər münasibəti, hiss və duyğularını icra etdikləri ayinlərdə sözə və nəğməyə çevrirərək həyatlarını mənalandırmışlar. İl boyu təbiəti müşahidə edən insan bu qənaətə gəlmişdir:

Üçü bizə yağıdı,

Üçü cənnət bağıdı,

Üçü yığıb gətirir,

Üçü vurub dağıdır.

Əcdadlarımızın təbiətlə təmas halında görüb müşahidə etdikləri olaylar onlarda bəzi qənaətlər formalaşdıraraq inanclara çevrilmişdir. Məsələn: *Ay üçgünlük olanda budaq budanmaz, ağac kəsilməz, toxum səpilməz;* Ay çıxanda onu görənin işi uğurlu olar;Bəhər üstə ağacı kəsməzlər, ağac yiyəsinə ziyan dəyər; Qaranquş aşağıdan uçanda yağış yağar; Dağdağan ağacını kəsmək xeyir gətirməz; Əncir ağacını kəsməzlər; Yarpız olan həyətdə ilan olmaz; Gün tutulanda mis qabı, qazanı döyəcləyərlər; Ürəyində arzu tutub axar suyun üstündən 3 dəfə tullansan arzun çin olar; Üzərrik tüstüsü bəd nəzəri, qoxunu ötürər və s. Təbiətə sakral münasibət arxaik folklor janrlarının, demək olar, hamısında özünü göstərməkdədir. Miflərdə, əfsanələrdə, inanclarda, əfsun və folklorda, türkəçarələrdə, yuxu yozmalarında, atalar sözləri, zərbi-məsəl və tapmacalarda təbiət ünsürlərini, göz oxşayan gözəllik elementlərini, təbiətin qudsal özəlliklərini ifadə edən nəsnələri istənilən qədər tapmaq, görmək mümkündür. Belə folklor janrlarından bəzilərinə diqqət yertirsək mətləbimiz aydınlaşar. Təbiətlə bağlı atalar sözləri: Adam başdan, ağac yaşdan yıxılar; Ağac yaş ikən əyilər; Ağacı çox olan kəndin məzarı az olar; Ağac meyvəsilə tanınar; Ağac əkənin ömrü uzun olar; Alçaq dağa qar yağmaz; Almanı soy ye, armudu say ye! ; Arı yuvasına çöp uzatma; Aslan tülkü kölgəsində yatmaz; At təpiyinə at dözər; Ay, işığı Günəşdən alar; Bahar küləyi cana sağlamlıq gətirər; Bağa baxarsan bağ olar, baxmazsan dağ olar; Bal verən çiçəyi arı tanıyar; Balığı nə vaxt tutsan təzədir; Balta görməyən bağ meşə olar; Balalı heyvana güllə atmazlar; Bir gül ilə bahar olmaz; Bülbülə kol dibi qızıl qəfəsdən xoşdur; Canavarlar ağız-ağza yatar; Dağ başı duman olar; Eyni çiçəkdən ilan zəhər toplayar, arı bal; Günəş girməyən evə tez-tez həkim girər; Göy ağlamasa, yer gülməz; Yağış isladar, Gün qurudar və s.

Tapmacalar:

Bir atım var,
Sakit durmaz.
Hey yol gedər,
Heç yorulmaz. (Yel)

Bir tabaq almaz,
Sabaha qalmaz. (Ulduz)
Dəyirmi təpə,
Qızıldan küpə. (Günəş)

Ağ sandığım açıldı,
İçindən nur saçıldı. (Sübh çağı)

Yaşıldı əbası,
Sarıdı libası. (Badam)

Bir sinidə iki toyuq,
Biri isti, biri soyuq. (Günəş və Ay)

Ayağı yoxdur qaçır,
Qanadı yoxdur, uçur. (Bulud)

Mavi atlas,
İynə batmaz,
Qayçı kəsməz
Tərəzi çəkməz. (Göy, səma)

Babanın bir donu var,
İçi dolu abbası...
Gündüz girər kisəyə,
Gecə çıxar eşiyə. (Göy, ulduzlar)

Ay gedər, ha il gedər,
Gecə gündüz yol gedər.
Nə dili var, nə ağzı
Nərildər, aslan gedər. (Su)

Yer üzünün qarası,
Ağacların anası
Qırmızı nar,
Hər evdə var. (Od) – və s.

Mərasim folkloru ümumən iki qismə ayrılır: 1) mövsüm mərasimləri 2) məişət mərasimləri. Adından göründüyü kimi, mövsümlərlə bağlı düzənlənən mərasimlər ana təbiətin harmoniyası ilə bağlı olaraq ortaya çıxmışdır. Mövsümlərlə bağlı mərasimlər bütün ili əhatə etmişdir. Qısa hazırlıq, çillə mərasimləri ilə başlayıb məhsul yığımı, payızda keçirilən məhsul bayramları ilə yekunlaşmışdır. Böyük çillənin girməsilə çillə mərasimləri başlar, müxtəlif nəğmələr oxunarmış. Böyük və kiçik çillə haqqında xalq belə oxuyarmış:

Böyük çillə
Boyu bir belə,
Gəldi elə
Gülə-gülə,
Getdi gülə-gülə.
Ağ gülünü də
Göstərdi.
Ağ dilini də göstərdi.
Nə nənəmi dağlatdı,
Nə bir uşağı ağlatdı...
Tay qoydum karvanına,
Taylı olsun.
Pay qoydum xurcununa,
Paylı olsun....

Kiçik çillə...
Boyu bir belə...
Hikkəsi ir belə...
Gəlişi oldu hayınan,
Gedişi oldu vayınan.
Əlində qırmanc
Eli-günü yandırdı
Neçə günahsız doqqaz bağladı,
Neçə ala qapı sındırdı.
Kəsdi neçə evin yağmasın.
Pendirin, çörəyin, ağmasın.
Axırda zara gəldi el,
Oturub şər üstündə
Zarın-zarın ağladı el.

Kiçik çillənin 9-10-cu günlərində "Xıdır" mərasimi keçirilərdi. Xıdır Nəbi – Xıdır İlyas yazın müjdəçisi sayılır .Xıdırdan bir gün qabaq sinini qovut-qorğa ilə doldurub yük yerinə qoyardılar. Axşam çağı uşaqlar evlərə torba sallar və oxuyardılar:

Xanım ayağa dursana,
Yük dibinə vursana,
Boşqabı doldursana
Xıdırı yola salsana.

Çatma, çatma, çatmaya,
Çatma yerə batmaya.
Xıdır payın kəsənin
Ayağı yerə çatmaya,
Gecə evində yatmaya.

Kiçik çilə fevralın 20-si bitər, boz ay – İlaxır çərşənbələr başlardı. 1-ci çərşənbə *"Əzəl çərşənbə"*dir. Buna el arasında "Su çərşənbəsi", "Gül çərşənbə" də deyilərdi. 2-ci çərşənbə *"Od çərşənbəsi"*dir. Ona "Üskü çərşənbə", "Addı çərşənbə" və s. də deyilər. Çərşənbələrin 3-cüsü *"Yel çərşənbəsi"* adlanmışdır. "Yelli çərşənbə", "Külək oyadan çərşənbə" də adlanır. Sonuncu, ilin axır 4-cü çərşənbəsi *"Axır çərşənbə"*, yaxud *"Torpaq çərşənbəsi"* və s. kimi tanınır.

Nəhayət bayramın özü – *Novruz* yetişər. Bu böyük el bayramı Vətənimizdə həmişə böyük təmtəraqla qeyd edilmişdir. Çərşənbələrdə və Novruzda icra olunan "Kosa-kosa" mərasimi bayrama bir ayrı əhval qatardı.

Bayram iştirakçıları belə oxuyardılar:

Novruz, novruz bahara,
Güllər, güllər nübara,
Bağçamızda gül olsun,
Gül olsun, bülbül olsun.

Yaxud:

Bahar gəldi, bahar gəldi, xoş gəldi,
Xəstə könül onu görcək dirçəldi.

Şənliklərdə hamı yanan tonqalın üstündən tullanar, ağız-ağıza verib nəğmə söyləyərdi. Ərgən qızlar, məsələn, belə oxuyardılar:

Ağrım-uğrum tökülsün,
Oda düşüb kül olsun.
Yansın alov saçılsın,
Mənim baxtım açılsın.

Yazın gəlməsi ilə insanın təbiətlə təması, əlaqəsi daha daha da güclənər. Yaz aratı başlanar. İş-güc, qayğı çoxalardı. Əkin işi həm payızda, həm də yazda yerinə yetirilər. Əvvəlcə şum çıxarılar, sonra da əkin-toxum səpini başlardı. Əkinçi nəğmələri təbiətlə, iqlimlə birbaşa bağlı olub, mərasimlərdə - əmək prosesində, onu yüngülləşdirmək üçün oxunar, onunla uca Yaradandan, təbiətdən, ana torpaqdan bol ruzi istənilərdi. Silsilə olaraq oxunan əkinçi nəğmələrinin bəzilərinə diqqət yetirək. Payız əkini vaxtı cütçü öküzlərini belə səslərdi:

Oho, oho, öküzüm,
Sel gəldi, ho, sel gəldi.
Huşa, huşa, maralım,
Yel gəldi, ho, yel gəldi.

Oho, oho, öküzüm,
Qar gəldi, ho, qar gəldi.
Huşa, huşa, maralım,
Sel gəldi, ho, sel gəldi.

Yazda isə novruzdan sonra əkinə çıxıb toxum səpərlər. O zaman cüt sürən əkinçi deyər:

Novruz gəldi, öküzüm, ho,
Novruz güldü, öküzüm, ho.
Sənin daşdabanlığuvu
Novruz bildi, öküzüm, ho!

Buğdam səməni oldu,
Öküzüm ho, öküzüm, ho!
Səməni yeməli oldu,
Öküzüm ho, öküzüm, ho!

Məhsul yetişənə qədər əkinçi xeyli həyəcan keçirər, zəhmət çəkər. Yağışın olmaması bir dərd, yağıntının çox olması da başqa dərd...

Hələ çillələr girəndə insanlar gələcəyin bol məhsul arzu-xəyalı ilə bol qar arzulardı. Çünki payız əkini üçün qar çox vacib idi. Ümumiyyətlə, yaz-yayda suyun bolluğu qışda yağan qardan asılıdır.

Ağ örpəyim
Tülüm gəl,
Ay, ağ gülüm,
Gülüm gəl ...
Əkinimin yorğanı.
Qara kəlin dərmanı.

Ağ örpəyim.
Tülüm gəl,
Ay ağ gülüm,
Gülüm gəl.

Torpaq adamının yaz qayğıları daha çox münasib, mübah keçən hava – yağıntı lazım olanda yağış, isti lazım olanda günəş ilə bağlı olmuşdur. Yağış istəyəndə də, günəşi dəvət zamanı da xüsusi rituallar keçirilmiş, təbiəti ovsunlamaq üçün icraçı – ovsunçu əfsun nəğmələri oxumuşdu. İki çaxmaq daşını bir-birinə vurub qığılcım çıxarmaqla sanki, ildırım, şimşək effektini emitasiya edənlər belə oxumuşlar:

Çax daşı,
Çaxmaq daşı,

Allah versin
Yağışı.

Yaxud yağıntının bol olduğu yerlərdən, məsələn Baba dağından gətirilmiş, ipə keçirilmiş daşları suya salıb deyərmişlər:

Dağ daşı,
Baba daşı

Allah versin
Yağışı.

İnam var idi ki, bu ayindən sonra yağış yağacaq.Bəzən, doğrudan da yağış çiləyər, əkərəyi suvararmış. Yağış istəyi ilə bağlı başqa əfsun nəğmələri də vardır. Yağış aramsız yağdıqda, insanlar bunun əksi olan rituallar təşkil etmiş, qodu bəzəmiş, Günəşi haraylamışlar. “Qodu qodu” mərasimində, məsələn Baba dağından gətirilmiş daşlar bu dəfə ocağın külünə basdırılar. Həmin ocaqda xəmiraşı bişirərdilər. Bu Qodu üçün edilərdi. Əfsunçu oxuyardı, uşaqlar da xorla təkrar edərdi:

Qodu daşı,
Odu daşı,

Qodu kəssin
Yağışı.

Yaxud daha sonra əfsunçu uşaqların müşayəti ilə belə oxuyardı:

Odu daşı,
Budu daşı,
Buluddarın
Gudu daşı.
Bişirmişəm
Xəmiraşı.
Qonaq gəlsin
Qodubaşı,
Gətirsin
Qızıl günü.
Aparsın
Yağışı.

Yağışı bitirmə, günəşi çağırma halları ilə bağlı mərasimlərdə hər yerin öz ritualı, öz nəğmələri olmuşdur. Onlar formaca, səslənmə baxımıdan fərqli görünsələr də mahiyyət eynidir. İki nümunə :

Duman qaç, qaç, qaç!
Pərdəni aç, aç, aç!
Səni qayadan asaram,
Buduna damğa basaram.
Gün çıx, çıx, çıx!
Kəhər atı min, çıx!
Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü,
Keçəl qızı qoy evdə,
Saçlı qızı götür, çıx!

Həftələr keçər toxum göyərər, aylar keçər sünbüllər dənə dolar, rəncbər bunu görüb belə sevinər:

Tarlada tər tökərəm,
Hər yaz səni əkərəm.
Hər nazını çəkərəm,
Sarı sünbülüm, sarı,
Sarı sünbülüm, sarı.
Eli, günü bəzərsən,
Gözlər üstə gəzərsən.
Hər gözəldən gözəlsən,
Sarı sünbülüm, sarı,
Sarı sünbülüm, sarı.

Məhsulları yetişdikdə əkinçilər yoldaşlaşıb biçinə çıxarlar. Bu zaman kəndlinin üzü gülər, bol məhsulla təbiət onları sevindirər. Əkinçi şuxluqla oxuyar:

Biçinçiyəm, işim gücüm biçimdir,
İşləməyim səadətim üçündür, ay üçündür.
İşləyirəm, çalışıram balalarım tox olsun, ay tox olsun,
Uruzumu yetirənə şükrüm, sənam çox olsun, ay çox olsun.

İnsanlar yaranışdan təbiətin fövqəl gücünə daim tapınmış, ona istinad, itaət etmiş, bəzən də onun gücünün təzahür formalarından istifadə edərək faydalanmağa çalışmışlar. Belə nəsnələrdən, təbiətin fiziki hadisələrindən biri külək (yel)dir. Əcdadlar küləyin gücündən faydalanaraq işlərini aşırmış, ondan xeyir görmüş, cavab olaraq, minnətdarlıq hissi ilə antropomorflaşdırıb sakrallaşdırdıqları küləyi – Yel Babanı könüldən gələn nəğmələri ilə vəsv və tərənnüm etmişlər. Məsələn, biçindən sonra xırman mərasimi başlar, Vəl ilə sünbül dərzlərini döyüb küləşi araladıqdan sonra, xırda samanı – haşamı dəndən ayırmaq üçün sovruq atardılar. Bu zaman küləyin əsməsi, olması vacib idi. Onun üçün də mifoloji ilah, küləklər sahibi Yel Baba köməyə çağrılar, ondan kömək – yardım istənərdi:

A Yel Baba, Yel Baba,
Tez gəl, baba, gəl, baba.
Sovur bizim xırmanı,
Atına ver samanı.
Dən yığılıb dağ olsun,
Yel babamız sağ olsun.

A Yel Baba, Yel Baba,
Qurban sənə, gəl, baba.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.
A Yel Baba, Yel Baba,
Qurban sənə, gəl, baba.

Yurdumuzun bəzi bölgələrində küləklər sahibini "Heydər" adı ilə anıb çağırırmış, bəzən isə sadəcə "Gilavar" deyə səsləmişlər:

Heydər, Heydər, əsə gəl,
Yeddi xırman basa gəl!
Qırıldı oğul-uşaq,
Dəsmal götür yasa gəl.

Heydər, Heydər çörək ver!
Kişilərə ürək ver.
Xırmanları yığmağa
Sərin-sərin külək ver.

Yaxud:

Heyva, narın iyi gəlir,
Əs, ey gilavar, gilavar.
Güldən xarın iyi gəlir.

Əs, ey gilavar, gilavar.
Səndən yarın iyi gəlir,
Əs, ey gilavar, gilavar.

Gərəkli, işə yarayan, ipə-sapa yatan küləyə, yayda əsən sərin mehə insanların daim ehtiyacı olmuşdur. Yağış arzulayanda buludları qovub gətirmək, aramsız yağışlar zamanı buludları qovub uzaqlaşdırmaq diləyi ilə, hərəkətsiz Yel dəyirmanını işə salmaq üçün küləyə - Yel babaya, Heydərə, Gilavara üz tutub kömək istəmişlər. Ana təbiət də insanlara iltifat göstərib cavab vermiş, köməyini əsirgəməmişdir. Folklorumuzun elə bir janrı yoxdur ki, orada təbiət – insan münasibəti əksini tapmasın. Hər üç üslubda (növdə) bunu görmək mümkündür. Biz onlardan daha qədim olanların bir qismini gözdən keçirdik. Gələcək yazılarımızda digər janrları da araşdırmağı nəzərdə tuturuq.

Ədəbiyyat:

1. Azərbaycan mifoloji mətnləri, Bakı, 1988.
2. Xalqımızın deyimləri və duyumları. Toplayan və tərtib edən M.Həkimov. Bakı, 1986.
3. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: "Elm və təhsil", 2012, 600 s.
4. Eldarova Ə. Aşıq sənəti haqqında tarixi oçerk. "Azərbaycan incəsənəti", 8-ci cild, 1962.
5. Novruz bayramı. (toplayıb nəşrə hazırlayan
6. İlaxır çərşənbələr. Bakı, 1992, 97 s.
7. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə, I cild – Bakı: Elm, 2004, 760 s.
8. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I hissə, Bakı, "Turan" nəşrlər evi, 2002, 680 s.
9. Azərbaycan xalq əfsanələri (toplu, tərtib edən S.Paşayev) Bakı: Yazıçı. 1988, 287 s.
10. Azərbaycan nağılları (Tərtib və önsöz B.Abdullayev), Bakı: Çaşıoğlu, 2004, 512 s.

COMPARISON OF SYNTACTIC-SEMANTIC FEATURES OF INCOMPLETE SENTENCES AND IMPERSONAL SENTENCES

YARIMÇIQ CÜMLƏLƏRLƏ ŞƏXSSİZ CÜMLƏLƏRİN SİNTAKTİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİNİN MÜQAYİSƏSİ

ƏDALƏT ABBASOV

Filologiya Elmləri Doktoru,

ADPU-nun Azərbaycan dili və onun tədrisi texnologiyası kafedrasının dosenti

XÜLASƏ

Müasir Azərbaycan dilçiliyinə aid elmi ədəbiyyatda sabitləşən fikir və mülahizələrə əsasən demək mümkündür ki, şəxssiz cümlələrdə qrammatik şəxsin (mübtədanı) və ya onun təsəvvürü qeyri-mümkündür. Mübtəda və xəbərin cümlədə faktiki iştirak etməsi bu cümlə konstruksiyaları arasında zahiri forma oxşarlığı yaradır. Lakin bu xarici analoji struktura malik olmaları onların eyni cümlə tipləri olması anlamına gəlməməlidir:

a) Şəxssiz cümləni yarımçıq cümlədən fərqləndirən əsas əlamət budur ki, şəxssiz cümlədə mübtəda nəinki iştirak etmir, onu mətnin, həmçinin özündən əvvəlki cümlələrin vasitəsilə də müəyyən etmək mümkün deyil.

Yarımçıq cümlələrdə isə buraxılan mübtədanı asanlıqla bərpa etmək olur.

Beləliklə, mətn şəraitindən asılı olmayaraq öz qrammatik quruluş və formaları baxımdan yarımçıq cümlələr ilk baxışda təktərkibli cümlələrə bənzəsə də, lakin onların işlənmə məqamına, cümlə kimi daşıdığı kommunikativ funksiyasına, ifadə etdiyi mənasına və üslubi-semantik xüsusiyyətinə və s. yeni mənalar məcmusundan ibarət cümlə modelidir. Bu cümlə strukturları ilk növbədə adlarındakı məna müxtəlifliyinə görə bir-birindən fərqlənir. Belə ki, "yarımçıqlıq" anlayışı ilə "təktərkiblik" terminləri ayrı-ayrı mənaların ifadəçisi olan istilahlardır.

Yuxarıda müqayisə obyekti olaraq söylədiyimiz fikirləri ümumiləşdirəsi olsaq, aşağıdakı nəticəni almış olarıq:

1. Təktərkibli cümlələrdə baş üzvlərdən birinin iştirak etməməsindən asılı olmayaraq, tam fikir ifadə etdikləri üçün bütöv cümlə hesab edilir.

Yarımçıq cümlələr isə bütöv fikir ifadə edə bilmədiyi üçün yarımçıq cümlə hesab olunur. Yarımçıq cümlələr sadəcə sintaktik həcminə görə bütöv cümlələrə yaxın hesab edilir, lakin struktur oxşarlıqdan söhbət gedə bilməz.

Yarımçıq cümlələr sintaktik-semantik əlamətinə görə işlənmə mövqeləri baxımdan dialoji nitq üçün səciyyəvidir. Dialoq itsə şifahi nitqin tərkib hissəsi sayılır.

2. Yarımçıq cümlələr mətn xaricində, yəni mətnlə əlaqəsi olmadan heç bir fikir ifadə etmir. Təktərkibli cümlələrdə vəziyyət tamamilə fərqlidir. Öz qrammatik quruluşuna və məntiqi xüsusiyyətlərinə görə təktərkibli cümlələrdə deyilməyən (adı çəkilməyən) bir üzvü heç bir vəchlə təsəvvür etmək və onu müvafiq sual vasitəsilə tapıb öz yerinə bərpa etmək mümkün olmur.

3. Üslubi-semantik mövqeləri və işlənmə məqamları cəhətdən də bu cümlə konstruksiyaları sintaktik-semantik əlamətləri baxımından bir-birindən fərqlənir. Belə ki, nitqdə ifadəlilik yaratmaq, lüzumsuz təkrarın qarşısını almaq, obrazlılığı təmin etmək məqsədilə yarımçıq cümlələrdən istifadə edildiyi halda, təktərkibli cümlələrdə bu cür üslubi variantlardan yalnız müstəsna hallarda nitq zamanı subyektə fikrinin ifadəsi ərəfəsində zərurət yarandığı məqamda istifadə edilir.

Açar sözlər: üslubi-semantik mövqe, şəxssiz cümlə, yarımçıq cümlə, mətn şəraiti, təktərkibli cümlələr, müqayisə obyekti, buraxılan üzv, analoji struktur, bütöv cümlə, sintaktik əlamət, qrammatik quruluş

SUMMARY

According to the ideas and considerations established in the scientific literature of modern Azerbaijani linguistics, it is possible to say that in impersonal sentences, the grammatical person (mubtadani) or its imagination is impossible. The actual participation of the messenger and the news in the sentence creates a similarity of appearance between these sentence constructions. However, the fact that they have this external analogical structure does not mean that they are the same sentence types:

b) that distinguishes an impersonal sentence from an incomplete sentence is that in an impersonal sentence, the subject is not only absent, but it cannot be determined through the text, as well as through the preceding sentences.
In incomplete sentences, it is easy to restore the omitted verb.
Thus, regardless of the text conditions, even though incomplete sentences look like single-component sentences in terms of their grammatical structure and forms at first glance, they differ in terms of their elaboration, communicative function as a sentence, expressed meaning and stylistic -semantic features, etc. is a sentence model consisting of a set of new meanings. These sentence structures differ from each other primarily due to the variety of meanings in their names . Thus, the concepts of "incompleteness" and " uniqueness " are terms expressing separate meanings.
Summarize the ideas we said above as an object of comparison , we would get the following result:
1. Regardless of the absence of one of the main members , they are considered a complete sentence because they express a complete idea.
Incomplete sentences are considered as incomplete sentences because they cannot express a complete idea. Incomplete sentences are considered close to complete sentences simply by their syntactic volume, but there is no question of structural similarity.
Incomplete sentences are typical for dialogic speech in terms of processing positions due to their syntactic-semantic features. Dialogue is considered a part of oral speech.
2. Incomplete sentences do not express any idea outside the text, that is, without connection with the text. The situation is completely different in simple sentences. Due to its grammatical structure and logical features, it is impossible to imagine a member that is not mentioned (not named) in single-component sentences and to find it and restore it to its place through a corresponding question.
3. Stylistic -semantic positions and points of elaboration, these sentence constructions differ from each other in terms of syntactic-semantic features. Thus, while incomplete sentences are used in order to create expressiveness, prevent unnecessary repetition, and ensure imagery, such stylistic options are used in single-component sentences only in exceptional cases when the need arises for the subject to express his opinion during the speech.

Key words: stylistic -semantic position, impersonal sentence, incomplete sentence, text conditions, simple sentences, object of comparison, omitted member, analogical structure, whole sentence, syntactic feature, grammatical structure

LƏNKƏRAN REGİONUNUN FOLKLOR VƏ ETNOQRAFİK İRSİNİN TƏDQİQİ VƏ NƏŞRİ ELMİ HƏDƏFLƏRİMİZDƏN BİRİ OLMALIDIR

YƏDULLA BƏBİR OĞLU AĞAZADƏ

LDU,Fil.e.d.prof.

ORCİD İD: 0000-0001-7022-5238

Xülasə

Lənkəran bölgəsinin zəngin flora və faunası olduğu kimi folklor inciləri, etnoqrafik örnəkləri ilə diqqəti cəlb etməkdədir. Zaman-zaman bölgənin folklor və etnoqrafiyası tədqiq edilmiş, bu istiqamətdə elmi əsərlər yazılmış, tədqiq və nəşr işləri paralel istiqamətdə aparılmışdır. Folklor xalqın elə bir mənəvi sərvətidir ki, onu xalqdan toplamaqla gələcək nəsillərə ötürmək daha çox tədqiqatçıların alimlərin vəzifəsidir. Məqalədə bu istiqamətdə söhbət aparılır, bölgənin folklor özünəməxsusluğu,etnoqrafik rəngarəngliyi barədə ilkin açıqlamalar verilir, bu sahədə elmi hədəflər qeyd olunur.

Açar sözlər: region, folklor, etnoqrafiya, məcmuə, tədqiqat, nəşr, elmi araşdırma.

Özet

Lenkeran bölgesinin zengin flora ve faunası folklor incileri ve etnografik örnekleriyle dikkat çekmektedir. Zaman zaman bölgenin folkloru ve etnografyası incelenmiş, bu doğrultuda bilimsel eserler yazılmış, paralel doğrultuda araştırma ve yayın çalışmaları yürütülmüştür. Folklor, halkın o kadar manevi bir zenginliğidir ki, onu halktan toplayıp gelecek nesillere aktarmak araştırmacıların ve bilim adamlarının görevidir. Makalede bu doğrultuda bir tartışma yürütülmekte, bölgenin folklor özgünlüğü ve etnografik çeşitliliği hakkında ön açıklamalarda bulunulmakta ve bu alandaki bilimsel hedeflere dikkat çekilmektedir.

Anahtar kelimeler: bölge, folklor, etnografiya, koleksiyon, araştırma, yayın, bilinsel araştırma.

Summary

The rich flora and fauna of the Lankaran region attracts attention with its folklore pearls and ethnographic examples. Folklore and ethnography of the region were studied from time to time, scientific works were written in this direction, and research and publishing works were carried out in a parallel direction. Folklore is such a spiritual wealth of the people that collecting it from the people and passing it on to future generations is the duty of researchers and scientists. In the article, a conversation is conducted in this direction, preliminary statements are made about the folklore uniqueness and ethnographic diversity of the region, and scientific goals in this field are noted.

Key words: region, folklore, ethnography, collection, research, publication, scientific researches.

Краткое содержание

Богатая флора и фауна Ленкоранского района привлекает внимание своими фольклорными жемчужинами и этнографическими образцами. Время от времени изучались фольклор и этнография региона, в этом направлении писались научные труды, в параллельном направлении велись исследовательские и издательские работы. Фольклор – такое духовное богатство народа, что собрать его у народа и передать будущим поколениям – долг исследователей и ученых. В статье ведется разговор в этом направлении, делаются предварительные утверждения о фольклорной уникальности и этнографическом разнообразии региона, отмечаются научные цели в этой области.

Ключевые слова: регион, фольклор, этнография, сборник, исследование, публикация, научное исследование.

Folklor, etnoqrafiya aid olduğu, təmsil etdiyi xalqın mənəvi-poetik güzgüsüdür, tanınma nişanıdır. Bu güzgüdə xalqın tarxi, inam və inanc, adət-ənənələri, həyata baxışı, dünyagörüşü ifadə olunur. Odur ki, xalqın ağız ədəbiyyatını, etnoqrafik irsini öyrənməklə bədii yaddaşlara çökən, adət-ənənələrimizin nəsildən-nəsilə ötürülən, mənən daşınan, yaşanan tariximizi, dilimizi öyrənir, sivil dünya meydanında xalq olaraq yerimizi müəyyənləşdirmiş oluruq. Məlumdur ki, dünəninə, kökünə bağlı olan xalq güclü olur, çünki xalq mənəviyyatının zənginliyini ehtiva edən folklor örnəkləri-epik, lirik, dramatik növdə hasilə gələn kollektiv yaradıcılıq məhsulları, laylalarımızdan tutmuş epos, dastan yaradıcılığına qədər rəngarəngliyi yaradan bir xalqın mənəvi sərvəti hər birimiz üçün qürur səhifəsidir. Folklorun, eləcə də etnoqrafik irsimizin digər elm sahələrindən xüsusi bir fərqi vardır. Nəsildən-nəsilə ötürülən, xalq yaddaşında yaşayan bu sərvətin canlı təmasla üzə çıxarılması, toplama, tədqiq və nəşr proseslərini yubanmadan, həm də səriştəli şəkildə həyata keçirməyin aktuallığı bu işin zəruri ümumxalq, dövlət hadisəsi olduğunu əsaslandırır. Problemin vacibliyi ondan qaynaqlanır ki, hər bir insan potensial xalq ədəbiyyatı daşıyıcısıdır, sinədəftər qocalardan görüb-bildiklərini toplamadan, folklor və etnoqrafik irsimizin çeşidli nümunələrini vaxt itirmədən arayıb axtarmadan, onlara nəşr həyatı vermədən çox qiymətli sərvətimizi itirmiş oluruq. Son illər region folklorunun, etnoqrafik irsimizin öyrənilməsi, nəşri istiqamətində dövlət səviyyəsində atılan addımlar bunu bir daha təsdiq etməkdədir. Bu cəhətdən Lənkəran bölgəsinin folklor dünyasının, etnoqrafik irsinin hərtərəfli öyrənilməsi sahəsində qüvvələri birləşdirmək, mənəvi sərvətimizin itib batmasına yol vermədən ciddi şəkildə araşdırılması əsas hədəflərimizdən biri kimi qarşımızda durmaqdadır. Bu vacib məqsədi həyata keçirməkdən ötrü son illər AMEA Lənkəran REM-də folklor və etnoqrafiya şöbəsi yaradılmış, hədəflər müəyyənləşdirilmişdir. Dövlətin işıqlı niyyətlərinə baxmayaraq təəssüf ki, bu sahədə indiyədək ciddi bir addım atılmamışdır. Region folklorunun özünəməxsus xüsusiyyətləri barədə danışmazdan öncə bir incə məqama aydınlıq gətirmək istəyirik ki Lənkəran bölgəsinin, Talış mahalının folkloru, ensiklopedik irsi ilə bağlı tədqiqatlar aşağıdakı üç mərhələdə həyata keçirilmişdir. Birinci mərhələ Azərbaycanın XIX əsrin əvvəllərində çar Rusiyası imperiyasının tərkibinə işğal yolu ilə daxil edildiyi dövrlə bağlıdır. Həmin mərhələ əsasən 1830-1917-ci illəri əhatə edir. Təbii ki, imperiya ərazisində o cümlədən, Azərbaycanda yaşayan müxtəlif xalqların el ədəbiyyatını toplamaq, yarandığı, toplandığı dildən rus dilinə tərcümə edilərək nəşrinin həyata keçirirlməsi olduqca vacib mədəniyyət hadisəsidir. Bununla belə unutmaq olmaz ki, rus imperiyası əyalətlərdə yaşayan xalqları yaxından tanımaq, onların adət-ənənələrinə bələd olmaq, həm də təsərrüfat həyatını öyrənmək, onlardan hər sahədə öz maraqlarına uyğun istifadə etmək məqsədilə bu tədbirləri həyata keçirirdi. İkinci mərhələ daha çox Azərbaycanda sovet rejimi dövrü kimi səciyyələnən 1920-1980-ci illəri xarakterizə edir. Həmin dövr bir çox müsbət meyllərlə yadda qalmışdır.

Belə ki, bütün sahələrdə, o cümlədən folklor və etnoqrafiya istiqamətində elmi araşdırmaların, miqyası genişlənsə yazılı ədəbiyyatımızda özünü açıq-aşkar şəkildə göstərən siyasi basqı, rejimin ideallaşdırılması kimi təbliğati hallar folklor və etnoqrafiyaya münasibətdən də yan keçməmiş, müxtəlif yasaqlara, təhriflərə, saxta folklor motivlərinin ortaya qoyulması hallarına yol verilmişdir.Tədqiqatların üçüncü mərhələsi 1991-ci ildən, ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra başlanır. Bu dövr bütün sahələrdə milli-mənəvi dəyərlərə qayıdış dövrü kimi səciyyələnir. Yeni tarixi şəraitdə hədəflərimizi ümumilli liderimiz Heydər Əliyevin aşağıdakı müdrik kəlamları çox dolğun şəkildə xarakterizə edir: "Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoryub saxlamaq, eyni zamanada onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". (5) Odur ki, tədqiq tarixinə mərhələli şəkildə yanaşmalı olsaq, XIX əsrin əvvələrindən başlayaraq keçirlən dövrlərə qısa ekskurs etməliyik. Arxiv sənədlərinə, eləcə də müxtəlif nəşrlərə diqqət yetirdikdə, Lənkəran regionunun folklor təsərrüfatının, etnoqrafiyasının tədqiqat tarixi barədə müfəssəl məlumat əldə etmək mümkündür. Görkəmli rus şərqşünası B.V.Millerin "Talışskiy yazık" monoqrafiyasında göstərilir ki, Lənkəran regionunun folkloru, etnoqrafiyası barədə ilk tədqiqiatlar məşhur türkoloq alim Mirzə Kazım bəyin tələbələrindən İlya Nikolayeviç Berezinə (2) (1818-1896) və digər görkəmli rus dilçisi R.F.Rissə məxsusdur (5). R.F.Riss 1860-1864-cü illər ərində Lənkərana gəlmiş, bir müddət burada yaşamış, bölgə folklorunun toplanması, tədqiqi məsələləri ilə ardıcıl şəkildə məşğul olmuşdur. B.V.Millerin monoqrafiyasında qeyd edildiyinə görə R.F.Rissin 140-dan artıq talış nəğmələrinin toplanmasına ona Lənkəranın yerli ziyalılarından "Fovcül füsəha" ədəbi məclisinin fəal nümayəndəsi Mirzə Ələkbər Aciz yaxından kömək etmişdir. (7) Lənkəran bölgəsinin ağız ədəbiyyatı nümunələri Avropanın nüfuzlu şərqşünas alimlərini də zaman-zaman maraqlandırmış, bölgənin folkloru, etnoqrafiyası barədə Avropa oxucularına məlumatlar verilmişdir. Bu cəhətdən XIX əsrin 70-ci illərində Azərbaycan folkloru, daha dəqiq desək, talış nəğmələri haqqında alman oxucularına məlumat verən görkəmli alman alimi B.Heyderin tədqiqatları maraq doğurur. Polyak əsilli rus folklorşünası A.Xodzko 1842-ci ildə Lənkəran bölgəsinin folklor sərvəti barədə ingilis dilində nəşr etdirdiyi məqalələrindən birində qiymətli məlumatlar vermişdir. Lənkəran bölgəsinin folkloru, etnoqrafiyası barədə ilkin tədqiqatlardan söhbət gedərkən 1850-1869-cu illər ərzində Lənkəranda müsəlman məktəblərində rus dili dərslərini tədris edən, şərq dilllərini mükəmməl bilən Mirzə Məhəmmədli Səfiyevin talış folkloru, bölgənin etnoqrafiyası barədə silsilə məqalələri də xüsusi maraq doğurur. M.Səfiyev 1853-1955-ci illərdə Tiflisdə nəşr olunan, "Zakafkazskiy vestnik" qəzetində bu diyarın florası, faunası haqqında Lənkəranın mineral qaynaqları barədə silsilə məqalələrində oxuculara maraqlı məlumatlar vermiş, eşitdiyi əfsanə və rəvayətlər əsasında "Xurafat", "Müdrik şahzadə qız", "Abbas oğlu Abdullanın hekayəsi", "Lənkəranda müsəlman şiələrinin bayramı", "Sücəddin baba", "Səxavətli məchul şəxs", "Zəvvar qadının tövbəsi", "Yer cənnəti", "Şərq aşiqləri", "Baba Səməd məclisi" başlığı altında hekayələr işləyərək çap etdirmişdir. Maraqlı cəhət həm də ondadır ki, XIX əsrin sonlarında, XX əsrin əvvəllərində ilk addımlarını atan, təşəkkül dövrünü keçirən Azərbaycan folklorşünaslığı, etnoqrafiiyası barədə danışarkən bu sahədə ilkin araşdırmaların müəllifi Lənkəran bölgəsindəyaşayıb-yaradan, Qori Müəllimlər seminariyasının ilk məzunlarından biri olan, zamanının görkəmli maarif xadimi, folklorçu alim və etnoqraf kimi əvəzsiz xidmətləri ilə tanınan Teymur bəy Bayraməlibəyovun (1862-1937) adını xüsusi olaraq qeyd etmək lazımdır. T.Bayraməlibəyov müəllimlik fəaliyyəti ilə yanaşı, bir folklorşünas və etnoqraf kimi də ardıcıl fəaliyyət göstərmişdir.

Lənkəranda işlərkən o zamanın inzibati ərazi bölgüsünə görə qəzanın , yəni bölgənin bir çox kəndlərini gəzərək xalqın məişəti, adət-ənənəsi, inam və inancları,xalq təbabəti, nağıl və əfsanələri barədə zəngin faktoloji məlumatlar toplamış, onları rus dilinə çevirərək o zamanlar Qafqazın mədəni mərkəzi sayılan Tiflisdə, eləcə də Bakıda dərc olunan rus dilli qəzet və jurnallarda çap etdirməyə müvəffəq olmuşdur. Azərbaycan Respublikası Əlyazmaları İnstitunda D-687110666 nömrəli fondda qorunub saxlanılan "Şah Abbasın anadan olması haqqında əfsanə", eləcə də Tiflisdə nəşr olunan SMOMPK məcmuəsinin ilk saylarında nəşr etdirdiyi "Qorxaq", "Sehirli alma" adlı mifoloji materiallar, 1911-ci ildə Bakıda rus dilli "Kaspi" qəzetində dərc olunan "Novruz bayramı" adlı sisilə məqalələr folklorşünaslıq elmi tarixində əlamətdar hadisələrdən sayılmalıdır. T.Bayraməlibəyovun etnoqrafik irsi də çox zəngondir. Bu baxımdan onun "Talış ölkəsi keçmişdə və indi" (D-695128392) adlı əlyazması xüsusi əhəmiyyət kəsb edir. Müəllif talışın təbii-coğrafi şəraiti ilə yanaşı, əhalisinin təsərrüfatı, sənətkarlıq həyatı haqqında da xeyli etnoqrafik məlumatlar vermişdir. Bu baxımdan T.Bayraməlibəyovun hələ 1885-ci ilin iyul ayında bölgənin Yeddioymaq, Xıl, Gərmətük və Veravul kəndlərində topladığı materiallar əsasında, yazdığı "İpək qurdu haqqında talış-türk əfsanəsi", yaxud "Əyyubun səbri" əfsanəsi çox səciyyəvidir. Lənkəran bölgəsinin folklor və etnoqrafiyasının eləcə də türk və talış dillərinin tədqiqi məsələləri barədə danışarkən bu istiqamətdə əvəzsiz xidmətləri olmuş şərqşünas alimlərdən Moskva Universitetinin professoru Boris Vsevoldovia Millərin adını qədirşünaslıqla qeyd etməliyik. B,V,Miller ilk dəfə Lənkəran bölgəsində 1902-ci ilin yay aylarında olaraq Lənkəran, Astara, Lerik rayonlarının müxtəlif kəndələrində çox saylı folklor örnəkləri toplamış, davamlı şəkildə elmi hesabatlarla çıxış etmişdir. (7) B.V, Millerin Lənkərana ikinci gəlişi 1925-ci ildə gəlsə də Lənkəranda, yerli yaradıcı ziyalılarla əlaqəsi regionun xalq ədəbiyyatı nümunələrinin, etnoqrafik materialların nəşrə hazırlanmasında müsbət rolunu oynamışdır. Məhz buna görədir ki, uzun illər apardığı tədqiqatlar əsasında hazırladığı toplunu 1930-cu ildə Moskvada "Talışskiye teksti" adı altında çap etdirmişdir. (7) Azəbaycanda regionaların, o cümlədən Lənkəran bölgəsinin xalq ədəbiyyatı nümunələrinin toplanması, tədqiqi və nəşri məsələləri XX əsrin əvvəllərində xüsusən keçən əsrin 20-30-cu illərində daha ardıcıl şəkildə həyata keçirilmişdir. Belə ki, 1929-cu ildən "Azərbaycanı öyrənən cəmiyyətin xətti ilə Lənkəran bölgəsinin kənd və şəhərlərinə bir çox alimlər, tədqiqatçılar gələrək, folklor ekspedisiyalarında iştirak edirlər. O zamanlar Azərbaycan Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri işləyən Vəli Xuluflunun rəhbərliyi ilə həyata keçirirlən ekspedisiyalar iki dillilik şəraitində fəaliyyət göstərmiş, faktoloji materialları nəşrə hazırlamışdır. Bu cəhətdən Vəli Xuluflunun 1931-ci ilə ayrıca kitabça şəkilində nəşr etdirdiyi Talış mahnılar (7), eləcə də prof. A.Baqrinin rəhbərliyi altında nəşr olunan 3 cildlik "Folklor Azerbaycana i preleqayuşix stran" məcmuələrində işıq üzü görən xalq ədəbiyyatı nümunələri buna əyani misaldır. Lənkəran bölgəsinin folkloruvə etnoqrafiyasının tədqiqi və nəşri problemləri bir çox zamanlarda, xüsusən XX əsrin 40-50-ci illərində səngisə də bu sahədə işlər keçən əsrin 60-80-ci illərdə davam və inkişaf etdirilmişdir. Ölkəmizdə dövlət müstəqilliyini əldə etdikdən sonra bu sahədə işlər daha intensiv xarakter almış, bölgənin folklor və ekspedisiyası barədə bir çox məqalələr, elmi monoqrafiyalar yazılmışdır. Bu cəhətdən mərhum professor Q.Cavadovun "Talışlar" (4) professor Y.Ağazadənin "Qəhrəmanlığa bərabər ziyalılıq" (1) "Teymur bəy Bayraməlibəyov və folklor" (2) kitabları daha xarakterikdir. Şübhəsiz, Lənkəran bölgəsinin folklor və etnoqrafik irsinin tədqiq tarixinə etdiyimiz qısa ekskurs vəziyyət barədə tam təsəvvür yaratmır. Bu gün də davam edən araşdırmalar bu sahədə problemin elmi əhəmiyyətindən, vacibliyindən xəbər verir. Qeyd olunmalıdır ki, lənkəran bölgəsinin folklor və etnoqrafik irsinin özünəməxsus xüsusiyyələri vardır. Bu özünəməxsusluq hər şeydən əvvəl folklor örnəklərinin iki dildə, Azərbaycan (türk) və talış dillərində söylənilməsi, yazıya alınmasıdır.

Digər bölgələrlə müqayisədə Lənkəran (Talış) mahalının özünəməxsus, fərqli cəhətlərindən biri də bu bölgənin folklor və etnoqrafik irsində mərasim folklorunun daha geniş yayılmasıdır. Bu özünün daha çox mahnıların, nəğmələrin duet oxumalarında göstərməkdədir. Onu da müəyyənləşdirmək çətin deyildir ki, mərasim nəğmələri (həm mövsüm, həm də məişət mərasim nəğmələri) ilə yanaşı, regionda həm Azərbaycan, həm də talış dilində söylənilən lirik və epik növdə olan nümunələr daha üstünlük təşkil edir. Laylalar, oxşamalar, bayatılar, ağılar, həmçinin sehirli, məişət və heyvanlarla bağlı nağıllar, əfsanələr, rəvayətlər, lətifələr, türkəçarələr və digər örnəklər bölgənin folklor təsərrüfatının nə qədər zəngin olduğunu xalqın oturaq həyat şəraitində yaşadığını diqqətimizə çatdırır. Odur ki, bütüün bölgələrin, o cümlədən Lənkəran bölgəsinin folklor və etnoqrafik irsinin toplanması, tədqiqi və nəşri məsələləri olduqca vacid elmi hədəfllərdən biri kimi qarşıda durmaqdadır. Hesab edirəm ki, bu məqsədə nail olmaqdan ötrü bölgənin folklor və etnoqrafik xəritəsi hazırlanmalı, qəbul edilmiş perspektik plan əsasında, birgə səylərlə problemin həllinə nail olmaq, bölgənin folklor antonologiyasını tərtib edib, ortaya qoymaq mümkündür.

İstifadə olunan ədəbiyyat

1. Ağazadə Y. Qəhrəmanlığa bərabər ziyalılıq, Bakı, Nurlan, 1999
2. Ağazadə Y. Teymur bəy Bayraməlibəyov və folklor. Bakı, Elm və təhsil, 2003.
3. Berezin İ.N. Puteşrdtviye po Daqestanı i Zakafkazya, Kazan, 1850.
4. Cavadov Q. Talışlar, Bakı, Elm, 2004.
5. Əliyev H. ADPU xəbərləri.
6. Miller B.N. Talışskiy yazık, M.1953.
7. Miller B.N. Talışskiye tekstı, M.1930.
8. Riss R.F. O taışinkax, ix obraze jizni i yazıke. Tiflis, 1855, VİP.III.
9. Xulufla V. Talış mahnıları, Bakı, 1931.
10. Talışlı M, B.Hüseynbalaoğlu “Lənkəran”, Maarif, 1990.

CIRCULAR ECONOMY POLICIES IN ITALY AND POLAND

HAMZA KORKMAZ

Yeditepe University, Social Sciences Institute, Faculty of Economics and Administrative Sciences, Economy Department, Istanbul, Turkey

Yeditepe University, Social Sciences Institute, Faculty of Economics and Administrative Sciences, Economy Department, Istanbul, Turkey

ORCID Code: 0000-0001-7102-8199

ABSTRACT

The world economy rises in the energy sector; with its strategic leadership in economic growth. While global development and population increase continues, the demand and need for energy scale up. This is the end of the "below average growth" era. With the impact of developing technology, renewable energy cost goes down and the transformation process is sped up by government incentives for environmentalist energy production. But; it seems that for long years, still, fossil fuels system will continue. Developments in fossil fuel-possessing countries, especially oil, have a direct impact on energy prices. As a result; the global trend for energy demand is towards clean (green) energy sources. The fight against CO2 release and climate change will become more important. Although in the predictable future, the supremacy of fossil fuels will continue; government policies and incentives will be shaped in support of works to minimize their negative impacts on nature. Demand for energy and natural resources has been increasing due to economic and population growth. Over recent years, the country has experienced the fastest surge in energy demand among OECD countries, and according to the International Energy Agency (IEA) forecasts is set to double its energy use over the next decade. will provide value to literature by increasing the importance of renewable energy sources for nature, humans, and the world. The study aims to reveal whether there is a bidirectional interaction between the renewable energy production of countries in Italy and Poland and their gross domestic product. In this study, the relationship between renewable energy production and gross domestic product was investigated bidirectionally.

Keywords: Energy, Sustainable Development, Renewable Energy, Natural Resource Economics

Jel Codes: F53 International Agreements and Observance . International Organizations, G18 Government Policy and Regulation, O1 Economic Development, Q2 Natural Resources including Energy, Natural Resources Renewable, Z13 Economic Sociology . Economic and Social Stratification,

1. INTRODUCTION

World economy rises on energy sector; with its strategic leadership in economic growth. While global development and population increase continuesly, the demand and need for energy scales up. The fight against CO2 release and climate change will become more important. Although in predictable future, supremacy of fossil fuels will continue; government policies and incentives will be shaped in support of works to minimize their negative impacts to nature.

Demand for energy and natural resources has been increasing due to economic and population growth in Turkey. Over recent years, the country has experienced the fastest surge in energy demand among OECD countries, and according to the International Energy Agency (IEA) forecasts, is set to double its energy use over the next decade. The projections of the Ministry of Energy and Natural Resources confirm that this trend will continue for the medium and long term. In my study, I will provide a value to literature by increasing importance of renewable energy sources for nature, human and world. I will try to look the impact of renewable energy on economic growth specific to Italy. Using clean, renewable energy is one of the most important actions you can take to reduce your impact on the environment. Electricity production is our first source of greenhouse gases, more than all of our driving and flying combined, and clean energy also reduces harmful smog, toxic buildups in our air and water, and the impacts caused by coal mining and gas extraction. But replacing our fossil-fuel infrastructure will take time—and strong, consistent support from both state and federal mandates to build renewable energy generation and demand for clean energy from consumers and businesses. Renewable energy sources can be used to produce electricity with fewer environmental impacts. It is possible to make electricity from renewable energy sources without producing carbon dioxide (CO2), the leading cause of global climate change. Renewable energy provides reliable power supplies and fuel diversification, which enhance energy security, lower risk of fuel spills, and reduce the need for imported fuels. Renewable energy also helps conserve the nation's natural resources. Turkey has a substantial amount of renewable energy potential, and utilization of this potential has been on the rise over the last decade.

2. LITERATURE REVIEW

Renewable energy has become very hot topic for 20 years. Renewable energy has been analysed in different aspects, data and methodology. However, the most attractive topic has become searching the relationship between the growth and the renewable energy. They are summarized below. Rafiq, Salim and Bloch (2014) by the method of multi variable vectoral error correction model are studied in China dnd India between 1972-2011. India's renewable energy Technologies contribution to its development; and China's clean Technologies adoption related to production and carbon emission, have impact on their sustainable development. Akar, (2016), Dynamic parallel data analysis is applied to Balkan countries between 1998-2011. It is determined that there is a negative and meaningfull relation between economic growth and renewable energy consumption. Cadoret and Padovana (2016), Paralel data analysis is applied to 26 EU countries between 2004-2011. It is studied that manufacturing industry loby activities delay renewable energy management. In addition, according to environment and energy policies analysis income per capita has a negative impact on renewable energy distribution. Lin, Omoju and Okonkwo (2016), Time series analysis and Vectoral error correction are applied to study in China between 1980 and 2011. It is concluded that in China, financial development has positive impact on renewable energy's share on electricity consumption; as well as in GDP and foreign investment. Papiez, Smiech and Frodyma (2018); simple linear regression analysis is applied to EU countries sample group between 1995-2014. As per this research, renewable energy growth is the main indicator to define the components of energy sources mix. These are the GDI, SWI and energy consumption cost of fossil fuel.

Hondroyiannis, (2002) He has worked on the correlation between Greece's energy consumption and economic growth between 1960-1996, by the mean of vectoral error correction model. Empirical evidences show that in long run considered variables are co-integrated, and energy consumption has a significant role in economic growth. Lau vd (2018), Co-integration analysis, Autoregressive distributed delayed boundries test, Granger causality test, are applied to Malaysia between 1980-2015. According to this study, economic growth and direct foreign investment are the main components of renewable electricity consumption. It is determined that renewable electricity consumption has negative impact on trade deficit in long run. The second attractive topic related to renewable energy is efficiency and utilization. They are mainly conducted by Rafiq and Alam (2010), Mehrara, Rezaei and Razi (2015), Marwues vd. (2011) and ALTAS, (1998). Rafiq and Alam (2010) by using Parallel data and time series analysis he analysed Brasil, China, India, Indonesia, Philippines and Turkey as sample group between 1980-2006. This study comes to the conclusion that developping countries efforts to decrease carbon density is related to their increase of renewable energy efficiency. Mehrara, Rezaei and Razi (2015), using Average most smaller squares technique and Bayesci model average technique, OECD countries are studied bewteen 1992-2011. It is stated that rural population, enviromental institutions and human capital are the most important variables affecting renewable energy consumption. Also, adverse effect of CO2 emmission have impact on its utilization increase. Marwues vd. (2011), by the mean of Dynamic data analysis, 24 countries (21 EU countries and Turkey, Switzerland and ıceland) are sampled between 1990 and 2006. In this study it is stated that , especially at the beginning, encouriging policies to endorse the utilization of renewable energy sources should be supported against pressures from fossil fuel lobies.

3. METHODOLOGY

In this study about the impact of renewable energy on economic growth, ARDL boudary test; developped by Pesaran (2001) will be utilized. This test is more convenient in comparison to co-integration methods, developped by Engle & Granger (1987) and Johansen (1988). The reason is that, it is able to test the existace of co-integration relation give that series stability level is different. In order to detect an existance of co-integration relation between series, by the mean of ADRL boundary test, first; an unlimited error correction model is to be builted. Evidences about the existance of co-integration between variables will be obtained and, accordingly, short term and long term ARDL models will be created. Economic analysis suggests that there is a long run relationship between variables under consideration as stipulated by theory. This means that the long run relationship properties are intact. In other words, the means and variances are constant and not depending on time. However, most empirical researches have shown that the constancy of the means and variances are not satisfied in analyzing time series variables. In the event of resolving this problem most cointegration techniques are wrongly applied, estimated, and interpreted. One of these techniques is the Autoregressive Distributed Lag (ARDL) cointegration technique or bound cointegration technique. Hence, this study reviews the issues surrounding the way cointegration techniques are applied, estimated and interpreted within the context of ARDL cointegration framework. The study shows that the adoption of the ARDL cointegration technique does not require pretests for unit roots unlike other techniques. Consequently, ARDL cointegration technique is preferable when dealing with variables that are integrated of different order, I(0), I(1) or combination of the both and, robust when there is a single long run relationship between the underlying variables in a small sample size.

In this study about the impact of renewable energy on economic growth, also Granger Causality test will be applied. Causality between two variables X and Y can be proved with the use of the so-called Granger causality test, named after the British econometrician Sir Clive Granger. This test makes use of Student's t-statistic and F-statistic tests and testifies when values of the variable X provide statistically significant information about the evolution of the future values of the variable Y. Let us assume that Y and X are two variables having stationary time series of data or observations. To test the null hypothesis that X does not Granger-cause Y, we first find the appropriate p lagged values of Y (the order p of the AR(p) process) to include in an AR (autoregression) process of Y. In order to detect an existance of causal inference relation between series, Granger Causality test will be applied. It was fairly quickly understood that, unlike correlation, regression has a natural direction: the regression of Y on X does not produce coefficient estimates that are the algebraic inverse of those from the regression of X on Y. The direction of regression should respect the direction of causation. We should once again distinguish between correlation and causality. Correlation is the existence of a mutual relationship or connection between two or more processes or phenomena that tend to vary, be associated, or occur together in a way not expected on the basis of chance alone. Causality (referred to also as cause and effect) is the rational relationship between two processes, the first of which (the cause) is partially or totally responsible for the second, while the second is partially or totally dependent on the first. A process can have many causes, which beginning from the past can determine quantitatively the evolution of effects in the future. Causality cannot exist without a form of correlation; however, any correlation does not mean the existence of causality. In addition, causality cannot exist unless the cause happens prior to its effect and moreover it provides statistically significant information about its effect The null hypothesis that variable X does not Granger-cause variable Y is accepted when no lagged values of the variable X are retained, after the application of t-statistic and F-statistic tests, in Eq. (7.4). Otherwise, we reject the null hypothesis in favor of the alternative, and we conclude that variable X Granger-cause variable Y and thus the future values of variable Y are depended on the present values of variable X. Annual renewable energy sources of wind power energy, hdyro power energy and sun power energy production capacity data series from 2010 to 2020, eligibility threshold and market openness data series from 20010 to 2020 will be used in the study. On the other side Gross Domestic Product (GDP) growth, Capital and Labor series will be used in the study. The main data series are mostly taken from Ember, EWEA, GWEC, WWEA and others.

Hypothesis;

H0: There is no relationship between economic growth and renewable energy sources

H1: There is a relationship between economic growth and renewable energy sources

The dependent variable, GDP (Production), will be explain with the help of following independent variables;

The independent variable, Renewable Energy Sources (Wind Power Production+Sun Power Production+Hydro Power Production)

Labor

Capital,

Standard error (ui)

$GDP = \beta_0 + \beta_1 W + \beta_2 S + \beta_3 H + \beta_4 K + \beta_5 L + ui$

Independent Variables are RES (renewable energy sources) items as S (solar), W (wind) and H (hydro) additionally labor and capital are also taken as independent variable. GDP (gross domestic product) is dependent variable and yearly datas of dependent and independent variables will be used.

RES S+W+H & L & K independent variable

GDP dependent variable

Firstly t test and F test will be applied after test results will demonstrate the number of variables are decreased or increased. Therafter I will try to apply Granger Causality and ADRL Test for my hypothesis conclusion.

The main purpose of this study is to examine the effects of renewable energy sources and some macroeconomic indicators on gross dometic products in Italy and POoand for period 1990-2020 by using ARDL bound testing approach, Granger Causality testing, Vector Error Correction Model(VECM)

VECM, Error Correction Model, time series It is a type of econometric model used in analysis. This model long-term balance between variables that are interdependent deals with relationships. Error correction model, between variables rapid short-term fluctuations and long-term differences between these variables. It combines forward balance relations.

The error correction model is usually derived from the VAR (Vector Autoregression) model is derived. VAR model calculates past values of a set of variables. It is used to predict future values using. However, VAR model deals with long-term equilibrium relationships between series can't get it.

The error correction model adds a correction term (error) to the VAR model (correction term). This term refers to the long-run equilibrium between series represents their relationships. The model uses this long-term relationship between variables tries to return to equilibrium relations, that is, between the series tries to correct errors caused by deviations.

The error correction model is usually expressed as:

$\Delta Yt=\alpha(Yt-1-\beta Xt-1)+\sum i=1p-1\phi i\Delta Yt-i+\epsilon t$

Here, Δ denotes the first difference of the variables, Yt and Xt

variables represent the series at time t, α is the long-run equilibrium

relationship, β is the error correction term, ϕi is the short-term dynamics and ϵt is

represents the error term.

Error correction model, long-term relationships between series understanding, identifying temporary fluctuations and future values used to predict. error correction model with short term questions the status of long-term convergence of knowledge. The error correction coefficient being negative and significant indicates short-term It results in the trend getting closer to cointegration in the long run. That's exactly the purpose.

Macroeconomic indicators which used in this study are: Capital, Labor, gross domestic product (GDP). Renewable Energy Sources indicators which used in this study are: hydro, sun and wind.

Hypothesis;

H0: There is no relationship between economic growth and renewable energy sources

H1: There is a relationship between economic growth and renewable energy sources

The dependent variable, GDP (Production), will be explain with the help of following independent variables;

The independent variable, Renewable Energy Sources (Wind Power Production+Solar Power Production+Hydro Power Production), labor and capital

In this study, the determinants of gross domestic products in Italy and Poland for the period of 1990-2020 empirically questioned. The model established for this purpose is as follows.

gross domestic product (GDP)

Labor(L),

Capital(K),

Wind(W),

Sun(S),

Hydro(H),

Standard error (ui)

Gdp, labor and capital are macroeconomic indicators these dataset obtained from the World Bank Development Indicators (World Bank, 2020)

Hydro, wind and sun are renewable energy sources these dataset obtained from Italian Ministry of Energy and Polish Ministry of Energy

In the model, datas were taken as per capita and logarithmic (ln) transformations of all data were made.

$$GDP = \beta 0 + \beta 1W + \beta 2S + \beta 3H + \beta 4L + \beta 5K + ui$$

4. METHODS and FINDINGS

Firstly t test and F test will be applied after test results will demonstrate the number of variables are decreased or increased. Therafter I will try to apply Granger Causality and ADRL Test for my hypothesis conclusion.

The main purpose of this study is to examine the effects of renewable energy sources and some macroeconomic indicators on gross dometic products in Italy and POoand for period 1990-2020 by using ARDL bound testing approach, Granger Causality testing, Vector Error Correction Model(VECM)

VECM, Error Correction Model, time series It is a type of econometric model used in analysis. This model long-term balance between variables that are interdependent deals with relationships. Error correction model, between variables rapid short-term fluctuations and long-term differences between these variables. It combines forward balance relations.

4.1. SHORT-TERM – LONG-TERM CAUSATION WITH ARDL TEST

For Italy, ARDL(1, 1, 1, 1, 0, 2, 1, 2) ARDL model independent variable delays were taken as max 2 due to the large number of independent variables.

The process of determining the lags of independent variables in the ARDL model has a complex structure. Because there are many independent variables involved in the model, it is important to determine lag times appropriately. In this context, the maximum number of delays was preferred as 2 due to the large number of independent variables.

